**AZƏRBAYCANDA ATATÜRK MƏRKƏZİ**

**Prof. Dr.**

**N İ Z A M İ   C Ə F Ə R O V**

# ZƏHMƏTKEŞ ALİM, TANINMIŞ DİLÇİ-TÜRKOLOQ

**"Elm və təhsil"**
**BAKI – 2012**

**Redaktor:**
**Dəyanət Osmanlı**

**Professor: Nizami Cəfərov. ZƏHMƏTKEŞ ALİM, TANINMIŞ DİLÇİ-TÜRKOLOQ.**
**Bakı, “Elm və təhsil”, 2012, 136 səh**

Kitabda Azərbaycan dilçiliyində, eləcə də, Türkologiyada özünəməxsus tədqiqatları və araşdırmaları ilə diqqəti cəlb edən filologiya elmləri doktoru, professor M.N.Çobanovun həyat yolu, elmi-pedaqoji və içtimai fəaliyyəti geniş şəkildə öz əksini tapmışdır. Kitabdan magistratura dinləyiciləri və elmi araşdırmalarla məşgul olan gənc tədqiqatçılar fayfdalana bilər.

$\frac{4702000000}{N098-2012}$ ***qrifli nəşr***

**© «Elm və təhsil», 2012**

***"Müstəqil Azərbaycan Dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir"***

***Heydər Əliyev***

# G İ R İ Ş




Müasir "Azərbaycan dilçiliyi"nin, eləcə də, Türkologiyanın tanınmış nümayəndələrindən biri də filologiya elmləri doktoru, professor M.N. Çobanovdur. O, məşhur dilçi və türkoloq alim kimi uzun müddət Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Filologiya Elmləri üzrə Ekspert Şurasının üzvü olub, onlarla doktorluq və namizədlik (fəlsəfə doktorluğu) dissertasiyalarının opponenti və əsas rəyçilərindən biri olub. O, çoxsahəli, zəngin və məhsuldar elmi və elmi – metodik yaradıcılığı, elmi pedaqoji fəaliyyəti ilə, nəinki, Azərbaycan dilçiliyində, eləcə də, Türkologiya sahəsində xüsusi mövqeyə malik olan, alimlər arasında öz səsi, öz nəfəsi və qələmi ilə fərqlənən alimlərimizdən biridir. Professor Mədət Çobanov hansı mövzuda yazırsa yazsın, onun araşdırmalarına söz ola bilməz...

Müasir dövrün ictimai-siyasi hadisələrini və beynəlxalq münasibətlərini, ölkəmizin daxili və xarici siyasətini, dövlətçilik--idarəetmə ənənələrinin müasir dövrün tələbləri səviyyəsində qurulması problemlərini dərindən izləyən prof. M. Çobanov elmi-

-pedaqoji fəaliyyətinin bütün sahələrində Ümummilli liderimiz Heydər Əliyevin “Müstəqil Azərbaycan Dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir” müdrik kəlamı üzərində köklənmiş və bu kəlamı özünün həyat devizinə çevirmişdir...

Məhz buna görə də, prof. M. Çobanov hələ sabiq, bədnam SSRİ imperiyası dövründə Azərbaycanda Heydər Əliyevin birinci dəfə hakimiyyət başına gəldiyi gündən – 14 iyul 1969-cu ildən – 12 dekabr 2003-cü ilə qədərki ictimai – siyasi və Dövləti – İdarəetmə təcrübəsini və idarəçilik görüşlərini dərindən izləmiş və belə qənaətə gəlmişdir ki. Azərbaycan Respublikasının idarəçiliyinin əsasını, təməlini və özülünü təcrübəli Dövlət xadimi Heydər Əliyevin strateji planları və strateji görüşləri təşkil edir. Deməli, heç təsadüfi deyil ki, Ümummilli liderimiz Heydər Əliyevin strateji planlarının və strateji görüşlərinin ilk araşdırıcısı da prof. M. Çobanov olmuşdur. O, aramsız olaraq, Müasir Dünyanın geniş diapozonlu və erudisiyalı Dövlət xadimi kimi şöhrət tapmış Heydər Əliyevin strateji görüşlərinin araşdırılmasını indi də davam etdirir. Nəhayət, geniş miqyaslı araşdırmalar və həyati müşahidələr öz bəhrəsini verir. 1997-ci ilin 30 avqustunda prof. M. Çobanovun Ümummilli liderimiz Heydər Əliyevin strateji görüşlərinə həsr olunmuş “Görkəmli strategiyaçı” adlı ilk məqaləsi “Azərbaycan ordusu” (№ 30 (320), 7 avqust 1997) qəzetinin səhifələrində işıq üzü görür...

Beləcə də, prof. M. Çobanovun Ümummilli liderimiz Heydər Əliyevin strateji görüşlərinin geniş miqyaslı araşdırmaları davam etdirilir. Bundan sonra, prof. M. Çobanov “Xalq qəzeti”, “Azərbaycan müəllimi”, “ Azərbaycan ordusu”, “Dalğalar qoynunda” ( AAHDM-nin çoxnüsxəli qəzeti), “ Şərqin səsi”, “ Elm və təhsil” və s. qəzetlərin səhifələrində Ümummilli liderimiz Heydər Əliyevin strateji görüşlərinə dair onlarla məqalələr çap etdirir...




Həmçinin, prof. M. Çobanov, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dövləti-idarəetmə sahəsindəki strateji görüşlərinin qəzet səhifələrində təbliği ilə kifayətlənməyib, Respublika miqyaslı bir sıra Elmi – nəzəri və Elmi – praktik Konfranslarda da elmi məruzələrlə çıxış etmişdir. O cümlədən:

- Bakı Ali Hərbi Dənizçilik Məktəbində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 75 illiyinə həsr olunmuş "Ali Baş Komandan – Ordu quruculuğunun təminatçısıdır" mövzusunda keçirilən Elmi – praktik Konfransda " Natiqlik sənətinin mahir ustadı" ( H. Əliyev haqqında) mövzusunda məruzə etmiş və həmin məruzə "Konfransın materialları"nda çap olunmuşdur (Bakı, 1999. səh. 102-113);
- Bakı Ali Birləşmiş Komandanlıq Məktəbi Elmi – praktik Konfransında prof. M. Çobanov "Heydər Əliyev və gənclərin azərbaycançılıq ruhunda tərbiyəsi" mövzusunda məruzə ilə çıxış etmişdir (may 1998-ci il);
- Azərbaycan Dillər Universiteti "Heydər Əliyev və dilimiz, ədəbiyyatımız, tariximiz" mövzusunda keçirilən Respublika Elmi - nəzəri Konfransında prof. M. Çobanov " Görkəmli strategiyaçı" mövzusunda məruzə ilə çıxış etmiş və məruzənin tezisləri çap olunmuşdur ("Azərbaycan müəllimi", №18 (8022), 2-8 may 2003-cü il) ;
- Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 80 illik Yubileyinə həsr olunmuş Elmi – praktik Konfransda prof. M. Çobanov "Heydər Əliyev və onun hərbi-strateji görüşləri" mövzusunda məruzə et-

miş və həmin məruzə "Konfransın materialları"nda çap olunmuşdur (2 may 2003-cü il);

- Azərbaycan Prezidenti Heydər Əliyevin anadan olmasının 80 illik Yubileyinə həsr olunmuş Elmi – praktik Konfransda prof. M. Çobanov "Heydər Əliyev Hərbi strategiyanın banisidir" mövzusunda məruzə ilə çıxış etmişdir. Daxili qoşunların "N" saylı hərbi hissəsi, 8 may 2003-cü il.;

- Həmçinin, prof. M. Çobanovun "Türk dünyasının öndəri" (Bax A. Qurbani, Əbədiyaşar Komandan, Bakı, 2004. səh. 335-336); "Azərbaycanşünaslığın atributları" (AAHDM, "Elmi əsərlər", Bakı, 2005. səh. 107-118); "Müəllim-zabit yaradıcılığı və onun pedaqoji ustalığı" (AAHDM, "Elmi əsərlər", Bakı, 2007, səh. 20-31); "Müəllim-zabitin müstəqil olaraq təhsilini artırması problemləri" (AAHDM, "Elmi əsərlər", Bakı, 2007. 29-43;), «Kafedra – müəllimin öz təhsilini artırma akademiyasıdır" (Azərbatcan Dövlət Dənizçilik Akademiyası, Bakı, 2007, səh. 118-124) məqalələri də bilavasitə Ümummilli liderimiz Heydər Əliyevin strateji görüşləri ilə bağlıdır...

Professor M. Çobanov Ümummilli liderimiz Heydər Əliyevin strateji görüşləri ilə bağlı olan məqalələrini və Elmi – nəzəri və Elmi – praktik Konfranslarda etdiyi məruzələri üzərində yenidən işləmiş və "Görkəmli strategiyaçı" adlı kitab (2003) nəşr etdirmişdir. Müəllif bu kitab üzərində yenidən işləmiş, təkmilləşdirmiş və əlavələr etməklə 2004-cü ildə ikinci nəşrini çap etdirmişdir. Lakin prof. M. Çobanov bununla kifayətlənməmiş və öz araşdırmalarını davam etdirmişdir. Nəhayət, müəllif 2004-2009-cu illərindəki araşdırmalarını da kitaba əlavə edərək, onu yenidən təkmilləşdirib 2010-cu ildə üçüncü dəfə çap etdirmişdir...

Prof. M.Çobanovun "Görkəmli strategiyaçı" (2010, 172 + 10 = 182 səh.) monoqrafiyasının üçüncü nəşrini Ümummilli liderimiz Heydər Əliyevin strateji görüşlərinə həsr olunmuş mükəmməl bir əsər hesab etmək olar. Müəllif kitabın "Görkəmli srtrategiyaçı" adlanan ilk bölməsinin başlanğıcında yazır:




"Müasir dünyanın geniş diapazonlu və erudisiyalı tanınmış siyasətçi və təcrübəli dövlət xadimi, öz xalqının mənafeyini hər şeydən üstün tutan, müasir dünya siyasəti, xalqımızın tarixən formalaşmış və minilliklərdən bəri təşəkkül tapmış mənəvi-siyasi ideyası ilə silahlanmış görkəmli strategiyaçı Heydər Əliyevin perspektiv proqram xarakterli "Müstəqil Azərbaycan Dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir..." kəlamı müstəqil dövlətimizin əsas strategiyasını istiqamətləndirən və tənzimləyən bir sənəd kimi, ölkəmizin istər ziyalıları - alimləri, hərbçiləri, istərsə də təhsil və təsərrüfat sistemi əməkdaşlarının qarşısında çox böyük tarixi vəzifələr qoymuşdur.

Prezident Heydər Əliyevin yuxanda qeyd olunan proqram xarakterli qısa kəlamının arxasında çox böyük bir məna, məzmun və mündəricə özünə yer tapmışdır. Bu qısa kəlamı dərindən təhlil etsək görərik ki, həmin kəlamın ümumi məzmununda həm strategiyaçı, həm də strategiyamız üçün ən vacib olan bütün parametrlər öz əksini tapmışdır.

Heydər Əliyevin bütün nitqlərini, xalqa müraciətlərini, ayrı-ayrı dövlət, elm və incəsənət xadimlərinə yazdığı məktublarını dərindən nəzərdən keçirdikdə belə bir qənaətə gəlmək olur ki, o, dövrümüzün və zəmanəmizin görkəmli stategiyaçı-siyasətçilərindən biri, böyük dövlət xadimi, təşkilatçı və qurucu, müdrik və mütəfəkkir bir şəxsiyyətdir. O, həm bu günümüzün, müasir dövrümüzün, həm də gələcəyin əvəzolunmaz

strategiyaçısıdır. Bu mənada, onu xalqımızın, bütövlükdə isə, türk dünyasının idrak və düşüncə xəzinəsinin sərrafı, təfəkkür və ictimai-siyasi tariximizin böyük dühası hesab etmək olar.

XX əsrin sonuncu onilliyində tale xalqımızın üzünə yenidən gülmüş, xalqımızın üzündəki sevinc çöhrələri yenidən parlamış, xalqımız illərlə mübarizə aparmış, qəlbində qoruyub saxladığı müstəqilliyə yenidən qovuşmuş, özünün müstəqil, suveren Azərbaycan Respublikasını yaratmışdır. Ümummilli liderimiz, müasir mərhələdə dövlətçiliyimizin və strategiyamızın banisi Heydər Əliyev bu münasibətlə nitqlərinin birində demişdir: "Müstəqil Azərbaycan ifadəsi indi hamı üçün əzizdir, bunu hamı təkrar edir. Ancaq, hər kəs də başa düşməlidir ki, Müstəqil Azərbaycanın müstəqil yaşaması üçün hər bir vətəndaşın vətəndaşlıq borcu var. Bunu təmin etmək üçün hər bir vətəndaş öz paymı verməli, öz xidmətini göstərməlidir”.

“Ümummilli liderimiz və görkəmli strategiyaçı Heydər Əliyevin bu müdrik kəlamında Müstəqil Azərbaycan dövlətinin əsas ideyası, azərbaycançılıq - strategiyasının bütün sahələri qısa və yığcam halda öz əksini tapmışdır:

Bəs, strateji baxımdan, azərbaycançılığın atributları nədən ibarətdir? Strateji baxımdan, azərbaycançılığın atributlarına aşağıdakılar aiddir:

Xalqımızın tarixən təşəkkül tapmış və inkişaf etmiş milli sərvəti - Ana dilimizin tarixi nöqteyi-nəzərdən dərindən araşdırılması və mükəmməl öyrənilməsi.

Xalqımızın tarixi ünvanı - Azərbaycanın tarixi ərazisinin (500 min kv. km.) mükəmməl öyrənilməsi.

Xalqımızın tarixi tərcümeyi-halı və ya həyatnaməsinin - etnik tarixinin araşdırılması və dərindən öyrənilməsi.

***

Burada müdriklərimizin bir neçə kəlamını da yada salmaq yerinə düşərdi:

**Bəhmənyarın bir müdrik kəlamında deyilir**: "Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun, elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin."

**M.S.Ordubadi demişdir**: "Cəbhədə qılınca, məclisdə nitqə malik olanlar qəhrəmandır".

Bu ifadələr, sanki, ümummilli liderimiz, azərbaycançılıq konsepsiyasının müəllifi Heydər Əliyev haqqında deyilmişdir.

Həqiqətən də, belədir: Heydər Əliyevlə söhbət ən yaxşı kitaba bərabərdir, kitabları və ya çıxışları isə məşhur filosoflarla söhbətə dəyər; həmçinin, Heydər Əliyev gözəl nitqi ilə məclislərin qəhrəmanı adına layiqdir.

***

Tarixi ünvanımızdan söz düşəndə tarixi düşmənlərimizin bu istiqamətdə "fəallaşması" məqsədli olaraq, tarixi ünvanlarımızın dəyişdirilməsinə istiqamətləndirilmişdir. Burada "Xalqlar həbsxanası" adlanan Çar Rusiyasının Azərbaycana olan maraqlarını reallaşdırmaq məqsədilə Azərbaycana qarşı böyük müharibələrə başlamasını və onun xalqımız üçün "acı nəticələrini" xatırlamamaq olmur. Odur ki, tarixə qısa ekskursiya etmək yerinə düşərdi:

**1803- cü ilin yazı** - Tarixi düşmənimiz "Çar Rusiyasının qoşunları tarixi torpaqlarımızın şimal-qərb bölgəsini - Balakəni işğal edir. Beləliklə də, Azərbaycan ərazisinin parçalanması və işğal edilməsi başlanır.

**1804-cü il 3 yanvar** - Çar Rusiyasının qoşunları tərəfindən Gəncə qalası və Gəncə xanlığının ərazisi işğal olunur.

**1805-ci ilin 14** mayında imzalanmış Kürəkçay müqaviləsinin şərtlərinə görə, Qarabağ xanlığı Rusiya qoşunları tərəfindən işğal edilir.

**1805-ci ilin 21 may** müqaviləsinin şərtlərinə görə, Şəki xanlığı da Rusiya qoşunları tərəfindən işğal olunmuş hesab edilir.

**1805-ci il 25 dekabr** - Rusiya qoşunları tərəfindən Şirvan işğal olunur.

**1806-cı il 23 iyun** - Rusiya qoşunları tərəfindən Dərbənd işğal olunur.

**1806-cı il 3 sentyabr** - Rusiya qoşunları tərəfindən Bakı işğal olunur.

**1813-cü il 1 yanvar** - Rusiya qoşunları tərəfindən Lənkəran işğal olunur.

**1813-cü il 12 oktyabr** - Gülüstan müqaviləsinin şərtlərinə görə, Talış, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ və Şəki xanlıqları Rusiya imperiyasının tərkibinə qatılır. Beləliklə də, tarixi Azərbaycan dövlətçiliyi zəiflədilir və ərazisi parçalanır.

**1828-ci il 10 fevral** - Rusiya imperiyası ilə İran şahlığı arasında bağlanan Türkmənçay müqaviləsinin şərtlərinə görə, tarixi Azərbaycanın 144 min kvadrat kilometrlik şimal əraziləri Çar Rusiyasının; 356 min kvadrat kilometrlik cənub ərazisi isə, İran şahlığının müstəmləkəsinə çevrilir. Beləliklə də, Azərbaycan iki işğal dairəsinə bölünür və Azərbaycanın dövlətçilik ənənələrinə son qoyulur...

**1918-ci ilin 28 mayında** Azərbaycanın Şimal ərazisində Azərbaycan Xalq Cümhuriyyəti yaradılır. Bu zaman AXC-nin ərazisi 114 min kvadrat kilometr olmuşdur.

**1920-cı ilin 27-28 aprelində** Sovet Rusiyası Şimali Azərbaycan ərazisini - AXC-nin tabeliyində olan əraziləri yenidən işğal etdi və beləliklə də, uzun müddət dövlətçiliyimizə son qoydu, ölkədə ermənilərin vasitəsilə kütləvi soyqırımı və qırğınlar törətdi...

**1921-ci ildə** Sovet Rusiyası Azərbaycanın siyasi xəritəsini yenidən "ölçüb-biçdi" və Azərbaycan Respublikasının ərazisini 114 min kvadrat kilometrdən 86.6 min kvadrat kilometrə endirir. Onun torpaqlarının 20 min kvadrat kilometrlik ərazisini - Qərbi

Azərbaycanı "haylara" - ermənilərə pay verir və beləliklə də, 29 min kvadrat kilometrlik ərazisi olan gəlmə ermənilər üçün Ermənistan Respublikasını - dövlətini yaratdı... Beləcə də, xalqımızın ağrılı-acılı günləri başlandı... nəticəsi də göz qabağındadır...

Monoqrafiyanın "Azərbaycanda milli zabit kadrlarının hazırlığı (1970-1990)" mərhələsi adlanan ikinci bölməsində görkəmli strategiyaçı Heydər Əliyev 1969-cu ilin iyulunda Azərbaycanda hakimiyyətə gəldiyi gündən, ilk növbədə, Azərbaycanda milli zabit kadrlarının hazırlığı məsələsini gündəmə gətirilməsi (H. Əliyev hələ sabiq SSRİ imperiyasının Dövlət Təhlükəsizliyi Komitəsində xidmət etdiyi illərdə " qan çanağı" üzərində qurulmuş SSRİ-nin dağılacağını qabaqcadan görürmüş) və çətinliklə də olsa, 1970-ci ildə hərbi təmayüllü orta məktəb--hərbi lisey təsis edilməsinə - indi fəaliyyətdə olan C. Naxçıvanski adına hərbi lisey təsis etməyə nail olması; həmçinin, zabit kadrları hazırlığını sürətləndirmək məqsədilə azərbaycanlı gənclərin müəyyən limitlə sabiq SSRİ Müdafiə Nazirliyinin tabeliyində olan 58 Ali Hərbi Məktəbdə təhsil almasına SSRİ hökumətindən limit almağa nail olması; Azərbaycanda ordu quruculuğunun Naxçıvan mərhələsi (1990-1993) və Azərbaycanda Milli Ordu yaradılması və Ordu Quruculuğunda islahatların həyata keçirilməsi (1993-2003) və müasir dövrün tələbləri səviyyəsində Milli Ordunun yaradılmasına nail olunması məsələləri hərtərəfli şərh olunmuşdur.

"Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayıb və ilbəil zənginləşibdir....". "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir", - deyən görkəmli strategiyaçı Heydər Əliyevin "Dil siyasəti" monoqrafiyanın üçüncü bölməsində öz geniş əksini tapmışdır. Bu bölmədə Ümummilli liderimiz Heydər Əliyevin "Dil siyasəti" iki mərhələdə araşdırılmışdır.

Monoqrafiyada görkəmli strategiyaçı Heydər Əliyevin "Dil siyasəti"nin birinci mərhələsi (1960-cıı illərin ikinci yarısı – 1990-cı illər) qeyri-rəsmi və rəsmi olmaqla iki dövrə bölünmüş və

hər dövr ayrıca şərh olunmuşdur. Ana dili siyasətinin ilk mərhələsinin qeyri-rəsmi dövrü 1960-1978 –ci illəri əhatə edir və bu dövrdə “Sovet repressiyası” tüğyan etdiyi dövrdə Azərbaycanda hakimiyyət başına gəldiyi gündən Heydər Əliyev hər yerdə bütün çıxışlarında Ana dilində - Azərbaycan dilində çıxış etməklə, nitq söyləməklə Ana dilimizin tətbiqi işinin canlandırılmasına “Yaşıl işıq” yandırması (Çünki o dövrdə Azərbaycan SSR-in mövcud Konstitusiyasında Azərbaycan dili rəsmi Dövlət dili kimi tanınmırdı) ziyalılarımız, bütövlükdə isə, xalqımız arasında alqışlarla qarşılanması; Ana dili siyasətinin birinci mərhələsinin ikinci dövrü Əliyevin təşəbbüsü və sədrliyi ilə 1978-ci ildə “Azərbaycan SSR Konstitusiyası”nın yenidən qəbul edilməsi və Konstitusiyanın “Dövlət dili” adlanan 73 Maddəsində “Azərbaycan SSR-in Dövlət dili Azərbaycan dilidir” ifadəsinin ölkə Konstitusiyasında öz əksini tapması məsələləri ətraflı şərh olunmuşdur.

Həmçinin, monoqrafiyada “Dil siyasəti”nin ikinci mərhələsi də (1990-2003) görkəmli strategiyaçı Heydər Əliyevin “Hər bir azərbaycanlı öz ana dilini yaxşı bilməli, onun ədəbi formasından yaxşı istifadə etməyi bacarmalıdır” kəlamı işığında hərtərəfli şərh olunmuş, Ana dilimizin təmizliyi, saflığı, inkişaf etdirilməsi, rəsmi Dövlət statusu haqqında bir sıra Fərmanlar imzalanması da yüksək səviyyədə təhlil olunmuşdur. O cümlədən: “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” (18. VI. 2001), “Azərbaycan Əlifbası və Azərbaycan dili Gününün təsis edilməsi haqqında” (1. VIII. 2001), “Azərbaycan Respublikasında Dövlət dili haqqında” (Y.I. 2003) və s. qeyd etmək olar.

“Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu sadəcə, Orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur Vətənpərvərlik”, - deyən Heydər Əliyevin bu müqəddəs kəlamı işığında “Heydər Əliyev və azərbaycançılıq tərbiyəsi” mövzusu da müasir dövrün tələbi

baxımdan ətraflı təhlil olunmuşdur.

Prof. M. Çobanov “ Görkəmli strategiyaçı” kitabının dördüncü bölməsində Ümummilli liderimiz Heydər Əliyevin ayrı-ayrı nitqlərini, müxtəlif tədbirlərdəki çıxışlarını fasiləsiz olaraq dinləməsini, onun nitqinin sadəliyini, aydınlığın, ahəngdarlığını, hamı tərəfindən anlaşıqlı və başa düşülən olmasını, mədəniliyini və üslubi baxımdan dəqiqliyini və aydınlığını, elmiliyini və məntiqiliyini nəzərə olaraq, görkəmli strategiyaçını, həm də natiqlik sənətinin mahir ustadı olması məsələlərini Natiqin nitqindən götürülən nitq parçaları üzərində geniş şəkildə təhlil etmişdir. Başqa sözlə desək, Heydər Əliyevin nitqinin mahiyyətini, özəlliyi ondan ibarətdir ki, o, alimlərlə elmi dildə, mühəndislə texniki dildə, təhsil işçiləri ilə təhsil işçisi, səhiyyə işçiləri ilə tibbi dildə, hərbçilərlə hərbiçi dilində, hüquqşünaslarla hüquqi dildə, kəndlilərlə kəndli və təsərrüfatçı dilində çox aydın və sadə cümlələrlə danışmağı bacarırdı. Bir sözlə, sosial qrupundan asılı olmayaraq, dinləyicilərin tam mənası ilə başa düşəcəyi dildə nitq söyləməyi bacarırdı. Bu mənada, görkəmli strategiyaçı Heydər Əliyevin hər bir nitqi hamı üçün örnək ola biləcəyi məsələlər də ətraflı şərh olunmuşdur. Bunu monoqrafiyanın məziyyətləri kimi qiymətləndirmək olar.

Müstəqil Azərbaycan Dövlətinin müəllifi və banisi Heydər Əliyevin ölkə miqyaslı ümumi strategiyası çərçivəsində ölkəmizin aparıcı əməkçi qüvvələri arasında böyük rol oynayan Həmkarlar Təşkilatlarının gələcək perspektivləri də özünəməxsus yer tutmuşdur. Bu münasibətlə Ümummilli lider Heydər Əliyev demişdir:

“Hər bir Həmkarlar İttifaqı təşkilatı yeniliyin bayraqdarı olmalı, fəhlələrin təşəbbüsünü müdafiə etməli, zəhmətkeşlərin ehtiyaclarının ödənilməsinə daim qayğı göstərməli, tapşırıqları, müqabil planları... yerinə yetirmək uğrunda əmək kollektivinin mübarizəsinin önündə getməlidir .”

Bütün bunlar Azərbaycan Respublikasının Həmkarlar İttifaqları haqqında “Qanunu”ndan və “Nizamnamə”sindən və digər normativ aktlardan irəli gələn tələblərin həyatda tətbiqi məsələləri

də ardıcıllıqla şərh olunmuşdur...

Bu mənada, prof. M. Çobanovun " Görkəmli strategiyaçı" monoqrafiyası bütün ziyalılarımızın, xüsusilə inzibati – dövlət orqanlarında və digər sahə əməkdaşlarının masaüstü kitabı kimi çox qiymətlidir...

Yuxarıda qeyd olunanlardan başqa, monoqrafiyada Azərbaycan Respublikasının eks- prezidenti Heydər Əlirza oğlu Əliyevin dəfn mərasiminin təşkili üzrə Dövlət Komissiyasının məlumatı; müəllifin Ümummilli lider Heydər Əliyevin ölümü münasibətilə yazdığı " Böyük itki" ("Xalq qəzeti", 23 dekabr 2003-cü il) və "Türk Dünyasının öndəri" (bax: "Əbədiyaşar Komandan" – Xatirə kitabı, Bakı, 2004, səh. 335-336) məqalələri, həmçinin H.Ə. Əliyevin xatirəsinin əbədiləşdirilməsi üzrə Dövlət Komissiyasına təqdim olunan " H.Ə.Əliyevin xatirəsinin əbədiləşdirilməsi vacibdir" adlı məktubu da çap olunmuşdur.





*Nizami CƏFƏROV,*
*Millət vəkili,*
*Atatürk Mərkəzinin direktoru,*
*Azərbaycan MEA-nın*
*müxbir-üzvü,*
*filologiya elmləri doktoru,*
*professor.*

## ZƏHMƏTKEŞ ALİM, TANINMIŞ DİLÇİ-TÜRKOLOQ

Elmi-pedaqoji fəaliyyətinin 50, anadan olmasının 70 illik Yubileyini qeyd etməyə hazrlaşdığımız tanınmış alim, məşhur dilçi, istedadlı türkoloq, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü, filologiya elmləri doktoru, professor Mədəd Çobanov çoxşaxəli, zəngin və məhsuldar elmi və elmi-metodik yaradıcılığı, elmi--pedaqoji fəaliyyəti ilə, nəinki Azərbaycan dilçiliyində, eləcə də, Türkologiyada xüsusi yer tutan, diqqət mərkəzində saxlanılan, yaradıcılığı elmi-ictimaiyyətin marağına səbəb olan, alimlər arasında öz səsi, nəfəsi və qələmi ilə fərqlənən alimlərimizdən biridir.

"M.N.Çobanov dilçi-filoloqlarımız arasında öz səsi və qələmi ilə fərqlənir. O, elmi yaradıcılığa başladığı ilk günlərdən qabaqcadan elmi müşahidələr aparmış, dilçiliyimizdəki boşluqları müəyyənləşdirmiş və qələmini də elə bu boşluqlarda sınaqdan keçirmişdir. Geniş elmi erudisiyaya malik olan alim Azərbaycan dilçiliyində ilk dəfə olaraq, dilimizin dialekt və şivələrinin leksik ("Bolnisi rayonu şivələrinin leksik xüsusiyyətləri" - namizədlik

dissertasiyası), antroponimik ("Azərbaycan antroponimiyasının əsasları" - doktorluq dissertasiyası, bu sahəyə dair 5 kitab və 40-dan çox məqalə çap etdirib), leksikoqrafik və metodik (ilk dəfə olaraq "Azərbaycanca-gürcücə qısa danıştq lüğəti" (1977, 1991, 2008) xüsusiyyətləri ilə məşğul olmuşdur. Onun ədəbiyyatşünaslıq problemləri ilə yaxından bağlı olan onlarla ədəbi-tənqidi məqalələri, rəyləri, Azərbaycan və gürcü dillərində çap olunmuş almanaxları vardır.

Ümumilikdə, M.N.Çobanovun əsərləri elmi-nəzəri və təcrübi cəhətdən çox əhəmiyyətlidir. Onun əsərləri dil tarixi, müasir dil, dialektologiya, onomastika, etimologiya, bilinqvizm baxımından /Azərbaycan-gürcü dillərinin qarşılıqlı əlaqəsinə dair tədqiqləri/ təqdirə layiqdir..."

Prof. M.Çobanov 50 illik elmi-pedaqoji fəaliyyəti dövründə çoxsahəli nəzəri və təcrübi istiqamətlərdə araşdırmalar aparmışdır:

1. Azərbaycan dialektologiyası;
2. Azərbaycan onomastikası;
3. Ümumi türkoloji məsələlər;
4. Müasir Azərbaycan ədəbi dili;
5. Dilin tədrisi metodikası;
6. Mətnlərin dilinin təhlil;
7. Dil əlaqələri;
8. Əbədi tənqid, ədəbi əlaqələr və publisistika;
9. Hərbi humanitar elmlər;
10. Təhsil məsələləri;
11. Lüğətçilik məsələləri...

Yuxarıda qeyd olunanlardan göründüyü kimi, prof. Mədəd Çobanov çoxsahəli elmi və metodik yaradıcılığa malik olan yenilikçi alimlərimizdən biridir. O, elmin yuxarıda qeyd olunan sahələrinin bir çoxu üzrə ümumtəhsil və ali məktəblər üçün onlarla tədris proqramı, dərslik və dərs vəsaitləri hazırlayıb çap etdirmişdir.

Bir sözlə, professor Mədəd Çobanov müasir elmin tələblərinə

həm nəzəri, həm də tətbiqi cəhətdən ətraflı cavab verən, elmi əlaqələndirmə problemlərini dərindən bilən, elmdə özünü göstərən boşluqları müəyyənləşdirməyi bacaran, yaradıcı, təşşəbbüskar, yüksək dərəcədə ixtisaslaşmış və geniş fəaliyyət göstərən istedadlı alimlərimizin ön sıralarında adı çəkilən alimlərimizdəndir.

Azərbaycan Ali Hərbi-Dənizçilik Məktəbində bütün nailiyyətlərin qazanılmasında professor-müəllim və müəllim-zabit heyəti ilə yanaşı, filologiya elmləri doktoru, Nyu-York EA-nın həqiqi üzvü, professor Mədəd Namaz oğlu Çobanovun xüsusi fəaliyyəti olmuşdur.

Mədəd Namaz oğlu Çobanov – 11 mart 1937-ci ildə Gürcüstan Respublikasının Bolnisi rayonunun Darvaz kəndində (sabiq Borçalı mahalında) anadan olub. O, 1955-ci ildə orta məktəbi 1960-cı ildə A.S.Puşkin adına (indi S.S.Orbeliani adına) Tiflis Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsinin Azərbaycan bölməsini bitirib, müxtəlif vaxtlarda orta məktəbdə müəllim, Gürcüstan LKGİ-nin Bolnisi rayonu komitəsində Məktəb şöbə müdiri, Gürcüstan KP-nin Bolnisi rayonu komitəsində təlimatçı işləyib. 1970-ci ildən 1993-cü ilin iyun ayına qədər A.S.Puşkin adına TDPİ-nin Azərbaycan dili və ədəbiyyatı kafedrasında müəllim, dosent, kafedra müdiri əvəzi, İnstitut Metod Şurasının sədr müavini və üzvü, 1992-ci ilin oktyabr ayından professor, eyni vaxtda 1974-cü ildən 1993-cü ilə qədər Gürcüstan Respublikası Təhsil Nazirliyinin MMTİ-də müəllimlərin ixtisasartırma kurslarında orta məktəblərin Azərbaycan dili və ədəbiyyatı müəllimləri, dərs hissə müdirləri və direktorlarına mühazirələr oxumuşdur. O, İstefada olan kapitandır.

XX əsrin 80-ci illərinin son ayları - illəri keçmiş SSRİ imperiyasının hər yerində olduğu kimi, Gürcüstanda da çox mürəkkəb siyasi-ictimai - milli ədavət xarakterli hadisələrlə müşaiət olunurdu. Elə bu ictimai-siyasi hadisələr burulğanının törətdiyi qarma-qarışıqlıqlar olaylarında Borçalılar kimi Qədim Borçalının mübariz oğlu Mədəd Çobanov da doğma

yurd-yuvasını, orta təhsil aldığı Darvaz orta məktəbini, 5 il ali təhsil aldığı və sonralar 25 ilə yaxın əməkdaşı olduğu S.S.Orbelinini adına Tbilisi Dövlət Pedaqoji Universitetinin professor-müəllim heyətindən və tələbə kollektivindən ayrılıb, Böyük Vətənimizə - Bakıya köçməli oldu... Beləcə də, professor M.Çobanov həyatının yetkinlik və müdriklik çağlarını Bakının müxtəlif ali məktəblərində, xüsusi ilə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində müxtəlif vəzifələrdə elmi-pedaqoji fəaliyyətini davam etdirmişdir....

Hal-hazırda professor M.Çobanov pensiyaçı olsa da, yenə əvvəlki gənclik enerjisi ilə araşdırmalarını davam etdirir... yeni-yeni uğurlar qazanır...

M.N.Çobanov 1993-cü ilin iyun ayından 1994-cü ilin sentyabr ayına kimi Azərbaycan Fasiləsiz Təhsil Kompleksi-"Futuroloq"da "Dillər" kafedrasının müdiri, prorektor, vitse-prezident, AFTK-nın nəzdində müstəqil fəaliyyət göstərən Azərbaycan Elitar İnstitutunun rektoru, 1994-cü ilin sentyabr ayından 1995-ci ilin sentyabr ayına kimi "Şimal" Universitetində "Dillər" kafedrasının müdiri; 1995-ci ilin sentyabrından 1996-cı ilin oktyabr ayına kimi Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutunda Ali və Orta İxtisas Təhsili Məktəblərinin professor-müəllim heyətinin İxtisasartırma fakültəsinin dekanı və Tədris-Təşkilat kabinetinin müdiri vəzifəsində işləmiş və həmin fakültədə mühazirələr oxumuşdur. O, eyni zamanda Azərbaycan Texniki Universitetində də mühazirələr aparmışdır.

O, sentyabr 1996 – sentyabr 2010-cu illərdə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində "Dillər" kafedrasının müdiri və Elmi Şuranın üzvü və "Dalğalar qoynunda" qəzetinin baş redaktoru olub. O, həmçinin, eyni zamanda Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində və Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyasında da mühazirələr aparmışdır.

M.N.Çobanov Azərbaycan Onomastikası Cəmiyyəti İdarə heyətinin üzvü və Elmi Əlaqələndirmə Şurası Sədrinin müavinidir. M.N.Çobanov - 1973-cü ildən filologiya elmləri namizədi,

1978-ci ilin may ayından dosent, 1992-ci ilin fevral ayından filologiya elmləri doktoru və 1992-ci ilin oktyabr ayından professor və 1993-cü ildən Azərbaycan Alimlər İttifaqının üzvüdür.

M.N.Çobanov hələ tələbə vaxtlarından elmi tədqiqat işlərinə güclü meyl göstərmiş, tez-tez TEC-də müxtəlif mövzularda məruzələr etmiş, 1957-ci ildən elmi xarakterli yazıları ilə "Şərqin Şəfəqi", "Azərbaycan gəncləri" və digər qəzetlərdə çıxış etməyə başlamış, sıravi müəllimlikdən professor və Nyu-York Elmlər Akademıyasının akademiki kimi yüksək vəzifələrinə qədər şərəfli bir yol keçmişdir.

M.N.Çobanov geniş elmi diapozona malik olan dilçi-filoloq alimlərimizdən biridir. Alim öz qələmini həmişə elmin müxtəlif sahələrində ilk sınaqlardan çıxaranlardan biri olmuşdır. O, 580-yə yaxın elmi-tədqiqat əsərinin, elmi-tənqidi məqalənin və rəylərin müəllifidir, həmçinin, onun müxtəlif qəzetlərin səhifələrində biblioqrafiyaya salınmayan 220-dən çox publisistik yazıları, reportajları və məqalələri çap olunmuşdur. Filologiyamıza, tarixşünaslığımıza və pedaqogikamıza bəxş olunmuş 80-ə yaxın kitab, 26 proqram, 100-ə yaxın akademik xarakterli elmi məqalə, 450-dən çox ədəbi-tənqidi məqalə və rəylər müəllifin qələminin məhsuludur.

Alimin əsərləri Azərbaycanda, Gürcüstanda, Türkiyədə, Özbəkistanda, Qırğızıstanda, Başqırdıstanda və digər ölkələrdə Azərbaycan, türk, özbək, qazax, qırğız, rus, gürcü və erməni dillərində müxtəlif mətbuat orqanlarında, qəzet və jurnallarda, Elmi məcmuələrdə nəşr edilmiş, kitabları müxtəlif dillərdə çap olunmuşdur. Onun ədəbi-tənqidi məqalələri və rəyləri Azərbaycan Respublikasının "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi", "Ədəbiyyat və incəsənət", "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Azərbaycan Ordusu", "Vətən səsi", "Aydınlıq", "İki sahil", "Ziya", "Sərbəst düşüncə", "Yeni Azərbaycan", "Yeni fikir", "Yurddaş", "Naxçıvan", "Azad Azərbaycan", "Şərqin səsi", "Təhsil", "Elm və təhsil", "Borçalı", "Körpü", "Kredo", "Dalğalar qoynunda", “Azərbaycan Cümhuriyyəti”, “Kredo”, “Təzadlar”,

“Pres Media”, “Ədalət”, “Bütöv Azərbaycan”, “Zəfər Qalası”, “Ədalət və Həqiqət”, “Meridian”, “Səhər”, “Gənc müəllim”, “Sabah”, “Dünyaya səsimiz”, “Təhsil və zaman”, “Hakimiyyət və gələcək”, “Mənəvi birlik”, “Baku” qəzetlərində, həmçinin, “Azərbaycan dünyası”, “Azərbaycan nəşrləri” jurnallarında və s.; Gürcüstan Respublikasının "Şərqin Şəfəqi", "Sovet Gürcüstanı", "Gürcüstan", "Qələbə bayrağı", "Trialeti", "Советский педагог", "Молодежь Грузии", "Вечерний Тбилиси", “Dan Ulduzu”, “Kommunisti”, “Axalqazrda kommunisti”, “Qamardjvebis droşa”, “İvris qantiadi”, "Тбилиси", "Saxalxo qanatleba", "Soplis sxovreba", "Tbilisi", "Sovetakan vrastan"; Zaqafqaziya hərbi dairəsinin "Ленинское знамя", "Солдатская правда", "За нашу Советскую Родину" və digər qəzet və jurnalların səhifələrində çap olunmuşdur.

M.N.Çobanovun elmi əsərləri N.Tusi adına ADPU-nun (keçmiş V.İ.Lenin adına ADPİ-nin) "Elmi əsərlər"ində, M.Ə.Rəsulzadə adına BDU-nun (keçmiş S.M.Kirov adına ADU-nun) "Elmi əsərlər"ində, Azərbaycan Respublikası EA "Xəbərlər"ində, A.S.Puşkin adına TDPİ-nin "Elmi əsərlər"ində, "Azərbaycan dili və ədəbiyyat tədrisi", "Əmək və politexnik təlim", “Azərbaycan dünyası”, "Skola da sxovreba" (gürcü dilində - "Məktəb və həyat"), "Kartuli ena da literatura skolası" (gürcü dilində, "Məktəbdə gürcü dili və ədəbiyyatın tədrisi") jurnallarında; "Azərbaycan dilçiliyi məsələləri" /B., 1981/, "Azərbaycan dili" /Respublika Elmi-Metodik konfransının materialları, B., 1984/, "Актуальные вопросы теории и методики преподавания языков и литератур народов Ближнего и Среднего Востока" /B., 1985/, "Azərbaycan onomastikası problemlərı" /B., 1986, 1988, 1990, 1992, 1994, 1996, 1998. 1990, 1992, 1994/, "Azərbaycan nitq mədəniyyəti problemləri" /B., 1988/, "Azərbaycan terminologiya problemləri" /B.,1988/, "N.Nərimanovun anadan olmasının 120 illiyinə həsr olunmuş Elmi-praktik konfransın tezisləri" /B.,1990/; "Dilçilik" /N:l, N:2, №3 Bakı, 1996, 1997, 1998/, "IX Reqionalnaya konferensyaiə po

dialektoloqii tıoskix yazıkov" /Ufa, 1982/, "Вопросы деривации нарицательных и собственных имен в русском языке" /Barnaul, 1983/, "I Всесоюзная Конференция по тюрской ономастике" /Frunze, 1986/, "Ономастика Узбекистана" /Ташкент, 1989/; "Профессорско - преподавательская межинститутская Научная сессия /Tbilisi 1972, 1973, 1974, 1975, 1976, 1977, 1978, 1979, 1980, 1981, 1982, 1983, 1984, 1985, 1986, 1987, 1988, 1989, 1990, 1991. 1992, 1993/ "Труды педагогических институтов Грузинской ССР-Серия истории и филологии" /Tbilisi, 1974, 1975, 1976, 1977, 1978, 1979, 1980, 1981, 1982, 1984/, "Проблемы лексики, фонологических и грамматических структур разносистемных языков" /Tbilisi, 1982/, "Третья Всесоюзная Конференция по Ономастике Кавказа" /Telavi, 1983/, "Вторая Республиканская Научная конференция по Ономастике" /Tbilisi, 1989/, Bakı Ali Hərbi Dənizçilik Məktəbinin "Elmi əsərləri"ndə (1997, 1998, 1999, 2000, 2001, 2002, 2003, 2004, 2005, 2006, 2007, 2008, 2009, 2010), H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin "Elmi Əsərlərimdə (1997, 1999, 2005, 2007, 2008, 2009), Azərbaycan Dövlət Dəniz Akademiyasının "Elmi Əsərləri"ndə (2005), Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin "Elmi əsərlər"ində (2005, 2006, 2009, 2010) "Dilçilik" Məcmuəsində (1995, 1996, 1997), "Azərbaycan dilçiliyi problemləri" Məcmuəsində (1996), "Hərbi bilik" jurnalında (2000, 2005), Azərbaycan Dillər Universitetinin "Elmi Əsərləri"ndə (2003) və digər Elmi məcmuələrdə çap olunmuşdur.

Professor M.Çobanovun elmi tədqiqatlardan, çap olunmuş onlarla kitab və yüzlərlə elmi məqalələrindən aydın olur ki, o, filologiyamızın müxtəlif sahələrində öz qələmini sınaqdan çıxarıb, həm də tədqiqatlarının hamısı uğurla başa çatıb.

Professor Mədəd Çobanov, sadəcə olaraq, araşdırmalara başlayarkən bəzi tədqiqatçılar kimi, hər hansı mövzuya aid çap olunmuş "material bolluğu" axtarmamışdır. Çünki tədqiq olunmuş mövzunu yenidən araşdırmaq, onu başqa aspektə yönəltmək,

başqa istiqamətə salmaq elmə heç bir yenilik gətirmir. Belə "asan" mövzu axtaranlar yalnız "öz yerində" sayır, elmdə uğurlar qazana bilmirlər. O, isə tamamilə başqa yol tutmuşdur.

Burada bir el kəlamını xatırlamaq yerinə düşərdi. El kəlamında deyilir: "Xam kola girən tez odun yığar". O, mərhum atasından eşitdiyi bu kəlamın mənasını hələ uşaqlıqdan dərk etmişdir. Odur ki, o da elmi araşdırmalara başladığı ilk günlərdən Azərbaycan dilçiliyində, sonralar isə filologiyamızın tədqiq olunmamış, araşdırılmamış sahələrini tədqiqat obyekti kimi seçmişdir. Əlbəttə, o, da yuxarıdakı kəlamda deyildiyi kimi, elmin "xam", "araşdırılmamış" sahələrini tədqiq etməyə üstünlük vermişdir. Bütün tədqiqatlarında onun devizi belə olmuşdur və indi də belə qalır... Şübhəsiz ki, bu da onun elmdə yeni-yeni uğurlar qazanmasına səbəb olmuşdur...

Onu da qeyd etmək lazımdır ki, M.Çobanovun namizədlik dissertasiyası da Azərbaycan dilçiliyində Azərbaycan dilinin dialekt və şivələrinin leksik xüsusiyyətlərinin araşdırılmasına həsr edilmiş ilk monoqrafik tədqiqat olmuşdur. Namizədlik dissertasiyası Gürcüstan Respublikasının "Bolnisi rayonu şivələrinin leksik xüsusiyyətləri"nin araşdırılmasına həsr olunmuşdur. Sonralar, həmin mövzu ilə əlaqədar "Borçalı şivələrinin leksikası" adlı iki kitab (1 hissə, 1997; II hissə, 1998) və ondan çox elmi məqalə çap etdirmişdir. Elə doktorluq dissertasiyası da Azərbaycan dilçiliyində ilk dəfə olaraq, Azərbaycan şəxs adlarının təşəkkülü tarixinin sistemli tədqiqinə həsr olunmuşdur. Bununla əlaqədar olaraq, filologiya fakültələri üçün nəzərdə tutulmuş "Dilçilikdən xüsusi kurs" - "Azərbaycan antroponimiyasının əsasları" adlı proqram /1980/ və həmin proqram əsasında "Azərbaycan antroponimiyasının əsasları" /1983, 1998/ adlı dərs vəsaiti (həmin vəsait 1995-ci ildə rus dilində də) çap olunub. Prof. M.Çobanov adı qeyd olunan tədris proqramı və dərs vəsaiti əsasında Ali məktəblərin filologiya fakültələrində “Dilçilik” üzrə “Xüsusi kurs”dan mühazirələr oxumuş və təcrübi məşğələlər keçmişdir. Bu mühazirələrin çox effektli nəticələri olmuşdur. Həmçinin, müəllif 5

monoqrafiya, 40-dan çox elmi məqalə çap etdirmişdir. Eləcə də, 1970-ci illərdən ali məktəblərin filologiya fakültələrinin tədris planına salınmış "Mətnin linqvistik təhlili" fənnindən ilk proqram /1980/ və həmin proqram əsasında eyni adlı ilk dərs vəsaiti /1987/ hazırlayıb çap etdirmişdir.

O, öz devizinə daim sadiq qalmışdır... Doğrudur, Azərbaycan leksikoqrafiyası /lüğətçiliyi/ hələ 50-ci illərdən böyük nailiyyətlər qazanmışdır. Lakin o, leksikoqrafiyamızda da bir boşluq olduğunu hiss edir. Odur ki, bu boşluğu doldurmaq üçün tədqiqat planlarını dəyişdirməli olur. Azərbaycan və gürcü xalqlarının tarixində ilk dəfə olaraq, 1977-ci ildə "Azərbaycanca-gürcücə qısa danışıq lüğəti" /dos. M.Çinçaladze ilə müştərək/ hazırlayıb çap etdirmişdir. Sonralar həmin lüğət təkmilləşdirilmiş və əlavələrlə 1991-ci ildə ikinci, 2008-ci ildə üçüncü dəfə nəşr olunmuşdur...

Bir sözlə, o, tədqiqatlarını daim filologiyamızda nəzərə çarpan bu və ya digər boşluqları doldurmaq baxımından planlaşdırmış və indi də bu istiqamətdə araşdırmalarını davam etdirir... Prof. M.Çobanovun son illərdəki "Türk ədəbi dillərinin birliyinə doğru" (Bakı, 2000), "Altay dilləri ailəsində Azərbaycan-türk dilinin mövqeyi" (Bakı, 2001) və "I Türkoloji Qurultay və türk dillərinin müasir problemləri" (2006) adlı tədqiqatları ümumi türkologiyada və eləcə də, ədəbi dilimizin tarixinin tədqiqində özünü göstərən boşluqları doldurmaq baxımından böyük elmi əhəmiyyət kəsb edir. Bu kitabların hər üçündən ali məktəblərin filologiya fakültələrində xüsusi kurs kimi istifadə etmək olar.

Prof.M.Çobanovun əsərləri qardaş Türkiyədə də maraqla qarşılanmış və mütəxəssislərin diqqətindən kənarda qalmamışdır. Onun 1981-ci ildə çap olunmuş "Azərbaycan şəxs adları" kitabı hələ ötən əsrin 80-ci illərində Türkiyədə yayılmış və ondan ali məktəblərin filologiya fakültələrində dərs vəsaiti kimi istifadə etmişlər və həmin kitabı dosent, doktor Singiz Alyılmaz türkcəyə çevirmiş və 1992-ci ildə Ərzurumda çap etdirmişdir. Həmçinin, onun "Borçalı toponimləri" (tədqiqatçı-jurnalist M,M.Çobanlı ilə müştərək) və "Azərbaycan antroponimiyasının əsasları" kitabları

da Türkiyədə nəşr edilmişdir.

Bəli, professor M.N.Çobanovun elmi tədqiqat yaradıcılığı yuxarıda qeyd etdiyimiz kimi çox sahəlidir. Gəlin həmin sahələrə ayrı-ayrılıqda qısa da olsa nəzər salaq:

**1. M.N.Çobanov-dialektoloq.** O, dialektologiya sahəsində ilk monoqrafik əsərini yazmışdır. Onun 1972-ci ildə tamamladığı və 1973-ci ildə uğurla müdafiə etdiyi "Azərbaycan dilinin Bolnisi rayonu şivələrinin leksik xüsusiyyətləri" /Gürcüstan SSR-də/ adlı namizədlik dissertasiyası Azərbaycan dilinin dialektologiyasında şivələrin leksikasına həsr olunmuş ilk monoqrafik tədqiqatdır. Bu sahədə müəllifin ona yaxın məqalə və tezisləri, həmçinin, ləhcə materiallarının toplanmasına dair "Dialektoloji təcrübə" /Tiflis, 1980/ adlı proqramı çap olunmuşdur. O, hələ II kurs tələbəsi olduğu vaxt Bolnisi rayonu şivələrindən topladığı dialektoloji materiallardan "Azərbaycan dilinin dialektoloji lüğəti" /Bakı, 1964/ kitabında istifadə edilmişdir.

Müəllif sonralar bu tədqiqat işini əvvəlcə "Borçalı şivələrinin leksikası"-"Bolnisı rayonu şivələrinin leksikası" adlı iki kitabda (I və II kitablar), sonra isə oxucuların və mütəxəsislərin təklifi ilə həmin iki cildliyi birləşdirib və bir cilddə çap etdirmişdir. (Bakı, "Təhsil". EİM, 1997, 212 səhiə).

Bu kitablardan başqa, müəllif Azərbaycan dilinin Bolnisi rayonu şivələrinin leksik xüsusiyyətlərinə dair "Bolnisi rayonu şivələrində sinonimlərin əmələ gəlmə yolları (1970), "Bolnisi rayonu şivələrində gürcü dilinin elementləri" (rus dilində.1972), "Bolnisi rayonu şivələrində işlənən bəzi arxaizmiər" (1972), "Azərbaycan dilinin Bolnisi rayonu şivələrində antonimlər" (1973),"Azərbaycan dilinin Bolnisi rayonu şivələrində bəzi leksik xüsusiyyətlər" (rus dilində, 1974), "Azərbaycan dilinin Bolnisi rayonu şivələrində idiomlar" (rus dilində. 1975) adlı çox mükəmməl elmi məqalələr çap etdirmişdir. Onu da qeyd edək ki, müəllifin yuxarıda qeyd olunan kitabları da, məqalələri də, demək olar ki, tamamilə türkoloji yönümlüdür.

Prof. M.Çobanovun elmi yaradıcılığında Azərbaycan və gürcü

dillərinin qarşılıqlı əlaqələrinə aid də maraqlı elmi məqalələri vardır. Onun "Azərbaycan sözləri gürcü ədəbi dilində" (rus dilində, 1975),"Azərbaycan sözləri gürcü dilinin şivələrində" (rus dilində, 1975),"Gürcü dilində Azərbaycan sözləri"(1978), "Azərbaycan sözləri gürcü dilinin şivələrində" (rus dilində, 1978) və s. məqalələri də linqivistik aspektdə yazılsa da, özünün məzmunu etibarilə türkoloji yönümdə qələmə alınmışdır. Hətta, buraya müəllifin "Gürcüstan alimləri Azərbaycan şivələrinin tədqiq edirlər" (1972) məqaləsini də əlavə etmək olar...

Onun namizədlik dissertasiyası və akademik xarakterli məqalələri haqqında müxtəlif əsərlərin xülasələrində səkkiz dəfə müsbət fikir söylənmişdir.

**2. M.N.Çobanov-onomatoloq /antroponimist/.** O həmişə geniş elmi tədqiqatla məşğul olarkən filologiyamızdakı boşluqları axtarmış və həmin boşluqları fundamental əsərlərlə doldurmaq üçün gərgin elmi axtarışlar aparır və hər dəfə də böyük nailiyyətlər qazanır. O, 80-ci illərin əvvəllərində dilçiliyimizdə davam edən yeni bir boşluğu müşahidə edir, vaxtı itirmədən həmin boşluğu doldurmaq üçün dilimizin antroponimiyasına dair külli miqdarda material toplayır, on minə yaxın şəxs adları kartotekası düzəldir, yeni-yeni axtarışlar aparır. Nəhayət, tədqiqatlar öz elmi bəhrəsini verir. 1975-ci ildə alim "Azərbaycan şəxs adları" (yazılma qaydaları ilə) adlı kitabını hazırlayır və rəy üçün Gürcüstan SSR EA Şərqşünaslıq İnstitutuna təqdim edir və 1976-cı ilin mart ayında İnstitutdan M.Çobanovun "Azərbaycan şəxs adları" kitabına müsbət rəy verilir.



**ИНСТИТУТ ВОСТОКОВЕДЕНИЯ АКАДЕМИИ НАУК ГРУЗИНСКОЙ ССР №: 85, 2.III.1976 г.**
**ЗАКЛЮЧ Е Н И Е**

о работе М.Н.Чобанова-"Правописание азербайджанских имен собственных", 1975 г.

Работа М.И.Чобанова посвящена одной из актуальных проблем идентификации и унификации антропонимов азербайджанского языка. Вопрос этот рассматривается автором в сопоставлении с фактами русского языка. В приложенном к исследовательской части труда словаре представлено азербайджанское написание собственных имен и соответствующие русские формы. Опубликование работы М.И.Чобанова, несомненно, вызовет интерес специалистов. Она в определенной степени восполнит проблем, существующий в этой области.

Однако, публикация пособии и словарей нормативного характера должна осуществляться соответствующими организациями республики. В данном случае, по нашему мнению, издание труда М.И.Чобанова входит в компетенцию Института Языкознания АН Азерб. ССР и соответствующей терминологической комиссии при Совете Министров Азерб. ССР.

*Зам. директора Института,*
*профессор /Док: Ш.Гиунашвили/*
*Зав. отделении тюркологии Института,*
*академик /С. С.Длсикия/*

Alim "Azərbaycan antroponimikasının əsasları" adlı "Dilçilikdən Xüsusi Kurs" yaradır və 1974-/75-ci tədris ilindən etibarən A.S.Puskin adına TDPİ-nin Azərbaycan dili və ədəbiyyatı ixtisası qrupunda həmin kurs üzrə mühazirələr aparır, bu mühazirələr öz effektliyi və müasirliyi baxımından maraqla qarşılanır. Bununla əlaqədar olaraq, o, "Azərbaycan antroponimiyasının əsasları" /Tiflis, 1980/ adlı proqram hazırlayıb çap etdirir. Həmçinin, M.N.Çobanov antroponimiyamıza dair "Azərbaycan şəxs adları" /Bakı, 1981/, "Azərbaycan

antroponimiyasının əsasları" adlı ali məktəblərin filologiya fakültələri üçün vəsait /Tiflis, 1983/, "Familiya. Təxəllüs" /Orta məktəb müəllimləri və filologiya fakültələrinin tələbələri üçün vəsait, Tiflis, 1987/, "Azərbaycan şəxs adlarının semantikası və orfoqrafiyası" /Orta məktəb müəllimləri və filologiya fakültələrinin tələbələri üçün vəsait, Tiflis, 1990/, "Azərbaycan kişi adları" (Türkiyə, Ərzurum, 1992), "Основы азербайджанской антропонимии" (учебное пособие для вузов, Баку, 1995), "Azərbaycan antroponimiyasının əsasları" (ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün vəsait, Bakı, 1998) kitablarını çap etdirmiş, 1992-ci ildə isə "Azərbaycan antroponimiyasının əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, avtoreferatlarını Azərbaycan və rus dillərində nəşr etdirmişdir. Həmin əsərlər elə ilk günlərdən ziyalılarımızın və oxucularımızın nəzər-diqqətini özünə cəlb etmişdir. Heç təsadüfi deyil ki, həmin əsərlər haqqında 40-a yaxın rəy yazılmışdır. Hətta, "Azərbaycan antroponimiyasının əsasları" kitabı Gürcüstan Respublikası Təhsil Nazirliyinin mükafatına təqdim olunmuşdur.

Prof.M.N.Çobanov bir onomatoloq kimi, öz qələmini toponimika sahəsində də sınaqdan çıxarmışdır. O, gürcü mənbələri əsasında tarixən Gürcüstan ərazisində yayılmış türk mənşəli toponimlər haqqında məqalə və tezislər nəşr etdirmiş, elmi konfranslarda məruzələrlə çıxış etmiş, həmçinin, iki çap vərəqi həcmində "Borçalı toponimləri" /M.Çobanlı ilə birlikdə/ adlı xüsusi qəzet sayı (1993) və eyniadlı kitab da (1995, 1996, 1997) çap etdirmişdir. M.N.Çobanov Azərbaycan onomastikasının tədqiqinə həsr olunmuş məruzələri ilə müxtəlif səviyyəli elmi məclislərdə-konfranslarda, o cümlədən Tiflisdə /1976, 1978, 1979, 1980, 1981, 1982, 1983, 1984, 1985, 1986, 1987, 1988, 1989, 1989/ ikinci dəfə/ 1990, 1991, 1992/; Bakıda /1984, 1985, 1986, 1988, 1990, 1991 /ikinci dəfə/1992, 1994, 1996, 1998/; Ufada /1982/, Telavidə /1983/, Barnaulda /1984/, Frunzedə /1986/, Daşkənddə /1989/ və digər şəhərlərdə keçirilmiş Ümumittifaq, Respublika və İnstitutlararası Elmi konfransların iştirakçısı olmuş

və maraqlı məruzələrlə çıxış etmişdir. Onun bu çıxışları barədə müxtəlif mətbuat orqanlarında, jurnallarda və ayrı-ayrı müəlliflərin əsərlərində-xülasələrində müsbət fikirlər söylənmişdir.

Onu da qeyd etmək yerinə düşər ki, professor M.Çobanov və tədqiqatçı-jurnalist M.Çobanlı qədim tarixə malik olan Borçalının toponimlərinin araşdırılmasını indi də fəal surətdə davam etdirməkdədir. Artıq, müəlliflər «Borçalı toponimləri»nin (təxminən 20 çap vərəqi həcmində) mükəmməl nəşrini hazırlamışlar. Azərbaycan, eləcə də, Ümumtürkoloji əhəmiyyətini nəzərə alaraq «Kredo» qəzeti «Borçalı toponimləri» kitabını 2011-ci ilin 17 sentyabrından başlayaraq, fasiləsiz olaraq hər sayında tam bir səhifə çap edib, tələbkar oxuculara çatdırır...

Burada yeri gəlmişkən, həm öz adımdan, həm müəlliflərin, həm də oxucuların adından «Kredo» qəzetinin Baş redaktoru Əli Rza Xələfliyə təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm. Çünki məhz onun əməksevərliyi və jurnalistlik qabiliyyəti və məharəti nəticəsində «Kredo» qəzeti öz adının mahiyyətinə və məzmununa (əqidəsini, amalını, məsləkini, müasir dövrün tələbinə uyğun olan dünyagörüşünü, elmi amalını və məqsədini) ilk sayından sadiq qalaraq, konkret və yığcam halda ifadə etməklə öz oxucularına çatdıra bilir...

Ümidvarıq ki, «Kredo» bundan sonra da öz adının mahiyyəti və məzmunu keşiyində ayıq-sayıq olacaqdır...

Yəqin ki, «Kredo» qəzetində «Borçalı toponimləri»nin nəşri başa çatdıqdan sonra, həmin əsər yüksək poliqrafik mədəniyyət səviyyəsində elmi ictimaiyyətə çatdırılacaqdır... Ümidvaram ki, müəlliflərin bu kitabı da elm sahəsində çalışanların və kitabsevərlərin marağına səbəb olacaqdır.

Sevindirici haldır ki, onun onomastikaya dair əsərlərindən Türkiyədə, Özbəkistanda, Türkmənistanda, Qırğızıstanda, Qazaxıstanda və başqa yerlərdə geniş şəkildə istifadə olunur, hətta, həmin əsərlər əsasında "Xüsusı kurs"lar yaradılır.

**3. Prof. M. Çobanovun ümumtürkoloji axtarışları.**

"Dünyanın Avropa və Asiya qitələrində lap qədim zamanlardan yayılmış və qədim tarixə malik olan türk xalqlarının keçmiş şərəfli və keşməkeşli tarixi yalnız kitabələrdə, kitablarda, arxiv sənədlərində, folklor materiallarında, bədii ədəbiyyat və incəsənət əsərlərində yox, eyni zamanda, o həm də mənşəyi və tipologiyası cəhətdən bir-birinə yaxın və qohum olan dillərin "tarixi yaddaşı"nda da həkk olunmuş, tədricən inkişaf edə-edə bu günlərimizə qədər gəlib çatmışdır. Altay epoxasından üzü bəri qədim türk dillərinin birliyinə doğru istiqamət götürmək, hər şeydən əvvəl, türklərin öz qədim soykökünə, tarixinə, mədəniyyətinə, ədəbiyyatına, incəsənətinə, tarixin sınaqlarından çıxmış adət-ənənələrinə, türk inamına və xarakterinə, etik və estetik görüşlərinə qayıtmaq müasir dövrün ən başlıca tələbləri kimi qarşıda duran problemlərdəndir. Məhz buna görə də, türk dünyasında türklük dəyərlərinin də geniş aspektdə araşdırılması bir zərurət kimi meydana çıxır. Çünki dünyanın istər mənşəcə qohum olan və istərsə də dini baxımdan eyni inama və inanclara, mənəviyyətə xidmət edən ayrı-ayrı xalqları siyasi, iqtisadi və mədəni cəhətdən bir-birinə yaxınlaşdığı, bir-birinə inteqrasiya olduğu kimi, həm soykökü, mənşəyi-qohumluğu, dini-imanı, adət-ənənələri də bir-birinin, demək olar ki, eyni olan türk xalqlarının da bütün sahələrdə bir-birinə yaxınlaşması və qovuşması da müasir dövrün ən aktual və ən vacib məsələlərindən biri olmalıdır. Məhz bu baxımdan, türk xalqlarının ədəbi dillərinin birliyinə və ortaq dilliliyə doğru yönəltmək və onların müasir problemlərini vahid bir müstəvidə həll etmək türkoloqlarımızın qarşısında ən mühüm problem olmalıdır."

"Türk ədəbi dillərinin birliyinə doğru" (Bakı, 2000) kitabımdan götürülmüş bu sətirlərin müəllifi prof. M. Çobanovun elmi araşdırmaları arasında ümumtürkoloji problemlərin tədqiq olunması və onun gələcək perspektivlərinin müəyyən edilməsi də başlıca yer tutur. O, türkologiyanın ümumi problemlərinin və gələcək prespektivlərinin araşdırılması ilə, demək olar ki, ardıcıl məşğul

olur. Onun bu sahədəki 64 müxtəlif tədqiqat əsərləri vardır. O cümlədən, türkologiyanın müxtəlif problemlərinə həsr olunmuş 9 kitab və kitabçanın, müxtəlif elmi müəcmələrdə, elmi konfransların materiallarında 28 məqalə və məruzə materialları, müxtəlif kitablar haqqında 5 rəy; həmçinin, müxtəlif qəzetlərin səhifələrində 21 məqalə və 3 rəy hazırlayıb çap etdirmişdir.

Prof. M.Çobanovun ümumtürkoloji xarakterli əsərlərinin ümumi mündərəcəsi və məzmunu vaxtı ilə "Türkləri öyrənmək"-də məqsəd bir sıra hallarda dünya tarixindən (ümumən dünyadan) sıxışdırmaq, siyasi-ideoloji, mədəni-mənəvi əsarət altında saxlamaq, idarə etmək olmuşdur..." (RCəfərov) kimi qeyri-obyektiv, süni, saxta fikir və mülahizələrinə qarşı bir etiraz, bir üsyan kimi səslənir. Onun əsərlərinin ümumi məzmunu və ideyası, hər şeydən əvvəl, türk ədəbi dillərinin birliyinə doğru və onların müasir problemləri, o cümlədən, türk dilləri və xalqları üçün latın qrafikalı vahid əlifbaya keçilməsi, Ümumtürk tarixinin, ümumtürk dilinin, ədəbiyyatının, mədəniyyətinin, coğrafiyasının, vahid bir prqoramla öyrənilməsi və bu problemlərin həllinə xidmət edən vahid mətbuat, radio, televiziya, mədəniyyət və bədii, humanitar elmlər üzrə elmi əlaqələndirmə, ümumi ensiklopediya və lüğətçilik mərkəzlərinin və həmçinin, ali məktəblərdə tarix-filologiya fakültələrinin yaradılması və gələcək inkişaf yollarının müəyyən edilməsi əsas göstərilmişdir.

Bütün bunları, nəzərə aldıqda prof. M.Çobanovun gərgin əməyi nəticəsində ərsəyə gəlib tələbkar oxucularımıza təqdim etdiyi "Borçalı toponimləri" (1993, 1995), dünya mədəniyyəti xəzinəsinin ən nadir incisi sayılan "Kitabi-Dədə Qorqud" dastanları əsasında yazılmış "Dədə Qorqud dünyasına səyahətdən parçalar" (həmmüəllif, 2000), "Türk ədəbi dillərinin birliyinə doğru" (2000),"Altay dilləri ailəsində Azərbaycan-türk dilinin mövqeyi" (2001), "Azərbaycanşünaslığın əsasları" (2004) və "I Türkoloji Qurultay və türk dillərinin müasir problemləri"(2006) kitabları təqdirə layiqdir.

Həmçinin, onun türkologiyanın ümumi problemləri ilə

səsləşən "Azərbaycan-türk dilinin dövlət statusu və əlifbamızın tarixindən qeydlər", "Aşağı Kartlidə türk mənşəli oykonimlər", "Adlar tariximizdir". "Qədim türk yazılı abidələrində onomastik vahidlər", "Cənub-Şərqi Gürcüstanda türkköklü oykonimlər", "Gürcüstanda türkdilli etnooykonimlər", "Aşağı Kartlidə türkdilli etnokomonimlər", "Gürcüstanda türkköklü qədim oykonimlər", "X-XVII əsrlər gürcü tarixi mənbələrində türk-azərbaycan köklü toponimlər", "Eçiməzdin türk sözüdür", "Türk antroponimlərinin ümumi layları" və s. onlarla məqalələri müasir türkologiyamızda öz aktuallığı ilə fərqlənir. Onu da qeyd edək ki, prof. M. Çobanov 2000-ci ildə çap olunmuş "Türk ədəbi dillərinin birliyinə doğru" (64 səh) kitabı üzərində yenidən işləmiş, təkmilləşdirmiş və çoxlu əlavələr etməklə 2008-ci ildə həmin kitabın ikinci nəşrini çap etdirmişdir. "Türk ədəbi dillərinin birliyinə doğru" (Bakı, 2008, 280 s.) kitabının ikinci nəşri həm mövzu dairəsinin genişliyinə və əhatə dairəsinə, araşdırmaların mükəmməlliyinə, elmiliyinə və məntiqliyinə və tarixiliyinə görə yeni elmi məziyyətlər kəsb edir. Bu kitabda Türk ədəbi dilləri birliyinin əsas istiqamətləri: Türk ədəbi dillərinin latın qrafikalı yeni vahid əlifbaya keçməsi, Ümumtürk tarixinin vahid konsepsiya əsasında araşdırılması və öyrənilməsi, Türk dillərinin və ədəbiyyatlarının qədim laylarını nəzərə alınmaqla vahid konsepsiya üzrə araşdırılması, Türk xalqlarının hamısı üçün vahid Mətbuat Orqanlarının, Teleradio kanallarının yaradılması, vahid Mədəniyyət və Elmi Əlaqələndirmə Mərkəzlərinin yaradılması, Türk xalqlarının folklorunun və bədii irsinin toplanması və nəşri Mərkəzinin yaradılması, Türk ölkələrinin vahid Tədris planı və tədris proqramları ilə fəaliyyət göstərən Humanitar elmlər Universitetlərinin təsis edilməsi , Ümumi Ensiklopediya və Lüğətçilik Mərkəzinin yaradılması və s. öz geniş əksini tapmışdır.

Yeri gəlmişkən, onu da qeyd edim ki, prof. M. Çobanov "Türk ədəbi dillərinin birliyinə doğru" (2008) kitabını nəşr etməklə kifayətlənməyib, Türk dilləri birliyinin araşdırılmamış qalan digər istiqamətlərini də müxtəlif istiqamətdən araşdırmaya

cəlb etmişdir. Sevindirici haldır ki, həmkarım M. Çobanov Türkologiyada Türk dillərinin qədim tarixinə tamamilə yeni prizmadan baxmış və yeni obyektiv elmi nəticələrə gəlmişdir...

Biz təxminən iki ay əvvəl prof. M. Çobanovun "Türk ədəbi dillərinin birliyinə doğru" kitabının II hissəsini redaktə etdik. Əvvəlcədən onu qeyd edim ki, ilk dəfə olaraq, bu kitabda Türk dillərinin ən qədim dövrlərinə nəzər salınmış Şumer dili ilə Altay Türk dillərinin tarixi, coğrafi və linqvistik xüsusiyyətləri paralelləşdirilmiş və vahid bir nəticəyə gəlinmişdir.

Bu kitabda müasir dövrün ictimai – siyasi və beynəlxalq münasibətlərdəki ikili standartların mövcudluğu və daha da inkişaf etdirilməsi prizmasından baxdıqda ona cavab olaraq Türklüyün yenidən oyanışının dirçəldilməsinin vacibliyinin gündəmə gətirilməsi məsələləri geniş şəkildə şərh olunmuşdur. Əlbəttə, bu da, ilk növbədə, türk dillərinin, eləcə də, Azərbaycan – türk dilinin milliləşməsinin başa çatmasını və yeni inkişaf mərhələsinə qədəm qoymasını tələb edir... Kitabda türk xalqlarının Həyatnaməsi və ya Tərcümeyi-halının verilməsi də yerinə düşmüşdür. Çünki bu kitabı əlinə alan hər bir oxucu həm türk xalqlarının tarixdə mövcud olmuş Dövlət qurumları və onların tarixi, həm də Azərbaycan ərazisində tarixən mövcud olmuş Azərbaycan Dövlət qurumları və onların tarixi ünvanı ilə tanış ola biləcəklər. Bu baxımdan, geniş elmi ictimaiyyətə təqdim olunan bu kitabın elmi məziyyətləri çox əhəmiyyətlidir.

Kitabın "Tarixə öz imzasını atmış qədim xalqlar: Şumerlər. Türklər" mövzusunda müəllif həmin xalqların təxminən 10-12 min illik tarixinə nəzər salmış, Şumerlərin və qədim Türklərin tarixi ilə əlaqədar olan araşdırmalar üzərində yeni prizmadan çox ciddi müşahidələr aparmış və bu sahədə uzun müddətli araşdırmalar – tədqiqatlar aparmış məşhur Şumeroloq S.N. Kramerin "Tarix Şumerdən başlanır" mülahizəsinin obyektivliyini nəzərə alaraq, Şumerlərin və Türklərin tarixi və linqvistik paralelləri üzərində dayanmış bu sahəyə dair Lis və Felkonun, V. Vrenqyosun, Friks Hommelin, A.İ. Tyumenyevin,

Ahmet Cavatın, N. Cəfərovun, İ.M. Dyakonovun, Q. Vinklerin, R. Cəbiyevin, E. Əlibəyzadənin, O.N. Tunanın, A. Oppenheymin, Z. Kosidovskinin, O. Süleymanovun, E. Reklünin, D.Q. Rederin, T. Vəli Nüvədilinin, F. Azadın, Q. Derferin, H. Muradın, Dionisin və başqalarının araşdırmalarını saf-cürük etmiş və Şumerlərlə qədim Türklərin eyniköklü xalq və eyniköklü dillərə malik olmaları qənaətinə gəlməsini təqdirə layiq hesab etmək olar...

Monoqrafiyanın "Şumer – Altay dilləri ailəsi" bölməsində isə, müəllif Müasir Dünyada mövcud olan dillərin geneoloji təsnifinə tarixilik baxımdan yenidən nəzər salmışdır. Məlumdur ki, Ümumi dilçilikdə dillərin geneoloji təsnifində, hələlik, vahid prinsip olmayıb. O cümlədən, Dünya sivilizasiyasında mühüm rol oynamış Türk xalqları və onların dillərinin geneoloji təsnifdəki yeri birmənalı dəqiqləşdirilməmişdir. Dillərin geneoloji təsnifində Türk dilləri gah "Altay Türk dilləri ailəsi", gah da sadəcə olaraq "Türk dilləri ailəsi" adlandırılmışdır. Odur ki, prof. M. Çobanov dünya dillərinin geneoloji təsnifindəki bu ikili mülahizəni vahidləşdirmək məqsədilə Dillərin geneoloji təsnifi ilə məşğul olan alimlərdən M. Kaşğarlının, İ. Berezinin, N. İ. İlminskinin, V.V. Radlovun, N.A. Aristovun, N.F. Katanovun, F.F.Korşun, A.S. Samoyloviçin, V.A. Boqorodskinin, N.A.Baskakovun, S.Lloyd, V.Vrenqyosun, N. Cəfərovun, E. Əlibəyzadənin və başqalarının mülahizələri üzərində geniş miqyaslı müşahidələr aparıb, Dillərin geneoloji təsnifində Şumer və Türk dillərinin tarixilik, xalqların və dillərin eyni köklülüyünü və linqvistik xüsusiyyətlərini nəzərə alaraq, həmin dillərin "Şumer və Altay Türk dilləri ailəsi"ndə birləşdirməsi ideyası da alqışa layiqdir.

Həmçinin, prof. M. Çobanovun bu kitabda "Şumer – Altay Türk dilləri ailəsi"nin tarixi ilə əlaqədar yeni təsnif verməsi və həmin təsnifə dair verdiyi Sxemlər (№ 1, № 2, № 3, № 4) də təqdirə layiqdir. Bunu da, müasir Türkologiyanın yeni nailiyyəti saymaq olar...

Prof. M.Çobanovu həmkarlarından fərqləndirən əsas cəhətlə-

rindən biri də onun mütaliəni sevməsi və mütaliə etdiyi, oxuduğu əsərlərə biganəlik göstərməməsidir. Onun elmi yaradıcılığında dilçiliyin, eləcə də, türkologiyanın müxtəlif sahələrinə dair yazılmış əsərlərə öz münasibətini bildirməsi və onlar haqqında yüksək səviyyədə rəy yazıb, müxtəlif mətbuat orqanlarında çap etdirməsidir. Burada onun ümumi türkoloji xarakterli əsərlərə yazdığı bir neçə rəyi qeyd etməyi lazım bildim. O, cümlədən "Türk dillərində köməkçi nitq hissələri" (F.Zeynalovun "Müasir türk dillərində köməkçi nitq hissələri" (1971) kitabı haqqında, "Gücəkənd yazılı abidələri" (A.Qurbanovun eyni adlı məqaləsi haqqında (1997), "Türkologiyaya yeni hədiyyə" (Ə.P.Vəkilovun "Türk dialektologiyası" (1973) kitabı haqqında, "Azərbaycan türklərinin milliləşdirilməsi" (N.Cəfərovun eyni adlı kitabı haqqında (1996), "Genezisdən tipologiyaya", "Türkologiyanın yeni nailiyyəti" (N.Cəfərovun "Qədim türk ədəbiyyatı" (2004) kitabı haqqında) adlı məqalələrində müasir Türkologiyanın müxtəlif problemlərinə həsr olunmuş kitablar və onların müasirliyi və aktuallığı, elmiliyi və Türkologiyadakı elmi nəzəri əhəmiyyəti barədə, əsil mənada, mükəmməl mütəxəssis rəyi söylənilmişdir...

Buraya qədər qeyd olunanlardan göründüyü kimi, prof M.Çobanovun elmi-filoloji yaradıcılığı yalnız Azərbaycan dilçiliyi çərçivəsində qapanıb qalmayıb, onun hüdudlarını aşmış və müasir türkoloji problemlər barədə ilk dəfə olaraq, ardıcıl və sistemli şəkildə çox mükəmməl elmi fikirlər və mülahizələr söyləmişdir.

### 4. M.N.Çobanov və müasir ədəbi dil məsələləri.

Professor M.Çobanov Azərbaycan dilçiliyinin müxtəlif sahələrində, o cümlədən də, ümumtürkoloji və Azərbaycan ədəbi dilinin tarixinin tədqiqi istiqamətində də bir sıra ciddi tədqiqatlar aparmışdır. Bu sahədə onun "Türk ədəbi dillərinin birliyinə doğru" (Bakı, 2000) və "Altay dilləri ailəsində Azərbaycan-türk ədəbi dilinin mövqeyi" (Bakı, 2001) adlı kitablarını xüsusilə qeyd etmək olar. Müəllif birinci kitabda türk dillərinin təsnifi tarixinin, onların geneoloji və tipoloji cəhətdən eyni mənşəli və eyni tipli

olması, həmin dillərin müasir səviyyəsi barədə məlumat vermiş və gələcəkdə vahid türk dilinə doğru inkişaf perspektivlərini on tezislə sübuta yetirmiş; ikinci kitabda isə Altay dilləri ailəsində Azərbaycan- türk dilinin tarixi mövqeyi, Azərbaycan-türk dilinin müasir vəziyyəti və onun zənginləşməsi, səlisləşməsi təkmilləşdirilməsi və inkişaf perspektivlərinin geniş elmi şərhini vermişdir. Bu kitablar əsasında ali məktəblərin filologiya fakültələrində "Azərbaycan ədəbi dili tarixi" fənnindən xüsusi kurs aparılması məqsədyönlü olardı...

Prof.M.N.Çobanov nəzəri dilçiliyin mühüm sahəsinin tədqiqi ilə yanaşı, tətbiqi dilçiliyin və onun tədrisi metodikası sahəsini də unutmamış, istər orta məktəb müəllimləri və şagirdləri, istərsə də ali məktəblərin filologiya fakültələrinin müəllimləri və tələbələrinin dərsliyə, dərs vəsaitinə və metodik göstərişlərə olan ehtiyacını nəzərə almış, bu sahədə də nəzərə çarpacaq dərəcədə elmi-metodik kitablar, proqramlar, məqalələr yazıb çap etdirmişdir. Bu sahədə onun gördüyü işlər təqdirə layiqdir. Gürcüstanda 1969-1993-cü illərdə Azərbaycan maarifinin, pedaqoji kadrların hazırlanması işinin inkişafında, kitab nəşri sahəsində M.N.Çobanovun böyük fəaliyyəti olmuşdur. O, Tiflisi yenidən azərbaycanlıların mədəni mərkəzinə çevirmək üçün səylə çalışır, hətta, öz əsərlərinin Tiflisdə çap olunması üçün dönmədən mübarizə aparırdı. Əksər hallarda isə öz məqsədinə nail olurdu. 1940-cı illərdən sonra Tiflisdə azərbaycan dilində kitab və proqramlar çap olunması da məhz M.N.Çobanovun adı ilə bağlıdır. O, Tiflisdə "İlk qaranquş" olan "İfadəli qiraət" /Tiflis, 1976/ adlı proqramı /ali məktəblərin filologiya fakültələri üçün/ 1976-cı ildə çap etdirməyə nail olur. Elə bu proqramın da "ayağı sayalı" olur...

Sonra isə, proqramlar, kitablar və məqalələr dalbadal çap olunmağa başlayır: "Mətnin dilinin təhlili" /Ali məktəblərin filologiya fakültələri üçün proqram, Tiflis, 1982/, "Azərbaycan dili" /Orta məktəb üçün proqram, Tiflis, 1991/, "Azərbaycan dilinin tədrisi məsələləri" /Orta məktəb müəllimləri üçün vəsait, Tiflis, 1981/,

"Mətnin linqvistik təhlili" /1 hissə, Ali məktəblərin filologiya fakültələri üçün vəsait. Tiflis, 1987/, "Azərbaycan dili" /X sinif üçün dərslik, Tiflis, 1992/, "Azərbaycan-türk dili" /XI sinif üçün dərslik, Tiflis, 1993/ və s. Bu kitablar haqqında müxtəlif mətbuat orqanlarında 15 rəy çap olunmuş və həmin rəylərdə xoş sözlər və mülahizələr söylənmişdir. Həmçinin, "Azərbaycan-türk dili" /Ali məktəblərin qeyri-filoloji fakültələri üçün proqram, Bakı, 1994/, "Dilçilik-dünya dilləri və dillər dünyası" (Ali məktəblərin filologiya fakültələri üçün proqram, Bakı, 1994), "İxtisasa giriş" /Ali məktəblərin filologiya fakültələri üçün proqram, Bakı, 1994/, "Azərbaycan dilçiliyi tarixi" (Magistraturanın filologiya fakültələri üçün proqram, Bakı, 1997) və s. proqramlar hazırlamışdır.

Yuxarıda qeyd olunanlardan başqa, prof. M.Çobanovun 2007-ci ildə "Pedaqoji və metodik məsələlər" (216 s.) adlı kitabı da çap olunmuşdur. Bu kitabda müəllifin müxtəlif vaxtlarda pedaqoji və metodik məsələlərə dair yazdığı və dərc etdirdiyi məqalələr və məruzələr toplanmışdır. O cümlədən: "Azərbaycanşünaslığın əsasları «fəninin tədrisi,» "Məktəb həyatı", "Uşaqlarda düzlük tərbiyəsi", "Əsgərlərin mənəvi-psixoloji hazırlığı daim diqqət mərkəzində olmalıdır", "Atalar sözlərinin tərbiyəvi əhəmiyyəti", "Məktəb islahatları haqqında qeydlər", "Müəllim – zabit yaradıcılığı və onun pedaqoji ustalığı", "Şagirdlərin nitq mədəniyyətini inkişaf etdirək", "Ana dili dərslərinin keyfiyyətini yüksəltməli", və s mövzular ətraflı şərh olunmuşdur.

Prof. M.N.Çobanov yuxarıda qeyd olunanlardan başqa, həmçinin, "Azərbaycan dili" (Nitq mədəniyyəti) fənnindən ali məktəblərin qeyri-filoloji fakültələri, o cümlədən də, ali hərbi məktəblər üçün yeni proqramın əsasında ali hərbi məktəblər üçün dərslik (əvvəlcə iki kitabda, 2003) hazırlayıb çap etdirmiş və sonra proqramı yenidən təkmilləşdirmiş və həmin proqram üzrə "Azərbaycan dili" (Nitq mədəniyyəti) dərsliyini yenidən təkmilləşdirmiş və 2006-cı ildə bir cilddə (412 s.) çap etdirmişdir. Hazırda H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində,

Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində, Azərbaycan Təyarəçilik Məktəbində, Azərbaycan Dövlət Dəniz Akademiyasında, Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında və digər ali məktəblərdə "Azərbaycan dili" (Nitq mədəniyyəti) fənni yuxarıda qeyd olunan proqram və dərslik əsasında tədris olunur.

Onu da qeyd etmək yerinə düşər ki, prof. M.Çobanov dilimizin müasir problemlərinə dair “Azərbaycan”, “Xalq qəzeti”, “Kredo”, “Azərbaycan Cümhuriyyəti”, “Elm və Təhsil”, “Şərqin səsi” və digər qəzetlərin səhifələrində onlarla məqalə dərc etdirmiş, indi də “Azərbaycan dilinin müasir problemləri” adlı kiatbı da çapa hazırdır (təxminən 18 çap vərəqi).

Həmçinin, prof.M.Çobanov ali məktəblər üçün "Azərbaycanşünaslığın əsasları" üzrə yeni fənn proqramı (2003) və həmin proqram əsasında dərs vəsaiti (2004) də hazırlamışdır. Gənc nəslin - gələcək ziyalılarımızın azərbaycançılıq ruhunda tərbiyə olunmasında xüsusi əhəmiyyətə malik olan bu fənnin ali məktəblərin tədris planına salınması və tədrisi məqsədyönlü olardı. Bu proqram və vəsait haqqında "Azərbaycan müəllim", "Elm və təhsil", "Təhsil", "Şərqin səsi" qəzetlərində rəylər çap olunmuşdur.

**5. M.N.Çobanov - pedaqoq-metodist.** Alimin geniş sahəli elmi araşdırmaları arasında pedaqojı və metodik problemlərin üzə çıxarılması və onların həlli məsələləri də daim ön planda durur. Çünki bir təhsil işçisi və müəllim kimi müəllimlik peşəsinin atributlarının araşdırılması da daim diqqət mərkəzində olmalıdır. Onun pedaqoji və metodik mülahizələrinə görə, hər bir müəllim özünün peşə ixtisası ilə əlaqədar olaraq, aşağıdakı tələbləri dərindən bilməlidir:

-Pedaqoji tələblər: təlim və tərbiyə nəzəriyyəsini, məktəbşünaslıq məsələlərini:

- Psixoloji tələblər; ümumi və fərdi psixoloji amillər;
- Etik tələblər; xalqımızın tarixən təşəkkül tapmış əxlaq normaları;

- Metodik tələblər, yəni tədris etdiyi fənnin tədrisi metodikasına verilən tələblər

-Hüquqi tələblər; "Azərbaycan Respublikasının Konstitusiyası"nı, "Azərbaycan Təhsil Qanunu"nu, təhsillə bağlı normativ sənədləri, aktları, tövsiyyələri, göstərişləri, təlimatları bilməsi.

Müəllimlik peşəsinə verilən tələbləri nəzərə alaraq, M.Çobanov həm də pedaqoji və metodik yönümlü onlarla məqalələr, proqramlar və dərs vəsaitləri hazırlayıb çap etdirmişdir. Onun pedaqoji yönümlü məqalələrindən "Atalar sözünün tərbiyəvi əhəmiyyəti"(1969), "Uşaqlarda düzlük tərbiyəsi" (1970), "Vətənpərvərlik ideyasının tərənnümçüsü" (1974), "Müasir məktəb" (1984), "Ən yüksək zirvə təvazökarlıqdır" (1988), "Təhsilin Azərbaycan dilinə keçilməsinin xüsusiyyətləri" (1997) və s. qeyd etmək olar. Göründüyü kimi, yuxarıdakı məqalələrdə pedaqogikanın ən mühüm məsələləri özünün pedaqoji təhlilini tapmışdır...

Professor M.Çobanovun pedaqoji və metodik yönümlü araşdırmalarında ayrı-ayrı proqram, dərs vəsaiti, metodik vəsait, metodik göstəriş və tövsiyyələr də özünə geniş yer tapmışdır. Onun tərtib etdiyi proqramlar arasında "Müəllim-zabitin pedaqoji ustalığının artırılması problemlərinin əsasları" (2003), "Zabit-vətəndaş əqidəsinin formalaşdırılması və onun atributları" (2005),"Zabit etikasının əsaslarını" (2006) və s. qeyd etmək olar. Həmçinin, prof. M.Çobanov həmin proqramlar əsasında dərs vəsaitləri də hazırlayıb çap etdirmişdir (2005, 2005, 2007). Onu da qeyd edək ki, bu proqramlar və dərs vəsaitləri ölkəmizin ali hərbi məktəbləri üçün hazırlanmış ilk proqram və dərs vəsaitləridir. O, həmçinin, "Azərbaycan pedaqoqu F.Köçərli Y.Qoqebaşvili və N.Lomouri haqqında"(gürcü dilində, 1972) geniş məqalə də çap etmişdir.

Yuxarıda qeyd olunanlardan başqa, prof. M.Çobanov bir sıra metodik vəsait, metodik tövsiyyə , metodik göstəriş və s. də hazırlayıb çap etdirmişdir. Onlardan "Pedaqoji suallar və onlara verilən metodik tələblər" (metodik vəsait, 2003), "Ali hərbi məktəblərdə metodik işin təşkili" (həmmüəllif, 2005), "Müəllim-zabitin müstə-

qil olaraq, təhsiliniartırma problemləri"ni (2007) və s. qeyd etmək olar...

Prof. M.Çobanov Ümumtəhsil məktəblərində tədris olunan "Azərbaycan dili" fənninin tədrisi metodikasına aid də bir çox metodik vəsaitlər, göstərişlər və s. hazırlayıb çap etdirmişdir. O, Azərbaycan dilinin tədrisi metodikasına yeni prizmalardan baxmış və bu sahədə çox uğurlu nəticələrə gəlmişdir. Onun "Şagirdlərin elmi təfəkkürünün inkişaf etdirilməsində morfoloji və sintaktik təhlilin rolu", I hissə (həmmüəllif Bakı, "Borçalı" NPM, 2005, 156 səhifə) və II hissə (həmmüəllif Bakı, "Borçalı" NPM, 2005, 122 səhifə), "Azərbaycan xüsusi adlarının ingilis dilinə transliterasiyası məsələləri" (həmmüəllif Bakı. Təhsil EİM, 1999, 76 səhifə) və s. kitabları müəllimlərimiz üçün ən yaxşı və ən müasir metodik vəsaitdir.

Həmçinin, ali hərbi məktəblər üçün hazırlanmış "Azərbaycan dili" (Nitq mədəniyyəti) proqramı (Bakı. 1997, 2003) və həmin proqram əsasında yazılmış "Azərbaycan dili" (Nitq mədəniyyəti) dərsliyi (Bakı, I və II hissələr 2003, ikinci nəşr birlikdə 2006) üzrə "Əyani vəsaitlər" albomu (Bakı, 2005) adlı metodik vəsait ali məktəb müəllimlərinin gündəlik istifadə etdikləri ən müasir təcrübi metodik vəsaitlərdir.

**6. M.N.Çobanov-bilinqvist.** Alimin bilinqvistika sahəsindəki tədqiqatları da böyük maraq doğurur. O, ilk dəfə olaraq, azərbaycan və gürcü dillərinin qarşılıqlı əlaqəsini tədqiqata cəlb etmiş və bu sahəyə aid elmi axtarışlarını Bakıda və Tiflisdə Azərbaycan və rus dillərində çap etdirmiş, Tiflisdə Elmi Konfranslarda maraqlı məruzələrlə çıxış etmişdir. Müəllifin müəyyənləşdirdiyinə görə, erkən orta əsrlərdən üzü bəri gürcü dilində mindən çox türk-azərbaycan mənşəli sözlər işlənir. Onun "Грузинские лексические елементы в Болнисском говоре азербайджанского языка" /37-Профессорско-преподавательская Научная сессия, ТГПИ им. А.С.Пушкина, Тбилиси, 1972/, "Azərbaycan məktəblərində gürcü dilinin tədrisi" /gürcü dilində, "Kartuli ena da literatura skolaşi", Tbilisi, 1972, N:l/, "Gürcüstan alimləri

Azərbaycan dilinin şivələrini tədqiq edirlər" "/ADU-nun "Elmi əsərlər"i -"Dil və ədəbiyyat" seriyası, Bakı, 1972, N:5/, "Азербайджанская лексика в грузинском литературном языке" /39-Профессорско-предподавательская Научная конференция ТГПИ им. А.С.Пушкина, Тбилиси, 1974/, "Азербайджанская лексика в говорах грузинского языка" /41 – Профессорско-предподавательская Научная конференция ТГПИ им, А.С.Пушкина, Тбилиси, 1975/, "Gürcü dilində azərbaycan sözləri" /ADU, "Elmi əsərlər" - "Dil və ədəbiyyat" seriyası, Bakı, 1976, N:3/, "Azərbaycandilli məktəblərdə gürcü dilinin tədrisinin aktual məsələləri" /gürcü dilində, "Kartuli ena da literatura skolaşı", Tbilisi, 1978, N:4/, "Азербайджанская лексика в говорях грузинского языка" /Труды педагогических институтов Грузинской ССР, т.6, Tbilisi, 1978/ mövzularında apardığı tədqiqatlar mütəxəssislərin marağına səbəb olmuş və hətta, bu məqalələr haqqında səkkiz müxtəlif xülasə xarakterli rəylər də çap olunmuşdur/ ("Təşviqatçı", N:24, 1980; Ə.Əliyev, Azərbaycan dilinin inkişafı və burjua ideologiyasının tənqidi, Bakı, 1983 və s).

Prof. M.Çobanovun elmi tədqiqatlarında Azərabaycan şəxs adlarının rus dilinə transliterasiyası məsələləri də daim diqqət mərkəzində olmuşdur. Çünki Azərbaycan şəxs adları rus dilinə iki, üç variantda transliterasiya olunurdu. Bu da tez-tez inzibati idarə orqanlarında böyük çaşqınlıq yaradırdı. Məsələn, dilimizdəki Qabil adı da, Habil adı da rus dilində Qabil kimi yazılırdı. Beləliklə də, Habil və Qabil adları rus dilində eyni variantlarda yazılmaqla ya Qabil, ya da Habil adı dolaşıq salınırdı. Beləcə də, Həmzə və Qəmzə adları da rus dilinə Qamza kimi transliterasiya olunurdu. Beləliklə də, kişi adı bildirən Həmzə adı ilə qadın adı bildirən Qəmzə adları dolaşıq düşürdü. Bütün bunları və digər çoxvariantlılığı nəzərə alaraq, prof. M.Çobanov 3000-dən çox kişi, qadın və müştərək adlar toplamış və "Azərbaycanca-rusca adlar lüğəti" hazırladı və həmin lüğət əsasında rus dilində Azərbaycan şəxs adlarının yazılma qaydalarını hazırlamışdır. Şübhəsiz ki, yuxarıda qeyd olunan lüğət Azərbaycan şəxs

adlarının rus dilində milli yazılışına uyğun halda yazılmasına əməli cəhətdən kömək etmiş olur.

Həmçinin, müəllif bu sahədə bir neçə məqalə də hazırlayıb çap etdirmişdir. O cümlədən, "Azərbaycan şəxs adlarının rus dilinə transliterasiyası haqqında" (I məqalə, 1983, II məqalə, 1983) adlı metodik göstərişlər çap etdirmişdir.

**7. M.N.Çobanov-leksikoqraf.** Alim öz qələmini leksikoqrafiya – lüğətçilik sahəsində də sınamış və bu sahədə də müəyyən müvəffəqiyyət qazanmışdır.

Prof. M.Çobanovun leksikoqrafiya sahələrindəki ilk təcrübəsi "Bolnisi rayonu şivələrinin leksikası" (Bakı, 1997, 212 səhifə) adlı monoqrafik tədqiqatlarına əlavə olaraq hazırladığı 43 səhifəlik leksik dialektizmlər lüğəti olmuşdur. Bu lüğət semantik və frazeoloji baxımdan dörd bölmədə verilmişdir: 1.Leksik və frazemlər lüğəti; 2.Omonimlər lüğəti; 3.Sinonimlər lüğəti; 4.Antonimlər lüğəti.

Bu lüğət şivə sözləri və ifadələri ilə ədəbi dil söz və ifadələri arasında bir növ keçid körpüsü roluna malik olmaqla yanaşı, həm də dilimizin lüğət tərkibinin qədim laylarını müəyyənləşdirmək, dilimizin qədim dövr tarixinin müəyyən səhifəsini işıqlandırmaq baxımından xeyli əhəmiyyətlidir.

Prof. M.Çobanovun leksikoqrafiya sahəsindəki ikinci təcrübəsi Azərbaycan şəxs adlarını toplayıb, 3 minə yaxın şəxs adından ibarət olan "Azərbaycan şəxs adları" (Bakı, 1981) kitabını hazırlayıb çap etdirmişdir. Bu kitabda şəxs adları kişi adları, qadın adları və müştərək adlar olmaqla üç qrupda verilmişdir. Bundan başqa, alim Azərbaycan dilçiliyində ilk dəfə tarixən dilimizdə işlənən təxəllüsləri toplamış və izahlı lüğət xarakterli "Təxəllüs lüğəti" hazırlamış və "Familiya.Təxəllüs" (Tbilisi, 1987) kitabında çap olunmuşdur. Həmçinin, alim "Azərbaycanca-rusca şəxs adları lüğəti"' də hazırlamışdır.

O, Güney Qafqaz xalqlarının tarixində ilk dəfə olaraq, "Azərbaycanca-gürcücə qısa danışıq lüğəti" hazırlayıb /M.Çinçaladze ilə müştərək/ Tiflisdə /1977, 1991, Bakı, 2008/ çap etdirmişdir.

Bundan başqa, o, Zaqafqaziya Hərbi Dairəsinin orqanı olan "Ленинское знамя" qəzetində də hərbçilər üçün nəzərdə tutulmuş "Rusca-gürcücə-Azərbaycanca -ermənicə qısa-mətni lüğətlər"in hazırlanmasında və nəşrində də yaxından iştirak etmişdir /1988-1990/. Həmçinin, "Gürcücə-Azərbaycanca-lüğət" /1985/ hazırlayıb, lakin həmin lüğəti çap etdirə bilməmişdır. Həmin lüğəti hazır halda keçmiş tələbəsi, pedaqoji elmlər namizədi Alı Musayevə verib ki, həmmüəllif kimi çap etdirsin… Sonralar prof. M.-Çobanova xəbər çatdırırlar ki, həmin lüğət başqa adlarla hissə-hissə çap olundu… Deməli, prof. M.Çobanova uzun müddətli əməyinin bəhrəsinə təəssüf etmək qaldı… Sabiq tələbəsinə isə, özünün vicdanı qarşısında hesabat verməsi qaldı… Prof. M.Çobanobun çap etdirdiyi lüğətlər də elə ilk günlərdən oxucuların marağına səbəb olmuşdur… hətta, həmin kitablar haqqında müxtəlif müəlliflər səkkiz rəy çap etdirmişlər.

Azərbaycan leksikoqrafiyası tarixində ilk dəfə "Rusca-ingiliscə-azərbaycanca qısa idman lüğəti"nin (N.Məmmədovla müştərək, Bakı, 2001) hazırlanması da M.Çobanovun adı ilə bağlıdır. Bu lüğət "Müasir idmanın beş növlüyü", "Atıcılıq", "Kaman atıcılığı" və "Üzgüçülük" olmaqla dörd hissədən ibarətdir. Kitab haqqında dövri mətbuat orqanlarında müsbət rəylər çap olunubdur. Pofessor M.Çobanov, həmçinin, Azərbaycan leksikoqrafiyası tarixində ilk dəfə "Rusca-ingiliscə-azərbaycanca qısa hərbi dənizçilik komandaları lüğəti"ni də (Bakı, 2002) hazırlamışdır.

Prof. M. Çobanov Azərbaycan Ali Hərbi Məktəblərində təhsil alan dinləyicilər – kursantlar üçün Azərbaycan və Qazax lüğətçiliyində ilk təcrübə olan "Azərbaycanca – qazaxca və qazaxca – azərbaycanca qısa danışıq lüğəti" (həmmüəlliflər, Bakı, 2008, 295 s.) hazırlamış və onun redaktorluğu ilə çap olunmuşdur.

**8.M.N.Çobanov-ədəbiyyatşünas.** Filoloq alim öz tədqiqatlarında ədəbiyyatşünaslıq sahəsini də yaddan çıxarmamışdır.

Sözün, ifadənin məna və məzmun təsiri, yanğı gücü, ilkin olaraq şairlərimizin söz sənətində özünə yurd - yuva salır, sənətə sevgi hissləri oyadır... Sənət sevgisi, poeziya sevgisi şairlərimizi

sözün ucalıq zirvəsinə qaldırır, oradan hər tərəfə boylanır, əlbəttə, bu boylanma sadəcə olaraq, dörd bir yana baxmaq, vaxt keçirmək deyil... Həyatı müşahidə etmək və müşahidə etdiklərini sözün bədii ifadə vasitələri ilə doğma xalqına, doğma oxucularına çatdırmaq məqsədini güdür... Bir sözlə, şair öz poetik duyumlarını, həyati müşahidələrini həm sevə - sevə, həm də sevdirə - sevdirə nikbin baxışlarla..., gecələr " yuxusuzluq zəhərini" içə - içə, həm yana - yana, həm də yandıra - yandıra ağ kağıza köçürür... Beləcə də, sənət yolunda qarşısına çıxan enişli-yoxuşlu, çıl-çırpılı yolları təmizləyə-təmizləyə ucalıq zirvəsinə yüksəlir... Bu ucalıq zirvəsini, mənəvi estetik və etik baxımdan qoruyub saxlayır, onu xalqın həyatında bir ölməzliyə, əbədiliyə yüksəldir..., bir növ müqəddəslik mahiyyətinə qaldırır...

Bu mənada, tarixin dərinliklərindən üzü bəri Azərbaycan - türk xalqının tarixində müqəddəslik zirvəsinə yüksələ bilən söz sənətinin ölməz sənətkarları, saysız - hesabsız korifey şairləri olub. Belə dahi söz sənətkarlarının, demək olar ki, bədii yaradıcılıqlarının bütün mərhələləri hər bir sözün məna dəyərini, məna çalarını, məna tutumunu (əlbəttə, məcazi mənalarını da) “yüz ölçüb, bir biçmiş” və "zərgər dəqiqliyi" ilə müqayisədən sonra yazdığı bədii əsərin ümumi məzmununa "bədii don" (bədii ifadə) geydirmiş və ağ kağıza köçürmüşdür... Şair cəmiyyətdə bədii dillə hansı mövzuda yazırsa yazsın, fərqi yoxdur, "şairin özü də, bir növ, təsvir etdiyi hadisələrin əsas qəhrəmanının xarakterini yaradır və yaşadır..."

Prof. M.Çobanov da yuxarıda qeyd olunanları nəzərə alaraq, Azərbaycan ədəbiyyatının sayılıb - seçilən yazıçılarının həyat və yaradıcılığına nəzər salmış və beləliklə də, ədəbiyyatşünaslığa meyl göstərmişdir. Şair xalqın övladıdır, odur ki, o, xalqın ruhu, Vətənin ruhu ilə yaşamalı və yaratmalıdır.

Professor M.Çobanovun Azərbaycan və gürcü dillərində çap olunmuş ilk ədəbi almanaxları və onlarla ədəbi-tənqidi məqalələrindən hiss olunurdu ki, o gələcəkdə ədəbiyyatşünas kimi yetişəcəkdir. Bu, belə də oldu. O, hələ 70-ci illərdən ədəbi tənqid

və ədəbi əlaqələrlə bağlı onlarla məqalə, 1977-ci ildə isə Bakıda "Sevirəm Gürcüstanı" və 1978-ci ildə Tbilisidə "Dostluq nəğmələri" (gürcü dilində) adlı ədəbi almanaxlar hazırlayıb çap etdirmişdir. Onu da qeyd etmək lazımdır ki, o, elə elmi tədqiqata başladığı ilk illərdən filologiyanın, demək olar ki, əsas sahələri ilə təxminən bərabər şəkildə məşğul olmuşdur. Çünki onun mülahizəsinə görə ədəbi dili və onun qayda-qanunlarını dərindən - mükəmməl bilməyənlərdən ədəbiyyatşünas olmadığı kimi, ədəbiyyatı və ədəbi-tənqidi, hətta, tarixi, mədəniyyəti və incəsənəti dərindən bilməyənlərdən də professional dilçi ola bilməz... Bir sözlə, hər bir dilçi ədəbiyyatşünas, hər bir ədəbiyyatşünas isə dilçi olmalıdır. Çünki filologiyanın bu iki sahəsi bir-birini tamamlayır...

O, Azərbaycan filologiyası ilə dərindən tanış olduqda görür ki, Azərbaycan ədəbiyyatşünaslığına nisbətən Azərbaycan dilçiliyində tədqiq olunmamış, araşdırılmamış sahələr, boşluqlar daha çoxdur. Məhz buna görə də, o, Azərbaycan dilçiliyindəki mövcud boşluqların doldurulmasını ön plana çəkməli oldu və bu sahədə böyük uğurlar qazandı... Lakin ədəbi-tənqid və ədəbi əlaqələr problemlərini də unutmadı... Bu sahə ilə bağlı dövri mətbuat orqanlarında yüzə yaxın ədəbi-tənqidi məqalələr, bir sıra şairlərin kitablarına geniş ön sözləri yazmış və nəşr etdirmişdir. "Ədəbi düşüncələr" adlı iri həcmli bir kitabı isə çapa hazırlanmışdır. O, ədəbiyyatşünaslığa dair Azərbaycan, rus, gürcü və erməni dillərində 100-ə qədər ədəbi-tənqidi məqalələr və rəylər yazıb çap etdirmişdir. Həmçinin, "Sevirəm Gürcüstanı" /Bakı, 1977/ və "Dostluq nəğmələri" /gürcü dilində, Tiflis, 1978/ adlı almanaxlar hazırlayıb çap etdirmişdir. Birinci kitabda Azərbaycan şairlərinin Gürcüstan və gürcü xalqı haqqında XII əsrdən üzü bəri klassik şairlərimizin söylədiyi səmimi hiss və duyğuları; ikinci almanaxda isə müasir Azərbaycan şairlərinin Gürcüstanla bağlı deyilmiş poetik nümunələri toplanmışdır. Elə ilk günlərdən bu almanaxların hər ikisini geniş oxucu kütləsi maraqla qarşılamışdır. Almanaxlar haqqında Azərbaycan, Gürcüstan və

Ermənistanın müxtəlif mətbuat orqanlarında azərbaycan, gürcü, rus və erməni dillərində /kitabların şəkli də çap olunmaqla/ ondan çox rəy çap olunmuş, bütün rəylərdə müəllifin, bu təşəbbüsü alqışlanmışdır.

Azərbaycan-gürcü ədəbi əlaqələri sahəsində uzun illər yorulmadan, fasiləsiz araşdırmalar aparan Prof. M.Çobanov bu sahədəki tədqiqat işlərinin əksəriyyətini toplayıb, 2008-ci ildə "Azərbaycan - gürcü ədəbi əlaqələri" adlı sanballı bir "Məqalələr toplusu" çap etdirmişdir. Müəllifin bu mövzunun araşdırılmasını daim diqqət mərkəzində saxlaması, heç də, təsadüfi deyil. Çünki tarixin lap dərinliklərindən üzü bəri Azərbaycan türkləri ilə Gürcüstan kartvelləri Güney Qafqazda coğrafi baxımdan, çox da böyük olmayan bir ərazidə qonşu olmuşlar. Onlar Qafqazın başının üstünü qara duman bürüdükdə birləşmiş, öz vətənlərinin azadlığı və müdafiəsi uğrunda əldə silah yadelli düşmənlərə qarşı qanlı döyüşlərə girmişlər...Vətən torpaqlarının başının üstündən duman çəkiləndə, parlaq Günəş şüaları isti işıq saçanda onlar da Günəş şüaları altında birgə isinmiş və əsasən tarix boyu əmin - amanlıq və sülh şəraitində yaşamışlar... Bu da diqqətə layiqdir... Əlbəttə, bu qonşuluq münasibətləri hər iki xalq arasında dostluq əlaqələrinin yaranmasına şərait yaratmışdır...

Digər tərəfdən tarixin lap qədim dövrlərindən üzü bəri Azərbaycan türkləri öz insani keyfiyyətlərinə - xalqlar arasında dostluq etmək, qonaqpərvərliyi, dostluğu, mehribanlığı, qonşuluğu və səmimiliyi ilə fərqlənmişlər...Bütün bu münasibətlər qədim dövrdən üzü bəri xalqımızın folklorunda - şifahi xalq ədəbiyyatının bir müdrik kəlamında deyildiyi kimi "Qardaş, qardaşınla güclüsən !". Həmçinin, Dünya poeziyasının nadir ustadı Nizami Gəncəvinin bir müdrik kəlamında deyildiyi kimi,

“Bir olsa yoldaşın, dostun əməli,
Daşdan su çıxarar onların əli”.

Məhz, hələ, körpəlikdən bu müdrik kəlamlardan rişə alan, qidalanan M.Çobanov həm valideynlərinin tərbiyəsi, həm də orta və ali məktəblərdə təhsil aldığı illərdə güclü olmaq üçün dostluğun,

qardaşlığın, qonşuluğun, birliyin mahiyyəti və həyat tərzi işığında böyümüş, boya - başa çatmış...və get - gedə düşüncə tərzi, həyati müşahidə qabiliyyəti, fikri, ideyası, əqidəsi, amalı, bir sözlə, əqli inkişafı və intellektual potensialı ona Azərbaycan və gürcü xalqları arasında mehriban qonşuluq və dostluq ideyalarını araşdırmağı və yaymağı diktə etmişdir...

Burada yeri gəlmişkən bir epizodu qeyd etmək yerinə düşərdi. M.Çobanov Tiflis şəhərində Dövlət Pedaqoji İnstitutunun Tarix - filologiya fakültəsinin Azərbaycan bölməsində təhsil aldığı illərdə (1955 - 1960) hələ, II kurs tələbəsi olduğu dövrdə İnstitut üzrə Tələbə Elmi Cəmiyyətinin sədri dosent İmedadzenin (təəssüf ki, adını unutmuşam) məsləhəti və rəhbərliyi ilə ona "Azərbaycan və gürcü xalqlarının tarixi dostluğu" mövzusunda elmi iş verilir. II kurs tələbəsi M.Çobanov elə həmin gündən elmi rəhbərinin məsləhəti ilə həmin mövzunun araşdırılmasına başlayır... günlər, həftələr bir - bir arxada qalır. Nəhayət, M.Çobanov beşinci ayın ortalarında "Azərbaycan və gürcü xalqlarının tarixi dostluğu" mövzusunda yazdığı elmi işi tamamlayır. Elmi rəhbər dosent İmedadze II kurs tələbəsi M.Çobanovun tələbə elmi işini bəyənir və bu mövzunun İnstitut Tələbə Elmi Cəmiyyətinin Elmi Konfransının proqramına saldırır... Nəhayət, gözlənilən gün gəlib çatır... mövzunun İnstitut Tələbə Elmi Cəmiyyətinin Elmi Konfransında II kurs tələbəsi M.Çobanov" Azərbaycan və gürcü xalqlarının tarixi dostluğu" mövzusunda məruzə ilə çıxış edir. Məruzə maraqla qarşılanır... M.Çobanovun elmi işi 12 nəfər həmkarı ilə birlikdə (hər fakültədən bir nəfər) birinci yerə layiq görülür...

Beləcə də, prof. M.Çobanov tələbəlik illərindən bu günə qədər tarixən Azərbaycan və gürcü xalqları arasında mövcud olmuş tarixi, ədəbi - mədəni və dil əlaqələrini araşdırmaqdan, bir növ, zövq alır. O, bu fəaliyyəti ilə fəxr edir... Heç təsadüfi deyil ki, başqa elmi araşdırıcılar da, xalq da M. Çobanovu "Xalqlar dostluğunun carçısı" adlandırırlar...

"Xalqın gözü tərəzidir" müdrik kəlamında böyük bir həqiqət

vardır. Çünki müdrik xalqımız öz işi və fəaliyyəti ilə bağlı olan hər bir düşüncəni və ifadəni təkrar - təkrar yoxlayıb, sonra isə məntiqi nəticə çıxarır: "Yüz ölç, bir biç" müdrik kəlamı buna əyani misaldır... Mədəd müəllim elmi-pedaqoji fəaliyyəti boyu bu müdrik kəlamlar üstündə köklənmiş və indi də gənclik və dostluq enerjisi ilə bu kökə sadiq qalmış, bu sadiqliklə elmi araşdırmalarında yeni – yeni uğurlar qazanmışdır... onun bu uğurlarının nəticəsi olaraq, Azərbaycan-Gürcü ədəbi əlaqələrinin inkişaf etdirilməsindəki fəaliyyətinə görə, 30 aprel 2009 - cu ildə prof. Mədəd Çobanov "Azərbaycanda Gürcü kitabı günləri"nin - "GUAM"ın "Xatirə diplomu" ilə təltif olunub.

Yuxarıda qeyd olunan fikir və mülahizələri prof. M. Çobanovun 2008 - ci ildə Bakıda nəşr olunan "Azərbaycan - gürcü ədəbi əlaqələri" kitabı haqqında yazılan "Xalqlar dostluğunun carçısı" ("Azərbaycan ordusu" № 31 (1456), 30 may 2009 - cu il) və "Bir olsa yoldaşın, dostun əməli..." ("Elm və Təhsil" № 07 (236), may 2010 - cu il) adlı rəylər bir daha təsdiq edir... Odur ki, həmin məqalələrin bu kitabda verilməsini lazım bildik:

Prof. M.Çobanovu iki ixtisaslı həmkarlarından, yəni vaxtı ilə Tarix - filologiya fakültələrini bitirən həmkarlarından fərqləndirən əsas cəhət odur ki, o, dövlət statusuna malik olan hər üç ixtisası, yəni Azərbaycan dili və ədəbiyyat və tarix fənləri üzrə elmi - pedaqoji fəaliyyətini və elmi axtarışlarını paralel olaraq davam etdirir. Onu da qeyd edək ki, Mədəd müəllim elmin hansı sahəsində araşdırmalar aparmasından asılı olmayaraq, daim yeni, araşdırılmamış mövzular seçir və həmin mövzuları müasir elmin tələbi səviyyəsində yerinə yetirə bilir... Bir az mübaliğə olmasın, onun qələminin bütün məhsulları başqası tərəfindən redaktə etməyə ehtiyac duymur...

Yeri gəlmişkən, onu da qeyd edim ki, Prof. M.Çobanov Azərbaycan və gürcü xalqlarının tarixi əlaqələri ilə paralel olaraq, Azərbaycan - gürcü ədəbi əlaqələri sahəsində də geniş araşdırmalar aparmışdır. Bu sahədə onun "Azərbaycan tarixən yadelli orduların müharibələr meydanı olub" (2002), "Borçalı azərbaycanlı-

ları II Dünya müharibəsində" (2005), "Azərbaycanşünaslığın əsasları" (2005), "Azərbaycan - gürcü əlaqələrinin tarixi kökləri" (2010) kitabları, bunlardan başqa, tarixi mövzularda yazılmış onlarla məqalələri də çap olunmuşdur...

Prof. M.Çobanov və Müşfiq Borçalının "Azərbaycan - gürcü əlaqələrinin tarixi kökləri" (2010) kitabında qarşıya qoyulan və araşdırılmaya cəlb olunan problemlər tarixşünaslığın müasir səviyyəsinə uyğun araşdırılmış və təhlil edilmişdir...

**Prof. M.Çobanov – "Xalqlar dostluğunun carçısı":**

Ümummilli liderimiz Heydər Əliyevin təbirincə desək: "Gürcüstan bizim üçün yaxın qonşu və dost ölkədir. Çox böyük tarixi ənənələrimiz var".

Bu mənada, professor M.Çobanov və M.Borçalının 2010-cu ildə çap olunmuş "Azərbaycan-gürcü əlaqələrinin tarixi kökləri" (Tarixi – kütləvi oçerklər) kitabında tarixi mərhələlər üzrə hər iki xalq arasındakı tarixi əlaqələrin, demək olar ki, bütün parametrləri öz geniş əksini tapmışdır:

- Qafqazın bu tərəfinin ilkin yerli sakinləri Azərbaycan türkləri və gürcülər olub,
- Bu xalqlar tarix boyu xırda, qısa müddətli narazılıqları və savaşları nəzərə asmasaq, demək olar ki, mehriban qonşuluq və dostluq şəraitində yaşayıblar...
- Yadellilərə qarşı birgə mübarizə aparıblar: O cümlədən, eramızın 65-ci ilində Roma sərkərdəsi Qney Pompeyə qarşı;
- III-V əsrlərdə İran Sasanilərinə qarşı birgə mübarizə aparıblar.
- VII-IX əsrlərdə Babəkin rəhbərliyi altında Ərəb xilafətinə qarşı mübarizə aparıblar.
- XII əsrdə Azərbaycan və gücü dostluğu möhkəmlənir. Qurucu David Tiflisdə müsəlmanlar yaşayan məhəllədə donuz saxlamağı qadağan edir. Hətta, Qurucu David Şirvanşahlarla qohumluq əlaqəsi yaradır, qızı Tamaranı Şirvanşah Mənçöhrə ərə verir.
- Dostluq əlaqələri şairlərin yaradıcılığında da özünün geniş

əksini tapır:

Xaqani Abxaz elində yaşayır, gürcü dilini öyrənir, gürcü qızını sevir. Gürcü qızlarını «ağ üzlü, tərsa gözəl» adlandırılır. Kürü Ceyhun çayına bənzədir, Tiflisin Səmərqəndi dalda qoyacağını söyləyir.

Nizami Tiflisi «cənnət bəzəkli gözəl torpaq, gül bağı» adlandırır.

- XVI əsrdə şah Teymuraz Nizaminin «Leyli və Məcnun» poemasını gürcü dilinə çevirir.
- XVI-XVII əsrlərdə «Koroğlu» dastanı yaranır. Gürcüoğlu Koroğlu Dəlilərindən biri olub.
- Fədainin «Bəxtiyarnamə» əsəri XVII əsrin əvvəllərində gürcü dilinə çevrilir.
- Qubalı Fətəli xanla Kartlı-Kaxeti çarı II İrakli arasında dostluq əlaqəsi yaranır.
- XVIII əsrdə Azərbaycanın görkəmli şairi M.V.Vidadi II İraklinin sarayında yaşayır, II İraklinın oğlu Levanın ölümünə şer həsr edir.
- XVIII əsrin məşhur şairi, ictimai xadimi, diplomatı M.P.Vaqif tez-tez Tiflisə rəsmi-diplomatik görüşlərə gəlir. «Tiflis» və «Gürcü qızı» adlı şerlərini yazır.

2. XIX-XX əsrlərdə Tiflis Azərbaycan türklərinin mədəni mərkəzlərindən biri olur.

- Azərbaycanın görkəmli ədiblərindən A.Bakıxanov, Mirzə Şəfi Vazeh, M.F.A.xundov, Ə.Haqverdiyev, Mirzə Cəlil, M.Ə.Sabir Tiflisdə yaşayır və gürcü yazıçılarından İ.Çavçavadze, A.Sereteli, Yakov Qoqebaşvili və başqaları ilə dostluq edirlər.
- XIX əsrin böyük gürcü yazıçısı A.Sereteli M.F.Axundovun əsərlərini gürcü dilinə çevirir.

Yuxarıda qeyd olunan dostluq əlaqələri sonrakı dövrlərdə də inkişaf etdirilir.

Prof. M.Çobanov bir filoloq alim kimi həm də ədəbiyyatşünaslıq məsələləri ilə də daim maraqlanmış, ədəbi tənqid, ədəbi əlaqələr və ədəbiyyatşünaslıqla yaxından bağlı olan monoqrafiyalara,

dərsliklərə və dərs vəsaitlərinə onlarla rəylər yazıb çap etdirmişdir. Onun azərbaycanşünaslıqla bağlı olan yazılan Azərbaycan, türk, rus, gürcü, erməni və s. dillərdə çap edilmişdir. Prof. M.Çobanovun "Sovet Gürcüstanı", "Gürcüstan", "Şərqin şəfəqi", "Ədəbiyyat və incəsənət", "Azərbaycan müəllimi", "Azərbaycan bayrağı", "Şərqin səsi", "Ziya", "Təhsil", "Sərbəst düşüncə", "Yurddaş", "Borçalı", "Вечерний Тбилиси", "Молодйожъ Гурузии", "Dalğalar qoynunda", "Azərbaycan ordusu", "Azərbaycan gəncləri", "İki sahil", "Vətən səsi", "Aydınlıq", "Futuroloq", "Azad Azərbaycan", "Elm və təhsil", "Saxalxo qanatleba" ("Xalq maarifi" gürcü dilində), "Tbilisi" (gürcü dilində), "Qamardjvebis droşa" - "Qələbə bayrağı" (gürcü və Azərbaycan dilində), "Literaturli Sakartvela" - "Ədəbi Gürcüstan" (gürcü dilində), "Ленинское знамйа" (rus dilində), "Sovetakan Vraskan" - "Sovet Gürcüstanı" (erməni dilində), "Trialeti", "Naxçıvan", "Soplis sxovreba" ("Kənd həyatı" gürcü dilində), "Солдатская права", "За нашу Советскую Родину" və digər qəzetlərin səhifələrində 150-yə yaxın geniş məzmunlu və aktual məqalələri çap olunmuşdur. O cümlədən, müxtəlif bədii əsərlərin ədəbi təhlili ilə bağlı 56 ədəbi-tənqidi, xalqların və ədəbiyyatların qarşılıqla münasibətilə bağlı 52, həmçinin, ədəbiyyatşünaslıq məsələlərinə dair çap olunmuş monoqrafiyalar, dərsliklər və dərs vəsaitləri və s. haqqında 36 rəy yazıb yuxarıda adları qeyd olunan qəzetlərin səhifələrində çap etdirmişdir.

Prof. M.Çobanov Azərbaycan ədəbiyyatının klassikləri və müasir yazıçıların bədii yaradıclığı ilə əlaqədar olaraq, onlarla yazıçının əsərlərinə nəzər salmış və onlar barədə öz sözünü və mülahizələrini söyləmişdir. Onun araşdırmalarında klassiklərimizdən Nizami, Nəsimi, Füzuli, M.P.Vaqif, M.F.Axundov, A.Bakıxanov, A.Səhhət, Ə.Haqverdiyev, S.Vurğun, Xəlil Rza, Ramiz Duyğun, Zöhrab Tahir, Zəlimxan Yaqub, Tahir Hüseynov, Vəli Əliyev, Əlxan Düşgün, Alıxan Binnətoğlu, R.Abdullayev, Pənah Göyçə, Eldar Təbib, Zəminə Xınalı, Əlləz Novruz, Ağbaba Azəri və başqalarının əsərləri haqqında ədəbiyyatşünas-tənqidçi

qeydləri etmiş, öz fikir və mülahizələrini söyləmişdir.

Göründüyü kimi, artıq, XX əsrin 80-ci illərində M.N.Çobanov ədəbiyyatşünas-tənqidçi kimi öz sözünü deyirdi. Onun ədəbi-tənqidi yaradıcılığı Yazıçılar Birliyinə üzv qəbul olunması üçün bütün tələblərə cavab verirdi. M.N.Çobanovun bu sahədəki fəaliyyətini nəzərə alaraq, onun Gürcüstan Yazıçılar Birliyinə üzv qəbul olunması üçün o dövrdə Azərbaycan Yazıçılar Birliyinin üzvü, xalq şairi-alim, filologiya elmləri doktoru, professor Xəlil Rza Ulutürk; Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı-jurnalist-alim, filologiya elmləri doktoru, professor Qulu Xəlilov; Azərbaycan Yazıçılar Birliyinin üzvü, ədəbiyyatşünas--alim, filologiya elmləri doktoru, professor Pənah Xəlilov zəmanət vermişlər. Lakin Gürcüstan Yazıçılar Birliyində M.N.Çobanovun sənədlərini bürokratcasına illərlə qovluqlarda saxladılar, hər dəfə bir bəhanə ilə ili-ilə qatdılar, axırda isə onun Yazıçılar Birliyinin üzvlüyünə qəbul olunmasına imkan vermədilər... Məqsəd aydın idi. Onlar Gürcüstanda ziyalıların toplanmasını və bir mərkəzdə fəaliyyət göstərməsini istəmirdilər...

Yuxarıda qeyd olunduğu kimi, o əvvəllər ədəbi-tənqid və ədəbi əlaqələrlə bağlı olan külli miqdarda məqalələr və müxtəlif bədii və elmi əsərlər haqqında rəylər yazdığı halda, son illərdə, artıq, ayrı-ayrı şairlərin yaradıcılığını araşdırmaqla da məşğul olmuş və bu sahədə müəyyən dərəcədə uğurlar qazanmışdır. Onun şair Ramiz Abdullayevin 50 illik yubileyi ilə əlaqədar olaraq yazdığı **"Nəğməkar şair"** (Bakı, "Borçalı" NPM, 2003) və ədəbiyyatımızda "Döyüşən şair" kimi tanınmış şair Ramiz Duyğun (Məlikov) poeziyası haqqında yazdığı **"Döyüşən şair-vətəndaş Ramiz Duyğun"** (Bakı, H.Əliyev adına AAHM, 2005) monoqrafiyaları təqdirə layiqdir.

Prof. M.Çobanov qeyd etdiyi kimi, "şairin zəngin poeziyasına dərindən nəzər saldıqda aydın olur ki, Ramiz Duyğun təxminən yarım əsrə yaxın bir müddət ərzində poetik yaradıcılıqla məşğul olmuş və bu sahədə böyük uğurlar qazanmış, gözə çarpacaq dərəcədə yadda qalan əbədiyaşar bədii sənət nümunələri yaratmış,

görkəmli alim, tərcüməçi və Xalq şairi Xəlil Rza Ulu-türk demişkən, o, "poeziya meydanında... köhlən səyirdən, sənət külüngünü qayalarda itiləyən...", qələmini süngüyə çevirib, yorulmadan mübarizə aparan cəsur, cəsarətli, qəhrəman, vətənpərvər bir şair vətəndaşdır. Onun poeziyasının hər bir misrasında da, beytində də, bəndində də, ümumilikdə ayrı-ayrı şeirlərində də yeni bir ifadə, yeni bir söz, yeni bir fikir və düşüncə hökm sürür".

Ramiz Duyğunun poeziyası ilə yaxından tanışlıqdan sonra istər-istəməz oxucu belə qənaətə gəlir ki, o, elə fitrən şair olub, anadan şair doğulub, ikinci tərəfdən şairin qidalandığı mənbələr öz əhatə dairəsinə görə çox zəngin və tükənməz bir xəzinədir, söz xəzinəsi, sənət xəzinəsidir... Bir sözlə, Vətən və Xalq onun poeziyasının həyat devizi olmuşdur." Bu baxımdan, prof. M.Çobanovun döyüşkən şairimiz-polkovnik Ramiz Duyğunun poeziyasına nəzər salması və onun barədə kiçik bir monoqrafiya yazması da təqdirə layiqdir...

Şair Ramiz Abdullayevin ilk şerləri XX əsrin 90-cı illərinin əvvələrində mətbuatda işıq üzü görmüş, radio və televiziyanın müxtəlif proqramlarında efirdə səslənmişdir. Gələcəyə ümidlə baxan və oxucularına sənət yollarında ümidlər verən şairin "Azərbaycan gəncləri", "Təhsil", "Şərqin səsi", "Ziya", "Elm və təhsil", "Azad Azərbaycan", "Vışka" qəzetlərinin, "Kirpi" jurnalının və "Addımlar" poeziya toplularında (Bakı, 1996, 1997) nəşr olunmuşdur. Bu da, elə ilk şerlərdən şairin get-gedə ədəbiyyat aləmində tanınmasına səbəb olmuşdur. Sonralar isə, şairin "Necə unudum səni",(1996),"Sevgi duyğuları" (1997), "Sevgi dolu gecələr"(2000), "Olacağa çarə yoxdur" (2002) və "Vətən torpağı"(2002) adlı kitabları nəfis şəkildə çap olunmuş və həmin kitablar oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Həmçinin, şairin onlarla şerlərinə musiqi bəstələnmişdir. O, poeziya aləmindəki uğurlarına görə, son illərdə "Abdulla Şaiq", "Vətən", "Vətən övladı", "Qızıl Qələm" və "Qızıl Açar" kimi bir sıra mükafatlara layiq görülmüşdür... O, Azərbaycan Yazıçılar

Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

Prof. M.Çobanov "Nəğməkar şair" monoqrafiyasında şairin poetik yaradıcılığı üçün səciyyəvi olan öz bədii poetik modelini yaratması, müasir dövrün, müasir həyatımızın tələblərini nəzərə alaraq, gənclərimizi və bütövlükdə, xalqımızı azğın düşmənlərin tapdağından azad etmək uğrunda birliyə və döyüş səngərlərinə səsləməsi, onun vətənpərvərlik və xəlqilik ruhunda şerlər yazmağı daim diqqət mərkəzində saxlayır... Monoqrafiyada, demək olar ki, onun poetik yaradıcılığı geniş və hərtərəfli şərh olunmuşdur.

Şairin poetik və dramaturgiya yaradıcılığı ayrıca təhlil olunmuş, onların ümumi mündəricəsində və məzmununda "Vətən, Xalq" anlayışları hər şeydən yüksəkdə durur. Bu sahədə şairin "Vətən torpağı", "Sən ey Vətən", "Vətəni düşməndən azad edək biz!", "O tay, bu tayda", "Azad edəcəyəm səni, Qarabağ", "Vətən", "Əsgər qardaşım" və s. şerlərini qeyd etmək olar...

Ədəbiyyatşünaslıq sahəsində araşdırmalarını davam etdirən professor M.Çobanov bu sahəyə dair müxtəlif illərdə yazdığı materialları toplayıb, «Ədəbi düşüncələr» adı ilə iri həcmli iki cilddə nəşrə hazırlamışdır. Artıq, «Əbədi düşüncələr» kitabının birinci cildi (428 səhifə) 2011-ci ildə çap edilib, tələbkar oxucuların öhdəsinə verilmişdir. Elmin müasir tələbləri səviyyəsində yazılmış bu kitab üç bölmədən ibarətdir.

«Əbədi düşüncələr»in birinci bölməsində Dünya şöhrətli Azərbaycan şairlərinin əbədiyaşar poeziyasının bəşəri əhəmiyyətindən və bədii incəliklərindən geniş şəkildə danışılmışdır. Bu bölmədə «poeziyamızın nadir ustadı» (Nizami-850), «Nəsimi və folklor» (Nəsimi-600), «Qabilin eyniadlı poeması», «Vətənpərvərlik ideyalarının tərənnümçüsü» (Abbas Səhət), «Mirzə Fətəli» (Ş.Mehdiyev), «Krasnodon qartalları» (Xəlil Rza), «Yurdsevər yazıçı» (Tahir Hüseynov), «Xalqın sevimli şairi», «Sevgi yağışına tutacağam dünyanı», «Ədəbi-bədii məclislərin bər-bəzəyi» (Zəlimxan Yaqub), «Vətənə «Oğul» gərəkdir» (Aqşin Babayev), «Döyüşən şair - Vətəndaş» (Ramiz duyğun), «Söhrab Tahir - Azərazər» və s. məqalələr toplanışdır.

Kitabın «Bədii dil məsələləri» adlanan ikinci bölməsində «Əbədi dilimiz xalqımızın milli sərvətidir», «Klassik ədəbi dilimizin bayraqdarı», «Nəriman Nərimanov və Ana dili», «S.Vurğun və Ana dili», «Zakir poeziyasının dil xüsusiyyətləri», «C.Cabbarlının əsərlərinin bədii dil xüsusiyyətləri», «Türk ədəbi dillərinin birliyinə doğru» məqalələr və həmçinin, professor Nizami Cəfərovun «Azərbaycanşünaslığın əsasları», «Qədim türk ədəbiyyatı», «Genezisdən tipologiyaya» kitabları haqqında rəylər; professor Aidə xanım İmanquliyevanın, professor Z.Budaqovanın professor A.Qurbanovun, professor Q.Kazımovun elmi-pedaqoji yaradıcılıqları haqqında mülahizələr toplanmışdır.

Kitabın «Folklor - xalq yaradıcılığı haqqında» adlanan üçüncü bölməsində «Bir el deyiminin açımı», «Atalar sözünün tərbiyəvi əhəmiyyəti», «Koroğlunun yeni qolu», «Borçalı rəvayətləri», «Borçalı əhvalatları», «E1 şairlərinin yaradıcılığından», «Tellayı çal, a Paşa daya» və s. məsələlərin araşdırılması öz əksini tapmışdır.

Burada yeri gəlmişkən, onu da qeyd edim ki, prof. M.Çobanov dilçilikdə və ümumən türkologiyada olduğu kimi, ədəbiyyatşünaslıq sahəsində də araşdırılmamış mövzuları çox məharətlə seçir. Bu baxımdan, onun elmi araşdırmalar bazası heç vaxt kasadlıq keçirmir. Ədəbiyyatşünas alimizə bu sahə də yeni-yeni nailiyyətlər arzulayırıq.

**9. Prof. M.N.Çobanov və hərbi humanitar elmlər.**

Onu elmi ictimaiyyət bir filoloq alim-dilçi, xüsusilə dialektoloq, onomatoloq, dilçi-metodist, bilinqvist, leksikoqraf, tənqidçi kimi tanıyır. Son illərdə isə gözlənilmədən tarixçi, həm də hərb tarixçisi kimi (o, AAHDM-də kafedra müdrü idi) elmi tədqiqatlar aparmış, dalbadal müxtəlif elmi araşdırmalar, kitablar nəşr etdirmişdir. Bu, bir təsadüf deyil, onun elmi əsası vardır. O, filologiyaya bir dialektoloq kimi gəlsə də, elmi mühitdə o, həm də onomatoloq, dilçi-metodist, bilinqvist, leksikoqraf kimi püxtələşmiş, lakin ədəbi tənqidi də unutmamışdır. O, çalışmışdır ki, elmi mühitdə, elmi ictimaiyyət arasında öz sözünü, öz fikrini,

öz mülahizəsini söyləyə bilsin. Onu da qeyd edim ki, o, elmi tədqiqatlar aparılmasında da, onların nəşr olunması sahəsində də həmişə prinsipial mövqedə dayanmışdır. Bəzən olub ki, redaktorlar tərəfindən dövri mətbuat orqanlarında, elmi jurnal və məcmuələrdə onun məqalələrindən çox cüzi, xırda dəyişikliklər və ya ixtisarlar etmək istəyiblər. O, belə hallara yol verməmiş, öz elmi mülahizəsinin, üslubunun saxlanmasını və olduğu kimi çap olunmasını təkid etmişdir. Bəzən də olub ki, redaktorlarla razılaşmayıb elmi məqalələrini, hətta, kitabını nəşriyyatın planından çıxarmışdır. Həmin məqalələri və kitabı sonralar olduğu kimi çap etdirmişdir. Çünki elmi araşdırmalarda hər bir tədqiqatçı öz sözü, öz səsi və öz nəfəsi ilə fərqlənməli və özünə müəyyən bir cığır açmağı bacarmalıdır. Elmə gəldiyi ilk günlərdən onun devizi belə olub, indi də belə qalır. Mənə belə gəlir ki, onun elmdə uğurlar qazanmağının əsas səbəblərindən biri, bəlkə də, başlıcası bu olub...

O, son illərdə tarix, həm də hərb tarixinin araşdırılması ilə məşğul olur. Bunu da təbii hesab etmək olar:

Birincisi, o, Pedaqoji İnstitutun tarix-filologiya fakültəsini bitirmişdir. Deməli, dilçilik və ədəbiyyatşünaslıq kimi, tarix də onun doğma ixtisasıdır.

İkincisi, hər bir xalqın qədim tarixi olduğu kimi, həmin xalqın yaratdığı elmin də özünəməxsus təşəkkül tarixi vardır. Deməli, xalqın tarixi ilə elmin tarixi qırılmaz tellərlə bir-birinə bağlıdır. Məhz bu bağlılığa görə, onun bütün tədqiqatlarında tarixilik prinsipi bu və ya digər səviyyədə öz əksini tapmışdır.

Üçüncüsü, hər bir ziyalı Vətəninin, Xalqının tarixini, mədəniyyətini, incəsənətini, etik normalarını, dünyagörüşünü, məişətini, tarixi məşğuliyyətini, sosial həyatını və s. dərindən bilməlidir. Onun başqa tədqiqatlarında olduğu kimi, "Borçalı toponimləri" (tədqiqatçı filoloq-jurnalist M.Çobanlı ilə müştərək, 1996) monoqrafiyasında da yuxarıda qeyd olunan səviyyələr öz geniş əksini tapmışdır.

Dördüncüsü, həm də onun baza təhsili tarix olduğu üçün daim

xalqımızın tarixi, xüsusilə onun hərb tarixi barədə düşünmüşdür. Bu da təsadüfi deyil. Çünki bəşəriyyət tarixirində ilk dövlətçilik ənənələrinin də, nizami ordunun yaradılması da qədim zamanlardan türk xalqlarının - ulu babalarımızın adı ilə bağlı olmuşdur. Elə bu düsüncələr də onu, gec də olsa, tariximizin - hərb tariximizin araşdırılmasına gətirib çıxarmışdır. Əlbəttə, onun tarixə dərindən maraq göstərməyinin bir səbəbi də tariximizin və mədəniyyətimizin əvəzsiz şah əsəri olan "Kitabi-Dədə Qorqud" dastanları üzərində apardığı araşdırmalar olmuşdur. Odur ki, o, 1998-ci ildə "Dədə Qorqud dünyasına səyahətdən parçalar" (tədqiqatçı filoloq-jurnalist M.Çobanlı ilə müştərək), "Qəhrəmanlıq dastanı" - Dədə Qorqud-1300" (tədqiqatçı filoloq-jurnalist M.Çobanlı ilə müştərək, Bakı, 2000) adlı monoqrafiyalarını çap etdirmişdir. Həmin monoqrafiyalarda qədim hərb tariximizlə bağlı "Qalın Oğuz eli və hərb sənəti", "Qalın Oğuz igidləri və onların döyüş taktikası", "Qalın Oğuz eli və marşlar", "Qalın Oğuz eli və xəfiyyəçilik təcrübəsi" və s. problemlər geniş şərh olunmuşdur.

Beşincisi, o, ali məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətdə olduğu zaman ilk zabit rütbəsi verən qısamüddətli kurs bitirmişdir. Hərbi xidmətdən tərxis olunduqdan sonra da üç ildə bir dəfə zabitlərin komandir hazırlığı toplanışında olmuş və beləliklə də, hərbi rütbəsi kapitan rütbəsinə qədər yüksəlmişdir. Görünür, onun zabit olmağı da hərb tarixini tədqiq etməyinə müəyyən dərəcədə təsir etmişdir.

Digər tərəfdən isə, 1996-cı ildən Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində "Dillər" kafedrasının müdiri vəzifəsində işləməsi də onun hərb tarıxinin tədqiqinə istiqamətlənməyinə təsir göstərmişdir. Çünki hərbi tədris müəssisələrində təlim və tərbiyənin özülü bilavasitə hərbi vətənpərvərlik və hərb tarixi əsasında qurulur. Məhz bunları nəzərə alaraq, AAHDM-i haqqında 1997-ci ildə "Sərkərdəlik məktəbi", (həmmüəllif), 1999-cu ildə isə "Bakı Ali Hərbi Dənizçilik Məktəbi-60" (həmmmüəllif), "Hərbi dənizçilik terminologiyası və qarşıda duran vəzifələr" (Bakı, 2000), daha sonra isə "Borçalı

ensiklopediyası" - III (Borçalı ulduzları-hərbçilər: polislər, ədliyyə müşavirləri, Bakı, 2001) adlı monoqrafiyalar hazırlayıb çap etdirmişdir. Bundan başqa, hərbi təhsillə bağlı olan "Hərbi etika", "Hərbi estetika", "Hərbi pedaqogika" fənlərindən proqramlar hazırlamış, "Hərbi sosiologiya" proqramını redaktə etmiş, həmçinin, I dərəcəli kapitan, tarix elmləri namizədi N.A.Əliyevin "Zabit əqidəsi" /1997/, "Mərd və mətanətli vitse-admiral" /1999/. "Azərbaycanda dənizçiliyin inkişafına dair", P.Q.Darabadi, N.A.Əliyevin "Xəzər bölgəsində geosiyası rəqabət və Azərbaycan" (Bakı, 2001). P.Q.Darabadi, N.A.Əliyevin "Геополитическое соперничество в Каспийском регионе и Азербайджан" (Баку, 2001), Bakı Ali Hərbi Dənizçilik Məktəbinin "Elmi əsərləri"n (Bakı, 1997, 1998, 1999, 2000, 2001) elmi redaktoru olmuş, hərbi mövzuda yazılmış bir çox proqram, məqalə və kitabları da redaktə etmişdir. İndi də hərb tarixi ilə bağlı araşdırmalarını davam etdirir... O, 2002-ci ilin mart ayında Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində Xəzər problemlərinə həsr olunmuş Elmi-nəzəri konfransda "Azərbaycan tarixən yadelli orduların döyüş meydanı olub" və "Borçalı azərbaycanlıları İkinci Dünya Müharibəsinin cəbhələrində" (Bakı, 2005) mövzularında hərb tarixi aspektində zəngin tarixli faktlarla əsaslandırılmış maraqlı məruzələr etmiş və həmin mövzuda geniş səpgili hərb tarixi üzərində hərtərəfli araşdırmalar aparır. Yaxın vaxtlarda isə, həmin monoqrafiya da işıq üzü görəcəkdir. Ümidvarıq ki, bu monoqrafiya gənclərimizin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük əhəmiyyəti olacaqdır.

Həmçinin, alimin tarixi səpkidə yazdığı "Azərbaycanşünaslığın atributları" (Bakı, 2003) kitabçası, "Azərbaycanlılar II Dünya müharibəsində", "Böyük Vətən Müharibəsində azərbaycanlıların iştirakı" (2003), "Haylar"ın Azərbaycana qarşı ərazi iddiaları və Azərbaycan türklərini soyqrımına məruz qoymaları" mövzularında Elmi konfranslardakı məruzələri çap olunub müasir tarixşünaslığın tələbləri səviyyəsində aparılmış araşdırmalar kimi qiymətləndirilmişdir.

Prof. M, Çobanovun Hərbi Humanitar elm sahəsindəki elmi-pedaqoji fəaliyyəti haqqında polkovnik, tarix elmləri doktoru, dosent, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin rəisi N. Əliyev "Tanınmış alim və əməkdar təhsil işçisi" (Bakı, 2007, 54 s.) adlı xüsusi kitabında yazmışdır:

" Professor Mədəd Çobanov Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində işlədiyi müddətdə özünü həm nümunəvi vətəndaş, həm elm-təhsil işçisi, həm geniş erudisiyalı və diapazonlu alim-ziyalı, həm də yorulmaz və usanmaz elm araşdırıcısı kimi göstərmişdir. Onun xarakterində ümumi insani keyfiyyətlər, yüksək mənəviyyat, Vətənə, elə-obaya, xalqımızın tarixi keçmişinə və müasir durumuna vurğunluq, hər bir sözünün arxasında gizlənən dəqiqlik, inamlıq və əqidəlik, sözü bütövlük, xeyirxahlıq kimi insani keyfiyyətlər birləşdirilmişdir... Bu da, heç şübhəsiz ki, professor M. Çobanovun istər həmkarları – alimlər və ziyalılar, istər məktəbimizin kollektivi professor – müəllim və zabit və kursantlar arasında böyük nüfuz qazanmasına və hər yerdə hörmətlə qarşılanmasına səbəb olmuşdur. Odur ki, professor M. Çobanovun ümumi fəaliyyətini yığcam və lakonik halda qiymətləndirmək çox çətindir. Onun elmi axtarışlar "bazarı" çox geniş və çox sahəlidir. Odur ki, onun elmi axtarışlar "bazarı" heç vaxt kasadlıq keçirməyibdir...

Lakin mən burada professor M. Çobanovun hərbi humanitar elm sahəsindəki fəaliyyəti barədə yığcam halda danışmağı planlaşdırmışdım... Hərbi Humanitar elm sahəsində də geniş miqyaslı **elmi və elmi metodik araşdırmalarla məşğul olmuşdur... onu da qeyd etmək istəyirəm ki, Müdafiə Nazirliyinin tabeliyində olan tədris müəssisələrində və Elmi Mərkəzdə Hərbi Humanitar elm sahəsinin əsası və özülü professor M. Çobanov tərəfindən qoyulmuşdur. Hərbi Humanitar elm və elmi – metodik sahə ilə bilavasitə bağlı olan ilk tədris proqramlarının, dərsliklərin, dərs vəsaitlərinin, metodik göstəricilərin və tövsiyələrin müəllifi də professor M. Çobanov olmuşdur. Bir sözlə, Azərbaycan Respublikası**

**Silahlı Qüvvələrinin tədris müəssisələri üçün zəruri olan Hərbi Humanitar elm  və elmi-metodik sahənin yaradılması işində professor M. Çobanovun geniş miqyaslı fəaliyyətinin xüsusi əhəmiyyəti olmuşdur, desək, heç də səhv etmərik**" (səh. 3-4)

Yuxarıda qeyd olunanları nəzərə alaraq, bunu da qeyd etmək yerinə düşər ki, Hərbi Humanitar elm sahəsinin yaradılmasında professor M. Çobanovun böyük əməyi olmuşdur. O, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində işlədiyi illərdə (sentyabr 1996 –sentyabr 2010-cu illər) Hərbi Humanitar elm yönümlü, o cümlədən, dərslik, dərs vəsaiti, metodik tövsiyələr və metodik göstərişlərdən ibarət 34 kitab, müxtəlif fənlər üzrə 16 tədris proqramı, 72 elm məqalə hazırlayıb çap etmiş, 21 kitabın redaktoru, rəyçisi və tərcüməçisi olmuş, 29 dəfə müxtəlif mövzularda Ali məktəblərarası  və Hərbi Muzeydə Elmi – nəzəri və Elmi – praktik Konfranslarda Hərbi Humanitar elmin müasir və aktual problemlərinə dair maraqlı məruzələrlə çıxış etmişdir.

Yuxarıda qeyd olunanlardan başqa professor M. Çobanov Hərbi Humanitar elmin ayrı-ayrı sahələrində dair müxtəlif dərslik və dərs vəsaitləri də yazıb çap etdirmişdir. Onlardan "Müəllim – zabitin müstəqil olaraq təhsiliniartırma problemləri" (Bakı, 2005, 88 s.), " Zabit etikasının əsasları" ( həmmüəllif, Bakı, 2007, 116 s.), "Müəllim – zabitin pedaqoji ustalığının artırılmasının əsasları", I ( həmmüəllif, Bakı, 2008, 154 s.), "Müəllim – zabitin pedaqoji ustalığının artırılmasının əsasları" II (Bakı, 2008, 100 s.) və s. qeyd etmək olar...

Prof. M.N.Çobanov, həmçinin "Azərbaycanın hərb tarixi", "Azərbaycan hərbi dənizçilik tarixi" proqramlarının da tərtibçisi olmuş, bu proqramlar üzrə bir neçə məqalə çap etdirmiş və dərs vəsaiti hazırlamışdır.

**10. M.N.Çobanov - publisist.** M.Çobanovun publisistik fəaliyyəti hələ aşağı mətbuat orqanlarında-orta məktəbin "Əlaçı", TDPİ-nin "Gənc müəllim" adlı divar qəzetlərinə məqalələr yazmaqla və həmin qəzetlərin redaksiya heyətlərində iştirak etdiyi

günlərdən başlamışdır. İlk mətbuu məqalələri 1957-ci ildə "Şərqin Şəfəqi" /Tbilisi/, "Qələbə bayrağı" /Bolnisi/ və "Azərbaycan gəncləri" /Bakı/ qəzetlərində çap olunmuşdur. Elə həmin dövrdən M.Çobanov bir müxbir kimi müxtəlif qəzetlərdə yazılarını çap etdirir və yazıları-oçerk və reportajları tez-tez radio vasitəsilə efirdə səslənirdi. Onun yazıları Azərbaycan, gürcü, rus və erməni dilli mətbuat orqanlarında çap olunurdu...

"Редаксийа газеты "Sovet Gürcüstanı"

/Орган ЦК КП Грузии и Советов депутатов трудяшихся Грузинской ССР/.

Предявитель сего тов. Чобанов М.Н. является нешт. Корреспондентом.

Действительно по 31 декабря 1969 г.

Редактор: М.Мурадов. İ.M.

M.Çobanovun publisistik fəaliyyəti də çox zəngin və səmərəli olmuşdur. Onun publisistik yazıları "Şərqin Şəfəqi", "Sovet Gürcüstanı", "Gürcüstan", "Qələbə bayrağı", "Bolnisi", "Trialeti", "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi","Ədəbiyyat və incəsənət", "Azərbaycan", "Azad Azərbaycan", "Aydınlıq", "Ziya", "İki sahil", "Vətən səsi", "Şərqin səsi", "Dalğalar qoynunda", "Sərbəst düşüncə", "Yurddaş", "Borçalı", "Təhsil"; "Молодежь Грузии", "Вечерний Тбилиси", "Советский педагог", "Ленинское знамя", "Солдатская правда", "За нашу родину", "Saxalxo qanatleba" /gürcü dilində, "Xalq maarifi", "Soplis sxovreba" /gürcü dilində "Kənd həyatı", "Tbilisi" /gürcü dilində/; "Sovetakan Vrastan" /erməni dilində/ və s. qəzetlərin səhifələrində 400-ə yaxın məqalələri, oçerkləri, reportajları, xəbərləri, tərcümələri və s. çap olunmuşdur.

M.N.Çobanov 1996-1997-ci illərdə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin "Dalğalar qoynunda" adlı qəzetinin məsul redaktoru olub. Onun publisistik yazılarının ümumi həcmi 30 çap vərəqinə yaxındır. O, eyni zamanda "Şərqin səsi", "Elm və təhsil" qəzetlərinin, "Qarapapaq", "Borçalı", "Xəzər" və s. jurnalların redaksiya heyətinin üzvüdür, Azərbaycanın mərkəzi qəzetlərindən

"Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Azərbaycan müəllim", "Azərbaycan Ordusu" və digər nüfuzlu qəzetlərlə müntəzəm əməkdaşlıq edir.

**11. M.N.Çobanov-ictimaiyyətçi.** O, elmi-pedaqoji yaradıcılığı ilə yanaşı, həm də fəal ictimaiyyətçidir. O, əməkdaşlıq etdiyi İnstitutda "Azərbaycan dili və ədəbiyyatı kafedrasında" /Bu kafedra 1978-ci ildə bilavasitə M.N.Çobanovun təklifi və tələbi ilə yaradılmışdır./ kafedra müdirinin müavini, kafedra müdiri əvəzi /1978-1993/, Metod Şuranın üzvü, sədr müavini və Azərbaycan bölməsinin sədri (1975-1993) kimi fəaliyyət göstərmişdir. Ayrı-ayrı vaxtlarda kafedra müdiri işlədiyi müddətdə tələbələr arasındakı gənc yaradıcı qüvvələri birləşdirmək məqsədilə "Qaynaq" adlı ədəbi-bədii dərnək təşkil etmiş /1987/, Tələbə Elmi Cəmiyyətinin Azərbaycan bölməsinin rəhbəri /1978-1990/ olmuşdur. Həmçinin, kafedra müdiri əvəzi işlədiyi vaxtlarda bir sıra ədəbi axşamlar, görüşlər, Yubiley konfransları və s. təşkil etmişdir. O cümlədən, "Nizami poeziya günləri" /1979/, Tiflisdə M.F.Axundovun Ev-Muzeyində görüşlər keçirmiş /1985/, S.Vurğunun anadan olmasının 80 illik Yubileyini /1986/, M.P.Vaqifin anadan olmasının 270 illik Yubileyini /1987/, A.Səhhətin anadan olmasının 110 illik Yubileyini /1984/, Q.Zakirin anadan olmasının 200 illik Yubileyini /1986/, C.Cabbarlının anadan olmasının 90 illik Yubileyini/1989/, M.Ə.Sabirin anadan olmasının 125 illik Yubileyini/1987/, şair V.Səmədoğlu ilə görüş/1986/, yazıçı T.Hüseynovla görüş və onun "Borçalı əhvalatları" povestinin/1987/ geniş şəkildə müzakirəsini keçirmiş, həmçinin, 1987-ci ildə Gürcüstanda yaşayıb-yaradan azərbaycanlı yazıçılarla ilk dəfə təntənəli görüş təşkil etmişdir. Bu görüşdə yerli yazıçılar bir növ hesabat vermişlər. Kafedra xətti ilə digər tədbirlər də qeyd olunmuşdur.

Prof. M.Çobanov keçmiş SSRİ imperiyasının dağılması ilə əlaqədar olaraq, ayrı-ayrı respublikalarda baş vermiş olan məlum səbəblərə görə, Tiflisdən Bakıya köçür və 1993-1994-cü illərdə Azərbaycan Fasiləsiz Təhsil Kompleksində - Futurologiya İnstitu-

tunda eyni vaxtda tədris və elmi işlər üzrə prorektor (vitse-prezident), "Dillər" kafedrasının müdiri və AFTK-nin nəzdində müstəqil fəaliyyət göstərən Azərbaycan Elittar İnstitutunun rektoru, Elmi Şuranın üzvü, "Elmi əsərlər"in redaktoru vəzifələrində fəaliyyət göstərmişdir. Onun bilavasitə rəhbərliyi ilə AFTK-də bir sıra tədbirlər təşkil olunmuş, görkəmli alimlər və yazıçılarla görüşlər keçirilmişdir.

Prof. M.N.Çobanov "İdrak"- Elm, Təhsil və İstehsalat Mərkəzinin "Şimal" Universitetində "Dillər" kafedrasının müdiri işlədiyi vaxt Azərbaycanın görkəmli şairi M.Füzulinin anadan olmasının 500 illik Yubileyinə həsr olunmuş "Ədəbi-bədii axşam" /9.12.1994/ təşkil etmiş və həmin axşamda "Füzuli poeziyasının dili" mövzusunda məruzə etmişdir.

1996-cı ildə Bakı Ali Hərbi Dənizçilik Məktəbində də M.N.Çobanovun təşəbbüsü ilə rəhbərlik etdiyi "Dillər" kafedrasının bazasında ictimai müxbirlər hazırlayan birillik "Jurnalistika" kursu, gənc yaradıcı qüvvələri birləşdirmək və onları istiqamətləndirmək məqsədilə "Dalğa" adlı ədəbi-bədii dərnək təşkil edilmişdir. Həm "Jurnalistika" kursuna, həm də "Dalğa" ədəbi-bədii dərnəyinə M.N.Çobanov rəhbəri olduğu Həmçinin, onun təşəbbüsü ilə Bakı Ali Hərbi Dənizçilik Məktəbinin "Dalğalar qoynunda" adlı çoxtirajlı qəzet təsis edilmişdir. Həmin qəzetin məsul redaktoru da M.N.Çobanovdur.

Prof M. Çobanov 1970-1996 cı illərdə əməkdaşlıq etdiyi ali məktəbin TEC-ində rəhbərli olduğu tələbələr Tiflisdə, Bakıda, Gəncədə və digər şəhərlərdə Tələbə Elmi Konfranslarında iştirak etmiş və "Diplom" və "Fəxri Fərman"lara layiq görülmüşdür. O, müasir elmin yayılması və kütləviləşməsi sahəsində də müəyyən işlər görmüşdür. Onun təşəbbüsü ilə kafedra iclaslarında tez-tez yerli çap olunmuş əsərlərin müzakirəsi keçirilirdi.

M.N.Çobanovun elmi-pedaqoji fəaliyyəti, ictimai işlərdəki fəallığı İnstitutun rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir. O, A.S.Puşkin adına TDPİ-nin yaradılmasının 50 illiyi münasibətilə "Xatirə medalı" (/1985)/, bir neçə dəfə İnstitutun rəhbər-

liyinin "Fəxri Fərman"ı (1980, 1985)/ ilə təltif olunmuş, dəfələrlə rəhbərlik tərəfindən "Təşəkkür"ə layiq görülmüş və pulla mükafatlandırılmışdır. O, həmçinin "Tələbələrin əmək semestrində fəal iştirak etdiyinə görə, Gürcüstan KP Saqareco RK-nın "Fəxri Fərman"ı ilə təltif olunmuşdur (/1985)/.

M.N.Çobanov Gürcüstan Respublikasının Bolnisi rayonunda "Bilik" Cəmiyyəti İdarə heyətinin üzvü, sədr müavini və sədri; onlarla kitabın rəyçisi və redaktoru olmuşdur.

1974-cü ildə Gürcüstan Təhsil Nazirliyinin göstərişi ilə qabaqcıl müəllimlərin iş təcrübəsini öyrənmək və yaymaq məqsədi ilə tədbirlər keçirilmişdir. Belə tədbirlərə Bolnisi rayonu maarif şöbəsi də qoşulmuşdur. Maarif şöbəsinin məsləhəti ilə Darbaz orta məktəbində M.N.Çobanovun pedaqoji və metodik təcrübəsinin öyrənilməsi planlaşdırılır. Bu məqsədlə 1973/74-cü tədris ilinin ikinci rübündə qonşu məktəblərin müəllimlərinin iştirakı ilə onun "Açıq dərs"ləri təşkil olunmuş, həmin dərslərin pedaqoji-metodik təcrübəsi və əhəmiyyəti geniş müzakirə edilmişdir. Sonralar bu barədə qəzet səhifələrində geniş yazılar dərc olunmuş, radio vasitəsilə efirdə "Qabaqcıl təcrübə tribunası" adlı veriliş səslənmişdir/ Bax: V.Vəliyev, Qabaqcıl müəllimlərin təcrübəsini yayaq, "Qələbə bayrağı" qəzeti, N:6/3850/, 14 yanvar 1975/. Həmçinin, onun elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında qəzetlərdə bir neçə dəfə oçerklər dərc olunmuş, Azərbaycan və Gürcüstan televiziyalarında sənədli filmlər və "Xüsusi buraxılış"lar verilmişdir.

Mütəxəssislər professor M.Çobanovun elmi-pedaqoji fəaliyyətini yüksək qiymətləndirmişlər. Onun ayrı-ayrı əsərləri, hətta, məqalələri haqqında saysız-hesabsız rəylər yazılmış, öz əsərlərinin müvafiq bəhsində xülasə xarakterli rəylər söyləmiş; haqqında müxtəlif qəzetlərdə oçerklər, məlumatlar dərc olunmuş, televiziya ilə xüsusi buraxılışlar verilmiş, radio oçerkləri efirdə səslənmişdir. Onun elmi yaradıcılığı və pedaqoji-ictimai fəaliyyəti haqqında 250-yə yaxın mətbuu mənbələrdə müxtəlif səpgili məlumatlar verilmiş, 1997-ci ildə alimin 60 illik yubileyi

münasibətilə "Təhsil" qəzetinin 20 səhifəlik xüsusi buraxılışı və Azərbaycanın elm xadimləri seriyasından "Professor Mədəd Çobanov-60" adlı kitab işıq üzü görmüşdür.

Nəhayət, tanınmış dilçi-türkoloq alim, hörmətli professor Mədəd Çobanovu 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı və yeni-yeni uğurlar arzulayıram.

*Kitab müəllifin "Təhsil" qəzetinin mart, 1997-ci il və "Şərqin səsi" qəzetinin mart 2002-ci il tarixli saylarında dərc olunmuş məqalələri "və Prof Mədət Çobanov – 70, Elm Fədaisi" kitabında çap olunmuş " Zəhmətkeş alim, tanınmış dilçi, türkoloq" (Bakı,2007,səh 21 – 62) yazısı əsasında yenidən işlənmiş və hazırlanmışdır.*

## Prof. Mədəd Namaz oğlu Çobanovun elmi-pedaqoji fəaliyyəti haqqında həmkarlarının dediklərindən:

**Azərbaycan MEA müxbir-üzvü, filologiya elmləri doktoru, prof. Afat Qurbanov:**

"Mədəd Çobanov bu aktual və həllinə zəruri ehtiyac hiss olunan problemin işlənməsini qarşıya məqsəd qoyub, dilimizdəki şəxs adlarının əmələ gəlməsini, yayılma regionunu, istifadə dərəcəsini, inkişaf tarixini və s. cəhətlərini araşdırmağa çalışmışdır... Son illərə qədər meydana gəlmiş elmi-tədqiqat işləri təhlil olunur, hər bir fikrin, mülahizənin elmi qiyməti verilir. Müxtəlif illərin məhsulu olan hər bir əsər elmi süzgəcdən keçirilərkən müəllifin xronoloji prinsipi gözlədiyi, onun obyektiv mövqe tutduğu müsbət hal kimi diqqəti cəlb edir. Müəllif onomastikaya

dair istər respublikamızda, istərsə də ondan kənarda keçirilən konfranslarda qoyulan məsələlərə də toxunur, əlaqədar məsələlərin təhlilini verir, əldə olunan ümumi elmi baxışları, nəticələri faydalı hesab edir... Ümumiyyətlə, əsərdə ayrı-ayrı dövrlərin ictimai-siyasi vəziyyətinin, mədəni səviyyəsinin nəzərə alınması dil faktlarının düzgün şərh edilməsinə əsas vermiş, dissertasiyanın elmi keyfiyyətinin artmasına səbəb olmuşdur...

Dissertasiyanın bütün fəsillərində dilçiliyin nəzəri bünövrəsinə uyğun olan bir sıra xüsusi elmi metodlardan istifadə edilmişdir. Müasir dilçiliyin müqayisəli, tarixi və kəmiyyət metodlarına daha çox müraciət olunması əsərin keyfiyyətini daha da artırmış, müəllifin məqsədinə nail olmasına imkan yaratmışdır. Mədəd Çobanovun bu əsəri, həqiqi mənada, dərin araşdırmaların və gərgin əməyin məhsuludur... Bu əsəri türkoloji dilçilikdə antroponimiya məsələlərinə dair zəngin dil materialları üzərində qurulmuş orijinal tədqiqat işi kimi qiymətləndirmək olar. Əsərin müsbət məziyyətləri çoxdur" */M.Çobanovun doktorluq dissertasiyasına yazılmış rəsmi opponent rəyindən).*

"Antroponimik tədqiqatların geniş vüsət tapdığı bu illərdən /1960-cı illərdən. -M.Ç./ başlayaraq A.Qurbanov, M.Adilov, A.Axundov. M.Çobanov... və başqa bir sıra alim-türkoloqlar ümumtürk antroponimlərinin problemləri ilə məşğul olmuşlar". "Ümumtürk antroponimiyasının bir sıra ümumnəzəri məsələləri 80-ci illərdə bu və ya digər səviyyədə... M.Çobanovun "Azərbaycan antroponimiyasının əsasları" (1983), "Təxəllüs.Familiya" (1987) kitablarında və elmi əsərlərində ətraflı şərh olunmuşdur". "Ümumtürk antroponimikasına dair işlər bu illərdə də (90-cı illər.-M.Ç.) başlıca olaraq iki istiqamətdə aparılmışdır... A.Qurbanovun "Azərbaycanlı adları" /1993/, M.N.Çobanov və M.M.Çobanlının "Azərbaycan şəxs adları" /1995/ lüğətləri 90-cı illərin leksikoqrafik məhsuludur".

**Filologiya elmləri doktoru, prof. S.M.Mollazadə:**

"Azərbaycan dilçiliyində lüğət tərkibinin geniş bir sahəsini

əhatə edən antroponimlər bu vaxta qədər ayrıca tədqiqat mövzusu kimi monoqrafik planda öyrənilməmişdir. Doktorant bu mövzunu seçərkən şəxs adlarının inkişaf şəraitini, dil rəngarəngliyini və bir sıra başqa mühüm səciyyəvi cəhətləri nəzərə almışdır. Dissertasiyanın məzmunu göstərir ki, M.Çobanovun elmi-nəzəri cəhətdən müşahidəçilik qabiliyyəti, müstəqil tədqiqatçılıq vərdişi və türkoloji hazırlığı vardır...

Ümumiyyətlə, dissertasiya bövük zəhmət tələb edən bir əməyin məhsuludur. Dissertasiyanın müsbət cəhətlərindən biri kimi bunu xüsusi qeyd etmək istəyirik ki, tədqiqat işinin bütün fəsilləri arasında qarşılıqlı əlaqə, elmi-məntiqi ardıcıllıq və üzvi bağlılıq vardır..." */M.Çobanovun doktorluq dissertasiyasına yazılmış rəsmi opponent rəyindən.*

**Filologiya elmləri doktoru, prof.H.Həsənov:**

"Həlalik antroponimiyamıza aid doktorluq dissertasiyası yazılmamışdır. M.N.Çobanovun müdafiəyə təqdim etdiyi "Azərbaycan antroponimiyasının əsasları" adlı doktorluq dissertasiyası bu sahədə ilk elmi-tədqiqat işidir. Əgər müəllifin 20 illik səmərəli elmi fəaliyyətinin nəticəsidir. Dissertant bu sahədə səriştəli və təcrübəli tədqiqatçıdır. Bu mövzuya aid onun onlarla məqaləsi və bir neçə kitabı çap olunnıuşdur. Dissertant bu sahə ilə əlaqədar olan elmi konfranslarda müntəzəm çıxış edir. Göründüyü kimi, Azərbaycan antroponimlərinin öyrənilməsi onun diqqətini təsadüfdən-təsadüfə yox, müntəzəm cəlb etməkdədir...

Fəsillərin adları və onlarda araşdırılan məsələlər dissertasıyanın ümumi məzmununa uyğundur. Burada ilk dəfə olaraq, Azərbaycan antroponimiyasının əsasları sistemli şəkildə araşdırılır və ümumi elmi nəticələr çıxarılır. Dissertasiyadakı cədvəllər və sxemlər daha çox maraq doğurur. Bunlar elmi işin istər nəzəri, istərsə də təcrübi cəhətdən əhəmiyyətli olmasına yeni ton verir, onun məzmununu sabitləşdirir, elmi dəyərini artırır. Həmin sxem və cədvəllərdə şəxs və şəxs adlarının işlənmə tezliyi, ayrı-ayrı tarixi mərhələlərdə yayılması və işlədilməsi də öz əksini tapır.

Ümumiyyətiə, dissertasiya təsviri və müqayisəli xarakterdə

yazılmışdır, elmi aparaturası lazımi səviyyədədir, əsərdə irəli sürülən hər bir mülahizə bol-bol nümunələrlə müşaiyət edilir və əsaslandırılır. İstifadə olunmuş ədəbiyyat zəngindir. Dissertasiya forma və məzmunca elmi-tədqiqat səciyyəlidir. Bir sözlə, dissertant qarşısına qoyduğu məqsədə tamamilə nail ola bilmişdir. Bu əsər nəinki Azərbaycan dilçiliyi, bütövlükdə, türkologiya üçün də əhəmiyyətlidir. Əsərin elmi məziyyətləri çoxdur. Bu da, hər şeydən əvvəl, onun orijinallığından irəli gəlir... Onun kitabları öz elmi məziyyətlərinə görə onomastik əsərlər sırasında layiqli qiymətə malikdir. Hətta, müəllif çap olunmuş kitablarını da doktorluq işi kimi müdafiə edə bilərdi." /*M.Çobanovun doktorluq dissertasiyasına yazılmış rəsmi opponent rəyindən/.*

**Filoiogiya elmləri doktoru, prof. K.Vəliyev:**

"Əsər ilk müzakirə olunan variantından çox fərqlidir. Həm də bu fərq əsərin elmiliyində özünü büruzə verir. Dissertasiyanın tədqiqat obyekti olduqca maraqlıdır. Əlbəttə, maraqlı olduğu qədər də çətindir, mürəkkəbdir. Mövzu günün tələblərinə cavab verir, müasir dilçiliyimiz üçün aktualdır. Müzakirədə iştirak edən yoldaşların əsər haqqında söylədikləri fikirlərlə mən də şərikəm. Əsəri bitmiş hesab edirəm, müasir elmi tələblərə cavab verir. M.N.Çobanovun "Azərbaycan antroponimiyasının əsasları" mövzusunda yazdığı dissertasiyasına aid 4 kitab, proqram, 26 jurnal məqaləsi və tezislər çap edilmişdir. Bütün bunlar əsərin müdafiəyə buraxılması üçün zəmanət verir. Mən də sizin təklifmizlə razıyam. Dissertasiyanın müdafiəyə buraxılmasını təklif edirəm". */M.Çobnovun doktorluq dissertasiyasının kafedradakı müzakirəsindən/.*



**Xalq şairi, Prezident təqaüdçüsü**
**Zəlimxan Yaqub**

## AĞSAQQAL ALIM, MÜDRIK ZIYALI

Alim tək yazdığı kitabına yox, elinə-obasına, əqidəsinə, torpağına və dilinə bağlı olmalıdır.

Professor Mədəd Çobanovu çoxdan tanıyıram. Doğma kəndinə, elinə-obasına, Borçalısına bağlı bir adamdır. Bu dediklərim kimdə varsa demək o, həm də dilinə bağlı olur. Mədəd müəllim də belə ziyalılarımızdandır - az danışıb çox iş görən!

Öz sakit təbiəti, az danışığı, əməyə və torpağa bağlılığı ilə Türk dünyasına bağlı olan bir alim olduğunu təsdiq edir. Mütənasib duruşu, nurani sifəti, mehriban və ılıq baxışları ilə ən nurlu, ən gözəl ziyalı təsiri bağışlayır.

Əməksevər bir alimdir. Yorulmadan çalışması, gecə və gündüz işləməyinin məhsulu olaraq çoxlu kitablar yazıb, ali təhsilli tələbələr yetişdirib, tərbiyə edib.

Onu Borçalıda necə var elə qəbul ediblər. Ağsaqqal alim, ağsaqqal müdrik bir ziyalı, vətənpərvər və yurdseyər Borçalı oğlu kimi...

Onu hər kənddə tanıyır, adını anır, haqqında xoş sözlər deyirlər. Bütün bunların hamısını Mədəd müəllim heç kəsin dəstəyi olmadan özü əldə edibdir. Öz əməyi və bacarığı sayəsində.

Mən də bir Zəlimxan Yaqub olaraq ağsaqqal alimimizi bağrıma basıb öpürəm - ömrün daim yaradıcılıqla keçsin! - deyirəm.

Allah onun içində yandırmış olduğu elm ocağını heç vaxt söndürməsin! İnşallah!

Professor Mədəd Çobanova bu gücü-qüdrəti verən torpağa eşq olsun!- deyirəm. Belə bir elm fədaisi yetirən ailəni, nəsli, dostu, yoldaşı, kəndi, hamısını bağrıma basıram.

Elimin-obamın əziz oğlu, hörmətli ağsaqqal alimi, Borçalı ədəbi-elmi mühitinin Azərbaycan ədəbi, elmi ictimaiyyətinə ləyaqətlə

təqdim eləyən alimlər arasında özünəməxsus yeri, mövqeyi, hörməti, nüfuzu olan, elmi axtarışlara çox ciddi münasibət bəsləyən, qələminə, mürəkkəbinə, ağlına, zəkasına söykənə-söykənə gəlib bu günə-Azərbaycan elmi ictimaiyyətində çox mötəbər bir mövqeyə çatan, çox ləyaqətlə, vüqarla addımlayan, ömrü boyu halallıqla, halal zəhmətlə, halal mənəviyyatla yaşayan mənim alim qardaşım Mədəd müəllimi anadan olmasının 60 illiyi münasibətilə bağrıma basıb öpür və onu ürəkdən təbrik edirəm...

Bu zəhmətkeş alimimizi 70 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona uzun ömür, möhkəm can-sağlığı, yeni-yeni uğurlar arzulayıram! Sağ ol!

*"Şərqin səsi" qəzeti, № 04 (200), mart 2007.*

**Azərbaycan İctimai Televiziya və Radio Yayımları Şirkətinin Baş direktoru İsmayıl Ömərov.**

## ƏMƏKSEVƏR ALIM - XOŞBƏXT ATA

Mən Mədəd Çobanovu çox sevirəm. Çünki, elinin, obasının, Borçalısının çox gözəl müəllimi olmuşdur. O, təkcə Darvazlıların de yil, Borçalının deyil, bütün Azərbaycan türklərinin fəxridir. Ona görə fəxri deyirəm ki, Mədəd müəllim Borçalının tarixi haqda, etnoqrafiyası haqda gözəl əsərlər yazıb.

Mənə elə gəlir ki, insanın ən böyük zənginliyi ondadır ki, o, tərbiyəli, savadlı, mədəni bir övlad yetişdirsin. Mən cəsarətlə deyə bilərəm ki, Müşfiq kimi bir oğul-ziyalı yetişdirib ictimaiyyətə bəxş etməyin özü bir fəxrdir. Açığını deyim ki, mən onunla fəxr edir, qurur duyuram ki, xalqımızın belə bir ziyalı oğlu var.

Bir həqiqəti də qeyd edim ki, Borçalı haqqında, Borçalının tarixi keçmişi, dünəni və bu günü haqqında, onun qədim və zəngin mədəniyyəti, ədəbiyyatı və aşıq sənəti, adət-ənənələri, yer-yurd adları haqqında, bu ata-oğul qədər zəhmət çəkən, əmək

sərf eliyən ikinci bir adam yoxdur.

Müşfiq də atası Mədəd müəllim kimi işi ilə məşğul olan alamdır. Onun çörəyi əməyindən, zəhmətindən, qələmindən çıxır. Xasiyyətcə o qədər mehriban və mülayimdir ki, onunla tanış olan hər bir kəs bircə dəfə Müşfiqlə təmasda olursa onunla dostluğu davam etdirməyə çalışar. Öz mədəni davranışı, biliyi və savadlılığı ilə hamının hörmətini qazanmış Müşfiq Borçalı ilə fəxr etməyə dəyər.

Eşitdim ki, Mədəd Çobanovun 70 illik yubileyi ilə əlaqədar kitab yazılır, çox sevindim.

Azərbaycan ədəbi ictimaiyyəti, elm adamları, adlı-sanlı jurnalistləri ilə bərabər mən də Mədəd müəllimin yubileyini təbrik edir, onun özünə və ailəsinə gözaydınlığı verirəm. Hörmətli professora uzun ömür, cansağlığı arzu edirəm.

**Azərbaycan MEA Nəsimi adınaDilçilik İnstitutu TerminologiyaKomissiyasının sədr müavini, filologiya elmləri doktoru S.A.Sadıqova**

## AZƏRBAYCAN DİLÇILIYİNDƏ ANTROPONİMIYA PROBLEMLƏRİNIN TƏDQİQİ

Azərbaycan filologiyasının elmi əsaslarla araşdırılması XIX əsrdən başlasa da, bu elmin dinamik inkişafı XX əsrdə daha da sürətlənməyə başladı. Dilçiliyin son 50 ildəki inkişafının mühüm nailiyyətlərindən biri yeni bir dilçilik sahəsinin - onomastikasının yaranması və formalaşmasıdır. Azərbaycan dilçiliyində ilk dəfə olaraq, onomastika məsələlərinin sistemli şəkildə həlli tədqiqi prof. Afat Qurbanovun, antroponimiyanın tədqiqi isə professor Mədəd Çobanovun adı ilə bağlıdır...

Ümumi dilçiliyin müasir mərhələsində antroponimiyanın kompleks halında bir sıra problemlərinin həllində, tədqiqində, araşdırılmasında və tədrisində tanınmış alim, filologiya elmləri doktoru, professor Mədəd Çobanovun daha böyük xidmət olmuş-

dur.

Antroponimlər etnik və milli işarə olub, onu yaradan və yaşadan xalqın tarixi ünvanını özündə qoruyub saxlayan dil və mədəniyyət faktlarıdır. Bu cəhətdən də, Azərbaycan antroponimyasının əsas problemlərinin tədqiqi ümumi dilçilik, dil tarixi üçün zəngin faktlar verir. Çünki antroponimlərin xalqımızın tarixən inkişaf etmiş ictimai, iqtisadi və mədəni həyat tərzi ilə bağlı olaraq onun tarixi keçmişini, dil xüsusiyyətlərini, etnoqrafiyasını özündə yaşadır. M.Çobanov yazır: "Hər bir antroponim onu yaradan xalqın milli təfəkkürü, dünyagörüşü, mənəvi zövqü, tarixi və mədəni inkişaf səviyyəsilə yaxından bağlıdır. Belə demək mümkündürsə, elə xalqın mədəniyyətinin ilk rüşeymləri də özünü xüsusi adlarda büruzə verir. Bu mənada, hər bir onomastik vahid kimi, antroponimik vahidlər də xalqımızın qədim mənəvi səviyyəsini göstərən ilk ictimai nişanədir: xalq yaradıcılığının məhsulu və canlı tarixi əsəridir".

Professor Mədəd Çobanovun keçdiyi həyat yolu adi insan hüdudlarına sığsa da, bu yolla addımlayan alimin öz daxili dünyasından ayrılan cığırların hər biri işıqlı amallara doğru can atır, elmin üfüqlərində birləşərək kamil, müdrik bir müəllim şəxsiyyətinin rəmzinə çevrilir. Ümumi dilçiliyin və Azərbaycan dilinin aktual problemlərinə həsr olunmuş, dərin məzmunlu monoqrafiya, dərslik və elmi məqalələri ilə filologiyamızı zənginləşdirən professor Mədəd Çobanovun 70 illik şərəfli ömür yolunu təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Bakı Dövlət Universiteti Beynəlxalq jurnalistika kafedrasının müdiri, Gürcüstan Respublikasının əməkdar jurnalisti, dosent Həmid Vəliyev**

## MÜBARİZ ALİM

Bəli, haqqında söhbət açacağım alimi istedadı ilə yanaşı, həm də mübariz alim kimi səciyyələndirmək olar. Doğrudan da, onun

bütün məsələlərdə mübarizliyi, əqidəsini axıradək müdafiə etməsi, bu yolla müzakirələrdə qalib gəlməsi onun təbiətinin başlıca əlamətlərindən biridir.

Bəli, Mədəd müəllim barəsində yazı hazırlayarkən ən əvvəl onun mübarizliyindən, inandığı şeyi müdafiə etməyi bacarmaq imkanlarından danışmağı qərara aldım. Mübarizliyini çox görmüşdüm. Hələ Gürcüstanda Tbilisi Dövlət Pedaqoji İnstitutunda işləyərkən "Sovet Gürcüstanı" qəzetinin redaksiyasına tez-tez gələr, materiallar gətirər, çap etdirərdi. Həmişə də təkidliyi ilə seçilərdi. O elə müəlliflərdən deyildi ki, birtəhər başdan eləyəsən. Materialının çap olunmamasının səbəbini lazımı səviyyədə sübut etməsən, əl çəkən deyildi.

Onun mübarizliyi ədalətdən yoğrulmuş əlamətdir, ədalətsizliyə meydan oxuyan cəhətdir.

Onun Tbilisi şəhərində işlədiyi dövrdə mübarizlik nümunəsi göstərdiyini əks etdirən faktlar çoxdur. Yeri gəlmişkən deyim ki, mübarizliklə tələbkarlığın çulğalaşması onun nüfuzunun artması ilə nəticələnirdi.

**Filologiya elmləri namizədi Ç.Hüseynzadə:**

"...dissertant zəngin və rəngarəng xüsusiyyətlərə malik olan antioponimlərimizi toplamaq, onu müasir onomastik baxımdan təhlil etmək üçün çox əmək sərf etmişdir. Əsərin müsbəl cəhəti ondadır ki, müəllif antroponimləri yalnız nəzəri və təcrübi cəhətdən şərh etməklə kifayətlənməmiş, eyni zamanda antroponimlərin inkişaf tarixinə, statistikasına dərindən nəzər salmış, əsərin təcrübi cəhətdən istifadəsini əsaslandırmaq məqsədilə çoxlu sxemlər və cədvəllər vermişdir. Ümumiyyətlə, mövzu aktualdır. Müəllif mövzunu cəmiyyətin inkişaf tarixilə əlaqələndirir, dialektik qanunauyğunluqları nəzərdə tutmaqla, antroponimlərin xalqımızın tarixən formalaşmış adət-ənənələri, dünyagörüşü, inamı və dini baxışları, sosial həyat tərzi və s. yaxından bağlı bir lay kimi təşəkkül tapdığını zəngin nümunələrlə əsaslandırmışdır. Tədqiqatda tarixi etnoqrafik aspekt güclüdür, aparıcıdır. Əsərdə həm Azərbaycan, həm də başqa dillərin mənbələrinə ardıcıl şəkildə müraci-

ət olunur, yeri gəldikcə ayrı-ayrı tədqiqatçıların mülahizələrinə müdaxilə edilir. Onlara müəllif münasibəti bildirilir. Bu da əsərin ən yaxşı məziyyətıdir". */M.Çobanovun doktorluq dissertasiyasının kafedradakı müzakirəsindən/.*

**Filologiya elmləri namizədi, dosent A.Aslanov:**

"Antroponimiya yalnız dilçiliyin yox, eyni zamanda tarix, coğrafiya, etnoqrafiya və s. yaxından bağlı olan tədqiqat sahəsinə aiddir. Çünki hər bir antroponim mikrokitabə kimi xalqımızın, dilimizin və mədəniyyətimizin gizlin bir səhifəsini özündə qoruyub saxlayır. Bu gizlin səhifələrin müasir elmi baxımdan açıqlanmasında M.Çobanovun tədqiqatı təqdirə layiqdir... əsər dilimizin tarixi onomastikasının bir sıra məsələlərinin həllində qiymətli və dəyərlı faktlar verir. Müəllif qarşısına qoyduğu əsas məqsədinə nail olmuş, ilk dəfə dilçiliyimizdə antroponimiya sahəsində sanballı əsər yazmışdır." *M.Çobanovun doktorluq dissertasiyasının kafedradakı müzakirəsindən).*

**Filologiya elmləri doktoru, prof. Yusif Seyidov:**

**"M.Çobanovu,** prof. A.Qurbanovdan sonra antroponimiya sahəsində ikinci mütəxəssis hesab etmək olar. Əsər böyük zəhmətin bəhrəsidir. Bu əsərinə görə onun müəllifi Mədəd Çobanova filologiya elmləri doktoru dərəcəsini vermək olar, tamamilə **layiqdir"** ***(Xüsusiləşdirilmiş Şuranın iclasındakı çıxışından).***

**Filologiya elmləri doktoru, prof. Ə.Abdullayev:**

"Əvvəla, onu deyim ki, Mədəd Çobanov bu işin üzərində çoxdan çalışır. Kitablarından göründüyü kimi, o çoxdandır bu işlə məşğuldur. Elmi konfranslarda antroponimiyanın müxtəlif problemlərinə dair məruzələrlə çıxış edir, özünün müstəqil mülahizələrini söyləyir, yeri gəldikcə ayrı-ayrı alimləriə mübahisəyə girişir... Onun kiabları mütəxəssislər tərəfindən layiqincə qiymətləndirilib. Bunu opponentləri də qeyd etdilər. O, Tbilisidə S.S.Orbeliani adına Pedaqoji İnstitutda "Azərbaycan antroponimıyasının əsasları" adlı "Xüsusi kurs" yaradıb, onun proqramını, dərs vəsaitini çap etdirib. Əlbəttə, bir alimin belə bir kurs yaratması böyük zəhmətidir". (***Xüsusiləşdirilmiş Şuranın iclasındakı çıxışından/.***

**Filologiya elmləri doktoru, şair-tərcüməçi Əflatun Saraclı (Məmmədov):**

"...Tiflisdə Pedaqoji İnstitutun tarix-filologiya fakültəsində bərabər oxumuşuq. O, hələ tələbə ikən elmi axtarışa böyük marağı vardı. Elmi konfranslarda, simpoziumlarda məruzələrlə çıxış edirdi. Bu günkü müdafiənin himi, demək olar ki, hələ o vaxtdan qoyulmuşdıı. 1989-cu ildə Borçalıda olan o ağır olaylar yəqin ki, yadınızdadır. O ağır günləri çiyinlərində aparanlardan biri də Mədəd Namaz oğluydu. Onun bütün ağrısı Mədəd müəllimin maqalələrində, Gürcüstanın rəhbər işçiləri ilə toqquşmasındaydı. Onun ağrı-acısını sonralar özü çəkməli oldu. Bugünkü Şurada çox ətraflı çıxışlar oldu. Yoldaşlar hər şeyi ölçülü-biçimli şərh etdilər. Elə bir gərgin şəraitdə, elə bir qərib diyarda yaşayasan, elə bir mühitdə həm müəllim işləyəsən, həm də dissertasiya yazasan; həm hadisələrin içərisində iştirak edəsən, bu bizə asan gəlir... Əsərin mahiyyəti və elmi əhəmiyyəti haqqında rəsmi opponentlər, Şura üzvləri və digər yoldaşlar ətraflı danışdılar, əsərin layiqli qiymətini söylədilər. Müəllif elmlər doktoru alimlik dərəcəsi almağa layiqdir" *(Xüsusiləşdirilmiş Şuranın iclasındakı çıxışından)*.

**Filologiya elmləri doktoru, prof. T.Əhmədov:**

"M.N.Çobanovun "Azərbaycan antroponimiyasının əsasları" adlı doktorluq dissertasiyası dilçiliyimizin ən gənc sahəsi olan "Onomastika"nın ən qədim və ən geniş yayılmış bir şöbəsi -"Antroponimiya"ya həsr olunmuşdur, Bu əsərdə ilk dəfə olaraq Azərbaycan antroponimiYasının nəzəri və təcrübi əsasları sistematik şəkildə təhlil edilmişdir. Mən, müəllifin həm dissertasiyası, həm də çap olunmuş kitabları və məqalələri ilə tanışam.

Həmin əsərlərlə tanışlıq göstərir ki, müəllif qarşısına qoyduğu problemi istər nəzəri, istərsə də təcrübi cəhətdən təhlil etmək imkanına malikdir. Bunu müzakirəyə təqdim olunan dissertasiya təsdiq edir" *(Doktorluq dissertasiyasına yazılmış rəydən).*

**Filologiya elmləri doktoru, professor Həsən Mirzəyev:**

"Müəllif yeri gəldikcə ayrı-ayrı probleınlərin təhlili ilə bağlı olaraq öz nəzəri və təcrübi mülahizələrini söyləmiş, müxtəlif tədqiqatçılarla mübahisəyə də girmişdir. Bu da əsərin elmi məziyyətini qat-qat artırır... Əsər, həmçinin, nəzəri və təcrübi cəhətdən də dilçiliyimizdə yeni istiqamətli tədqiqat kimi qiymətlidir:" *(Doktorluq dissertasiyasına yazılmış rəydən).*

**Azərbaycan Respublikası Prezident Aparatının rəhbəri, Professor Ramiz Mehdiyev:**

"Bakı Ali Hərbi Dənizçilik Məktəbinin kafedra müdiri M.Çobanovun fikrincə, ATƏT-in vasitəçilik missiyasından imtina olunmalıdır. Ermənistan BMT-nin qətnamələri və ATƏT-in Lissabon samitinin bəyannaməsi ilə razılaşmırsa, Azərbaycan Dağlıq Qarabağ məsələsinin həll edilməsinə heç bir beynəlxalq təşkilatın müdaxiləsinə yol verməməlidir". *("Azərbaycan"qəzeti (N-75 (2788), 5 aprel 2001-ci il) "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ictimai rəy konteksində" adlı məqaləsindən),*

**Filologiya elmləri namizədi F.Qurbanova:**

"M.Çobanov 1992-ci ildə "Azərbaycan antroponimiyasının əsasları" adlı doktorluq dissertasiyasının müdafiə etmişdir. Müəllif həmin dissertasiyanın nəticələrini "Azərbaycan şəxs adları" (1981), "Azərbaycan antroponimiyasının əsasları" (1983), "Familiya.Təxəllüs" (1987), "Основы азербайджанской антрононимики" (1995) adlı ktablarında verməyə nail olmuşdur. O, bu əsərlərində Azərbaycan antroponımlərinin adqoyma ənənələri, familiya, təxəllüs və ləqəblər haqqında ətraflı məlumat vermişdir". "Azərbaycan antroponomiyasına dair monoqrafiyalardan... M.Çobanovun yuxarıda adlarını çəkdiyimiz kitabları... və s. dilçiliyimizin onomastika şöbəsinin inkişafında müəyyən rol oynamışdır". "Əsrimizin II yarısında dilimizin lügət tərkibində ən fəal işləklik dərəcəsinə malik olan antroponimlərin tədqiqi sahəsində bir çox tanınmış dilçi-alimlər yetişmişdir. Bunlardan A.Qurbanov, M.Adilov, M.Çobanov... və başqalarını göstərmək olar".

**Filologiya elmləri doktoru, proffessor Nəbi Əsgərov:**

"Uzun illərdir ki, onomastika ilə məşğul olan tədqiqatçılarımızdan M.Çobanov "Abdal" etnoniminin semantikasını "ovu qoruyan, ona arxa olan", "ov tanrısı" kimi izah edir. Müəllif eyni zamanda bu ad haqqında danışarkən Azərbaycan klassik şairlərindən Nəsimi və Şah İsmayıl Xətainin abdal tayfasından olduğunu söyləyir".

"Prof. M.Çobanovun Ümumtürkologiya sahəsinə dair bir neçə kitabları və onlarla məqalələri də geniş elmi ictimaiyyətə təqdim olunmuşdur. O, Türk Dili Qurumunun IV və VI Qurultaylarında (2000, 2008) və Türk Ocaqlarının Trabzon və Çevrəsi Uluslararası Simpoziumunda (2005) və digər Elmi konfranslarda maraqlı məruzələrlə çıxış etmişdir. Müəllifin "Türk ədəbi dillərinin birliyinə doğru" (2000, 2008) monoqrafiyası haqqında Türkiyə alimləri geniş rəylər çap etdirmiş və əsərdə gündəmə gətirilən problemlərin həyata keçirilməsi barədə mülahizələr irəli sürmüşlər.

Professor M.Çobanov "Türk ədəbi dillərinin birliyinə doğru" (II, 2012) kitabında Türklüyün yenidən oyanışı, Şumer və Türk dillərinin tarixilik, linqvistik, mədəniyyət və mənəviyyat baxımdan bir-birinə yaxınlığını nəzərə alaraq, "Şumer-Altay Türk dilləri" ailəsi fikrini irəli sürmüş və "Şumer Altay Türk dilləri ailəsi" dillərinin ilk yeni təsnifini vermişdir..."

**Aparıcı müəssənin rəyindən:**

"Hər hansı bir dilin hərtərəfli tədqiqində, xalqın tarixinin, mədəniyyətinin və ədəbi dilinin tarixinin öyrənilməsində onomastik layların da araşdırılması böyük elmi-nəzəri və təcrübi əhəmiyyət kəsb edir. Bu baxımdan rəyə təqdim olunmuş bu əsər dilçiliyin ən aktual, ən yeni və ən az öyrənilmiş sahəsinə həsr edilmişdir. İndi yeni elmi təfəkkür dövrü, yeni elmi axtarışlar aspekti yaranmışdır. Bu da, şübhəsiz ki, xalqın öz keçmiş soy kökünə və dilinin tarixinə qayıtmaq, onun ümumi türkoloji arealına çıxmaq kimi çox vacib problemlərlə müşaiyət olunur. Onomastikanın bəzi sahələri ayrı-ayrı türkdillərinin materialları əsasında tədqiq olunsa da, onun geniş yayılmış şöbəsi olan antro-

ponimiyanın bütün sahələri istər türkologiyada, istərsə də Azərbaycan dilçiliyində elmin müasir səviyyəsi baxımından sistematik şəkildə hərtərəfli öyrənilməmişdir. Dilçiliyimizdəki bu boşluğu doldurmaq baxımından M.N.Çobanovun "Azərbaycan antroponimiyasının əsasları" mövzusunda yazdığı doktorluq işi müstəsna əhəmiyyətə malikdir...

Xüsusi adların tədqiqinə həsr edilmiş onomastik araşdırmalar nəinki dillərin müasir vəziyyətini, hətta, dillərin yazıya qədərki dövrünün öyrənilməsində əvəzsiz rol oynayır... Bu nöqte-yi-nəzərdən də rəyə təqdim olunmuş əsərin elmi məziyyətləri təqdirəlayiqdir.

Azərbaycan xalqının tarixini dərindən və hərtərəfli öyrənmək üçün onların müxtəlif türkdilli tayfalarla etnogenetik və tarixi-mədəni əlaqələrini nəzərə almalı, dilimizin bir çox etimoloji məsələlərini türk dillərinin materiallarını cəlb etməklə tarixi-müqayisəli metodla həll etmək lazımdır. Türkdilli xalqların qarşılıqlı əlaqələri onların antroponimlərində (adət-ənənəsində) də öz geniş əksini tapır ki, bunu da yalnız geniş onomastik, xüsusilə antroponimik tədqiqatlar nəticəsində dəqiqləşdirmək mümkündür. M.N.Çobanovun doktorluq dissertasiyası məhz bu baxımdan da əhəmiyyətlidir.

Doktorluq dissertasiyası kimi tədqiq olunan bu mövzu onomastikanın ən qədim və ən geniş bir sahəsi olan antroponimiyanın ümumiləşdirilmiş təhlilinə həsr edilmişdir. Əlbəttə, bu heç də təsadüfi deyil. Çünki son vaxtlara qədər dilçiliyimizdə antroponimiyanın tədqiqinə dair ümumiləşdirici araşdırmalar aparılmamışdır. Bu da antroponimikamızda bir boşluq kimi özünü göstərirdi. Dilçiliyimizdəki bu boşluğu doldurmaq baxımından müzakirə olunan dissertasiya müstəsna əhəmiyyətə malikdir...

Əsərdə antroponimlər tarixi-tipoloji, tarixi-müqayisəli və təsviri istiqamətdə tədqiq olunmuşdur. Bu da, şübhəsiz ki, bir sıra çətinliklərlə başa gəlmişdir... Dissertasiyanın qiymətli cəhətlərindən biri də ondan ibarətdir ki, antroponimlərin inkişaf tarixi ardıcıl olaraq izlənmişdir. Bu da belə bir nəticəyə gəlməyə imkan verir

ki, antroponimlər dilimizin tarixinin müəyyənləşdirilməsində ən mötəbər mənbə kimi aparıcı rola malikdir. Əsərdə aparılan bu istiqamətli tədqiqatlar nəinki dilimizin, hətta, xalqımızın tarixinin gizlin qalan bir sıra problemlərinin açılmasına kömək edər. Dissertasiyanın ümumi məzmunundan aydın olur ki, antroponimlər tarixin müəyyən dövrlərində müxtəlif bölgələrdə təşəkkül tapmış, sonradan isə xalqımızın arasında geniş yayılaraq ümumişlək xarakteri almışdır.. Dissertasiyanın ən gözəl məziyyətlərindən biri də ondadır ki, tədqiqatda ilk dəfə antroponimlər müxtəlif cəhətdən təsnif edilmiş və hər bir təsnif zəngin antroponimik faktlarla sübut edilmişdir...

Dissertasiya ilə dərindən tanışlığa əsasən, demək olar ki, onomastik leksikanın, xüsusilə antroponimlərin hərtərəfli tədqiqi, tarixi-tipoloji və təsviri təhlili və onların elmi şəkildə ümumiləşdirilməsi xalqımızın və dilimizin tarixinin bir sıra öyrənilməmiş səhifələrinin açılmasında böyük əhəmiyyət kəsb edir. Dissertasiyanın ümumi məzmunu və quruluşu bir daha aydın şəkildə göstərir ki, əsər nəzəri və praktiki cəhətdən də dilçiliyimizdə yeni istiqamətli tədqiqat kimi qiymətlidir.

Əsərin dili və üslubu sadə, təbii və oxunaqlıdır. Əsərdə qəliz, başa düşülməyən termin və istilahlara yer verilməmişdir. Hər bir elmi mülahizə, demək olar ki, dilimizin daxili imkanları vasitəsilə ətraflı şərh olunmuş və zəngin faktlarla sübuta yetirilmişdir. Bu da işin elmi məziyyətini qat-qat artırır... Çıxış edənlərin hamısı əsərin yüksək elmi məziyyətlərindən danışmış, onun antroponimiyamızda ilk fundamental əsər olduğunu söyləmiş, Azərbaycan dilçiliyində və eləcə də türkologiyada yeni elmi nailiyyət hesab etmiş və onun bütövlükdə çap olunmasını məsləhət bilmişlər..." *(Azərbaycan EA Nəsimi adına Dilçilik institutunun Tətbiqi dilçilik və Onomastika şöbəsinin M.N.Çobanovun "Azərbaycan antroponimiyasının əsasları" adlı doktorluq dissertasiyasına aparıcı müəssisənin Rəyindən, protokol № 2, 11.II.1992.)*

**Professor İbrahim Bayramov:** «Müasir dünyada cərəyan

edən ictimai-siyasi hadisələr - xalqların bir-birilə «inteqrasiyası və ya qloballaşması» fonunda professor M.Çobanovun «Türk ədəbi dillərinin birliyinə doğru» (I. 2008; 11,2012) problemlərinin araşdırılması özünün müasirliyi və aktuallığı ilə yeni mahiyyət və yeni məzmun kəsb edir... Bu da, ilk növbədə, «Türk dilləri ailəsi»nin təşəkkülünə yeni-müasir araşdırmaların yekun nəticəsi kimi yanaşmağı tələb edirdi. Məhz professor M.Çobanov «Türk ədəbi dillərinin birliyinə doğru» əsərinin II hissəsində Şumer-Türk dillərinin tarixi, dil, mədəniyyət və mənəviyyat yaxınlığını nəzərə alaraq, «Şumer - Altay Türk dilləri ailəsi»nin yeni təsnifini vermişdir...»

**Professor Buludxan Xəlilov:** «Müasir Türkologiyanın ən mühüm və ən aktual problemlərindən birini Türk dillərinin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi təşkil edir. Lakin son illərə qədər bu sahədə bir boşluq hiss olunurdu. Professor M.Çobanov Türkologiyadakı bu boşluğu nəzərə alaraq, XX əsrin sonlarında «Türk ədəbi dillərinin birliyinə doğru» mövzusunda geniş miqyaslı araşdırmalara başlamış və bu sahədə yeni uğurlar əldə etmişdir. O, bu mövzu ilə Türk Dil Qurumunun IV və VI Qurultaylarında (2000,2008) və Trabzon və Çeyrəsi Uluslararası «Tarix, Dil və Ədəbiyyat Simpoziumun»da (2001) məruzələrlə çıxış etmiş, həmin araşdırmalar əsasında «Türk ədəbi dillərinin birliyinə doğru» iki cildlik (2008, 2012) kitab çap etdirmişdir həmin əsər elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır».

**Filologiya elmləri doktoru**
**Bahar Cəfərova**

## Dəyərli alim, kamil ziyalı və böyük müəllim

Bu adların işığı günəş qədər nurlu, bu adların sehiri torpaq qədər güclüdür.

Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır.

Mən bu sətirləri yazarkən Mədəd müəllimi hörmətlə, minnət-

darlıqla xatırlayıram. İlk dəfə Mədəd müəllim, hər şeydən əvvəl, yaradıcı insandır. O, neçə-neçə kitabın, elmi məqalələrin müəllifidir. Bununla yanaşı, dil tədrisinə verilən müasir tələbləri müəyyənləşdirmiş, təkmilləşdirmiş, öz fikir və mülahizələri ilə zənginləşdirmişdir. O, dil müəllimlərinə elmi-metodik cəhətdən əməli köməklik göstərir.

Bəli, Mədəd müəllim öz işinə, sənətinə hörməti ilə böyük nüfuz sahibi olub.

Dəyərli alim, kamil ziyalı və böyük müəllim olan, 70 illik yubileyinə hazırlaşan bu xeyirxah insanı - hörmətli Mədəd müəllimi öz adımdan, müəllim ordusu adından təbrik edirəm, ona uzun ömür, can sağlığı və gələcək yaradıcılığında yeni-yeni nailiyyətlər arzulayıram.

**Azərbaycan Ali Hərbi Dənizçilik**
**Məktəbinin rəisi, I dərəcəli kapitan,**
**tarix elmləri doktoru, dosent N.A.Əliyev**:

“Filologiya elmləri doktoru, Nyu-York Elmlər Akademiyasının üzvü, professor Mədəd Çobanov haqqında, söz demək, o qədər də asan deyil. Çünki professor Mədəd Çobanov Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində işlədiyi müddətdə özünü həm nümunəvi vətəndaş, həm elm-təhsil işçisi, həm geniş erudisiyalı və diapozonlu alim-ziyalı, həm də yorulmaz və usanmaz elm araşdırıcısı kimi göstərmişdir. Onun xarakterində ümumi insani keyfiyyətlər, yüksək mənəviyyat, Vətənə, elə-obaya, xalqımızın tarixi keçmişinə və müasir durumuna vurğunluq, hər bir sözünün arxasında gizlənən dəqiqlik, inamlılıq və əqidəlik, sözübütövlük, xeyirxahlıq kimi insani keyfiyyətlər birləşmişdir. Bu da, heç şübhəsiz ki, professor M.Çobanovun istər həmkarları - alimlər və ziyalılar, istər məktəbimizin kollektivi - zabitlər arasında böyük nüfuz qazanmasına və hər yerdə hörmətlə qarşılanmasına səbəb olmuşdur.

**Filologiya elmləri doktoru**
**professor Əzizxan Tanrıverdi**

**“Mədəd Çobanov və onomalogiya məsələləri”:**

Azərbaycan elm və mədəniyyəti tarixində bir neçə sahə üzrə çalışan və onların hər birində uğurlar qazanan görkəmli şəxsiyyətlər çox olub. Müasir dövrdə də ensiklopedik bilik sahibi olan, fəaliyyət dairəsi zənginliyi ilə fərqlənən şəxsiyyətlərimiz az deyil. Belə simalardan biri də alim, müəllim, publisist və tərcüməçi kimi ən azı türk dünyası və MDB məkanında tanınan, əsərləri Azərbaycan, türk, özbək, qazax, qırğız, rus, gürcü, erməni və digər dillərdə çap olunan professor Mədəd Çobanovdur. O hansı sahədə çalışmasından və yazmasından asılı olmayaraq, türk böyüklüyünü, türk qüdrətini, onun zəngin olan dili, tarixi və etnoqrafiyasını həmişə diqqət mərkəzində saxlayıb”.

**Filologiya elmləri doktoru**
**Bədirxan Əhmədov**

**Borçalının fəxrinə çevrilmiş şəxsiyyət**

Mədəd müəllim sözün həqiqi mənasında xoşbəxt kişidir. Məndən əvvəlkilər də qeyd etdi, mən də deyirəm: Mədəd Çobanov təkcə öz nəslinin, Darvazın oğlu olaraq qalmır. Öz əməksevərliyi, sadəliyi və iradəsi ilə o, bir elin, bir mahalın, Borçalının fəxrinə çevrilmiş şəxsiyyətdir.

Çünki, tərbiyəli, gözəl ailəsi var, uşaqlarının hamısı oxumuş, ali təhsilli, müasir dövrlə ayaqlaşmağı bacaran adamlardır.

Mədəd Çobanov bütün Türk dünyasında tanınan, fəxr edilə bilən bir şəxsiyyətdir. Özünün gözəl kitabları, elmi əsərləri ilə təkcə Azərbaycanda deyil, bütün qonşu ölkələrdə tanınan professor onlarla elmi əsərin müəllifidir. Yuxarıda qeyd etdim ki, Mədəd Çobanov yaxşı alim olmaqla bərabər həm də yaxşı atadır, valideyndir. Özü bərabəri, özü qədər əməyə və Borçalıya bağlı olan oğlu Müşfiq kimi ziyalı bir naşir yetişdiribdir.

Bütün Türk dünyasında adı fəxrlə çəkilən professor Mədəd Çobanovun 70 illik yubileyini təbrik edir, ona elmdə və həyatda uğurlar arzu edirəm".

**Azərbaycan MEA Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi, filologiya elmləri namizədi Sefi Behbudov:** "Prof. M.Çobanov öz gərgin əməyi və müstəqil mütaliəsi ilə adi kənd müəllimliyindən elmin zirvələrinə yüksəlib və elmin dərin dəryalarına boylanaraq, oradan yeni-yeni incilər – Elm inciləri üzə çıxarmışdır: Bax: "Borçalı şivələrinin leksikası", "Azərbaycan antroponimiyasının əsasları", "Türk ədəbi dillərinin birliyinə doğru", "Azərbaycan-gürcü ədəbi əlaqələri", "Ədəbi düşüncələr"...və s.

# XALQLAR DOSTLUĞUNUN CARÇISI



Əslən Gürcüstan Respublikasının Borçalı mahalından olan Mədəd müəllim çoxillik elmi-pedaqoji fəaliyyətilə yanaşı, Gürcüstan-Azərbaycan ədəbi əlaqələrinin öyrənilməsinə də geniş yer ayırmışdır. Hələ Gürcüstanda işlədiyi illərdə iki xalq arasında zəngin tarixə malik ədəbi münasibətlərin inkişafı üçün əlindən gələni əsirgəməyib. Bu baxımdan alimin "Azərbaycan-gürcü ədəbi əlaqələri" kitabına ön söz yazmış Azərbaycan və Gürcüstan Yazıçılar Birliklərinin üzvü Əli Abbasın fikirləri diqqətəlayiqdir:

"Professor Mədəd Çobanov Tbilisidə elmi-pedaqoji fəaliyyətə başlayarkən Tbilisi şəhərində azərbaycanlıların mədəni mərkəzini yenidən dirçəltmək məqsədilə geniş sahəli elmi-pedaqoji və ictimai işlərlə məşğul olur. O, Tbilisi şəhərində fəaliyyət göstərdiyi dövrdə gürcü ziyalıları və elmi ictimaiyyətilə yaxından əlaqələr saxlayır, tez-tez müxtəlif mövzularda müzakirələr aparırdı. Bir sözlə, professor Mədəd Çobanov Tbilisi şəhərində fəaliyyət göstərdiyi dövrdə xalqlar dostluğunun carçısı kimi fəaliyyət göstərirdi".

Müəllifin məqalələrinə yer ayırmış mətbuat orqanlarının sayı kifayət qədər çoxdur və qonşu ölkələrin ən sanballı, nüfuzlu qəzet və jurnalları azərbaycanlı elm adamının dostluğa xidmət edən xoşməramlı fəaliyyətinə ayna tutmuşdur. Alimin yazıları Azərbaycanda sovet dövrünün qabaqcıl "Azərbaycan", "Ədəbiyyat və İncəsənət", "Respublika", "Azərbaycan müəllimi", Gürcüstanda "Saxalxo qanatleva", "Soplis sxovreva", "Tbilisi", "Kartuli Ena da Literatura Skolasi", rus dilində işıq üzü görən "Veçerniy Tbilisi", "Molodyoj Qruzii", Azərbaycan dilində nəşr olunan “Şərqin Şəfəqi”, "Sovet Gürcüstanı", "Gürcüstan", "Qələbə Bayrağı" qəzet və jurnallarında, həmçinin, S.Orbeliani adına

Tbilisi Dövlət Pedaqoji İnstitutunun "Elmi əsərlər"i məcmuəsində dərc edilmişdir.

Həmin məqalələrin mövzu rəngarəngliyi, məzmun dərinliyi, əhatə dairəsi və ədəbi-ictimai əhəmiyyəti baxımından da maraq kəsb edir. "Azərbaycan şairləri və Gürcüstan", "Kür Xəzərə qovuşur", "Dostluq könüldən-könülə körpüdür","M.P.Vaqif və Gürcüstan", "Bakıxanov və Tiflis mühiti", "Azərbaycan şairləri Gürcüstan haqqında", "İldırımlı yollarla" baleti gürcü səhnəsində", "Koroğlu" dastanı gürcü dilində", "Füzuli gürcü ədəbiyyatşünaslığında", "Nikoloz Barataşvili Azərbaycan dilində", "Ulduzlar sönəndə", "Gürcü ədəbi dilində Azərbaycan leksikası", "Azərbaycandilli məktəblərdə gürcü dilinin tədrisinin aktual məsələləri", "Gürcü pyesi Azərbaycan səhnəsində", "Gürcü ədəbiyyatı nümunələri Azərbaycan dərsliklərində", "Gürcüstan Azərbaycan poeziyasında" və başqa ədəbi-elmi məqalələri alimin toxunduğu məsələlərin əhatə dairəsindən xəbər verir və onun çoxillik zəhməti, geniş araşdırmaları nəticəsində araya-ərsəyə gəlmişdir.

Mədəd müəllimin yaradıcılığında diqqətimi xüsusi çəkən bir məqam da Gürcüstanda azərbaycanlılara məxsus yer adlarının tədqiqi oldu. Soydaşlarımızın yüzilliklər boyu yaşadığı, böyük imperiyaların parçalanması və XX əsrdə baş vermiş mürəkkəb tarixi hadisələr nəticəsində sərhədlərimizdən kənarda qalmış Borçalı, Qarayazı, Qaraçop kimi mahalların toponimikası, zənnimcə, yetərincə öyrənilməyib, ancaq Mədəd müəllim bu sahədə araşdırma aparan ilk alimlərimizdəndir. Onun ötən əsrin 80-ci illərindən apardığı tədqiqat zəhmətlə yanaşı, həm də cəsarət tələb edirdi. "Gürcüstanda türkköklü qədim oykonimlər", "X-XVII əsrlər gürcü tarixi mənbələrində Azərbaycan-türk köklü toponimlər", "Borçalı toponimləri" kimi əsərlər tarixi və elmi-linqivistik baxımından dərin maraq doğurur.

Görkəmli dilçi alim, professor Mədəd Çobanov bu gün də elmi-pedaqoji fəaliyyətini davam etdirir, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində Silahlı Qüvvələrimiz üçün dənizçi zabit

kadrlarının yetişdirilməsinə, onların dilimizə və keçmişimizə hörmət ruhunda tərbiyə edilməsinə öz töhfəsini verir. Eyni zamanda Mədəd müəllim Azərbaycan və gürcü xalqları arasında mədəni əlaqələrin dərinləşməsinə yönəlmiş rəngarəng məqalələrilə kütləvi-informasiya vasitələrində çıxış etməkdə davam edir.

***Mayor Əbülfət Qasımov,***
*"Azərbaycan Ordusu" № 31 (1456),*
*30 may 2009-cu il.*

## "BİR OLSA YOLDAŞIN, DOSTUN ƏMƏLİ..."



Xalqlar arasında əməkdaşlıq və dostluğun inkişaf etdirilməsində və möhkəmləndirilməsində elm, təhsil və mədəniyyət xadimlərinin üzərinə böyük missiya düşür. Gürcüstan-Azərbaycan əlaqələrinə nəzər saldıqda iki xalq arasında tarixi qədim olan xoş qonşuluq münasibətlərinin bu gün də layiqincə davam etdirildiyinin şahidi oluruq. Ürəkaçan haldır ki, bu əlaqələrin daha da dərinləşməsi üçün Azərbaycan alim və ziyalıları öz layiqli töhfələrini verməyə çalışırlar. Belə ziyalılarımızdan biri də görkəmli türkoloq, tanınmış dilçi alim, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü, filologiya elmləri doktoru, professor Mədəd Çobanovdur.

Əslən Gürcüstannın Borçalı mahalından olan Mədəd müəllim çoxillik elmi-pedaqoji fəaliyyətilə yanaşı, Gürcüstan-Azərbaycan ədəbi əlaqələrinin öyrənilməsinə də geniş yer ayırmışdır. Hələ Gürcüstanda yaşadığı və işlədiyi illərdə iki xalq arasında zəngin

tarixə malik ədəbi münasibətlərin inkişafı üçün əlindən gələni əsirgəməyib. Bu baxımdan alimin "Azərbaycan-gürcü ədəbi əlaqələri" kitabına ön söz yazmış Azərbaycan və Gürcüstan Yazıçılar Birliklərinin üzvü Əli Abbasın fikirləri diqqətəlayiqdir: "Professor Mədəd Çobanov Tbilisidə elmi-pedaqoji fəaliyyətə başlayarkən Tbilisi şəhərində azərbaycanlıların mədəni mərkəzini yenidən dirçəltmək məqsədilə geniş sahəli elmi-pedaqoji və ictimai işlərlə məşğul olur. O, Tbilisi səhərində fəaliyyət göstərdiyi dövrdə gürcü ziyalıları və elmi ictimaiyyətilə yaxından əlaqələr saxlayır, tez-tez müxtəlif mövzularda müzakirələr aparırdı. Bir sözlə, professor Mədəd Çobanov Tbilisi şəhərində fəaliyyət göstərdiyi dövrdə xalqlar dostluğunun carçısı kimi fəaliyyət göstərirdi".

Həmin dövrdə zəhmətsevər alim Tbilisidə ümumtəhsil və ali məktəblərin filologiya fakültələri üçün tədris proqramları, dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar hazırlayıb çap etdirmişdir. Həmişə azərbaycanlılarla gürcülər arasında dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edən ədəbi əlaqələri araşdırma obyektinə çevirməklə, qonşu xalqlar arasında dostluğun təbliğatçısı olmuşdur.

Azərbaycan-Gürcüstan xalqları arasında mədəni əlaqələrin elə bir sahəsi olmayıb ki, professor Mədəd Çobanovun nəzərindən yayınsın. Alim ədəbi-tənqidi: məqalələrini Azərbaycan və Gürcüstan mətbuatında müxtəlif dillərdə dərc etdirməklə maraq doğuran ədəbi-mədəni hadisələri gürcü və azərbaycanlı ictimaiyyətin diqqətinə təqdim etmişdir.

Müəllifin məqalələrinə yer ayırmış mətbuat orqanlarının spektri kifayət qədər genişdir və qonşu ölkələrin ən sanballı, nüfuzlu qəzet və jurnalları azərbaycanlı elm adamının dostluğa xidmət edən xoşməramlı fəaliyyətinə ayna tutmuşdur. Alimin yazıları Azərbaycanda sovet dövrünün qabaqcıl "Azərbaycan", "Respublika", "Azərbaycan müəllimi", "Ədəbiyyat və İncəsənət"; Gürcüstanda "Saxalxo qanatleva", "Soplis sxovreva", "Tbilisi", ""Kartuli Enai da Literatura Skolaşı", rus dilində işıq

üzü görən "Veçerniy Tbilisi", "Molodyoj Qruzii", Azərbaycan dilində nəşr olunan “Şərqin Şəfəqi”, "Sovet Gürcüstanı" ("Gürcüstan"), "Qələbə Bayrağı", "Trialeti" adlı qəzet və jurnallarında, həmçinin, S.S.Orbeliani adına Tbilisi Dövlət Pedaqoji İnstitutunun **"Elmi Əsərlər"** məcmuəsində dərc edilmişdir.

İlk növbədə, xalqlar arasında dostluğun, mülayim insani münasibətlərin dərinləşməsində önəmli xidmət göstərmiş və bu gün də bu sahədə zəhmətini əsirgəməyəni Azərbaycan və gürcü xalqlarının ən layiqli övladlarının fəaliyyəti professor M.Çobanovun ədəbi-tənqidi və publisistik yaradıcılığında öz əksini tapmışdır. Həmin məqalələrin mövzu rəngarəngliyi, məzmun dərinliyi, əhatə dairəsi və ədəbi-ictimai əhəmiyyəti baxımından da maraq kəsb edir. "Azərbaycan şairləri və Gürcüstan", "Kür Xəzərə qovuşur". "Dostluq könüldən-könülə körpüdür",. “M.P.Vaqif və Gürcüstan", "A.Bakıxanov və Tiflis mühiti", "Azərbaycan şairləri Gürcüstan haqqında", "İldırımlı yollarla" baleti gürcü səhnəsində", "Koroğlu" dastanı gürcü dilində", "Füzuli gürcü ədəbiyyatşünaslığında", "Nikoloz Barataşvili Azərbaycan dilində", "Ulduzlar sönəndə", "Gürcü ədəbi dilində Azərbaycan leksikası", "Azərbaycandilli məktəblərdə gürcü dilinin tədrisinin aktual məsələləri", "Gürcü pyesi Azərbaycan səhnəsində", "Gürcü ədəbiyyatı nümunələri Azərbaycan dərsliklərində", "Gürcüstan Azərbaycan poeziyasında" və başqa ədəbi-elmi məqalələri alimin toxunduğu məsələlərin əhatə dairəsindən xəbər verir və onun çoxillik zəhməti, geniş araşdırmalaları nəticəsində araya-ərsəyə gəlmişdir.

Professor M.Çobanov "Azərbaycan-gürcü əlaqələrinin tarixi kökləri" mövzusunun araşdırılmasına hələ Tbilisidə sabiq A.S.Puşkin adına Dövlət Pedaqoji İnstitutunun Tarix-filologiya fakültəsinin Azərbaycan bölməsində təhsil aldığı illərdən (III kurs tələbəsi olduğu vaxtdan) başlamış və indi də bu sahədə fəaliyyətini davam etdirməkdədir. Bu sahədə onun "Sevirəm Gürcüstanı" (almanax, Azərbaycan şairləri Gürcüstan haqqında,

Bakı, 1977). "Dostluq nəğmələri" (almanax, Azərbaycan sovet sairləri Gürcüstan haqqında, (gürcü dilində, Tbilisi, 1978), "Azərbaycan-gürcü ədəbi əlaqələri" (Bakı, 2008), "Azərbaycan-gürcü əlaqələrinin tarixi kökləri" (Bakı, 2010), "Azərbaycanca-gürcücə qısa danışıq lüğəti" (həmmüəllif, Tbilisi, 1977,1991, Bakı, 2008) adlı kitabları işıqüzü görmüşdür. Mətbuat orqanlarında onun kitabları haqqında onlarla rəylər çap olunmuşdur. Hətta, "Sevirəm Gürcüstanı" kitabından "Azərbaycan sovet ensiklopediyası"nın VI cildində (Bakı, 1982, səh. 135) "Gürcüstan SSR" məqaləsində istifadə olunub...

Məşhur gürcü ədəbiyyatçısı və tərcüməçisi Leyla Eradzenin çevirməsində Azərbaycan şairlərinin Gürcüstana həsr etdiyi şeirlərindən Mədəd müəllimin tərtib etdiyi "Dostluq nəğmələri" kitabı barədə Sovet Gürcüstanı" qəzetində filologiya elmləri namizədi V.Cangidze və yazıçı-jurnalist Ə.İsmayıllının maraqlı resenziyası dərc edilmişdir. Müəlliflər kitab haqqında yazırlar: "Mədəd Çobanovun tərtib etdiyi bu kitabda müasir Azərbaycan şairlərinin Gürcüstan haqqında yazılmış əlliyə yaxın şeri toplanmışdır... Həmin şeirlərin ruhu gürcü poeziyasına yaxın olduğu üçün oxucu kütləsi tərəfindən səmimi qarşılanır... "Dostluq nəğmələri" kitabını Azərbaycan və Gürcüstan ədəbi əlaqələri sahəsində təqdirəlayiq hal hesab etmək lazımdır".

Mədəd müəllimin yaradıcılığında diqqətimi xüsusi çəkən bir məqam da onun Gürcüstanda azərbaycanlılara məxsus yer adlarının tədqiqidir. Soydaşlarımızın yüzilliklər boyu yaşadığı, böyük imperiyaların parçalanması və XX əsrdə baş vermiş mürəkkəb siyasi-tarixi hadisələr nəticəsində sərhədlərimizdən kənarda qalmış Borçalı, Qarayazı, Qaraçöp kimi mahalların toponimikası, zənnimcə, yetərincə öyrənilməyib, ancaq Mədad müəllim bu sahədə araşdırma aparan ilk alimlərimizdəndir. Onun ötən əsrin 80-ci illərində apardığı tədqiqat böyük zəhmətlə yanaşı, həm da cəsarət tələb edirdi. "Gürcüstanda türkköklü qədim oykonimlər", "X-XVII əsrlər gürcü tarixi mənbələrində Azərbaycan--türk köklü toponimlər", "Borçalı toponimləri" kimi əsərlər tarixi

və elmi-linqivistik baxımından dərin maraq doğurur.

Qonşu xalqlar arasında xoş münasibətlərin yaranması və dərinləşməsi, ilk növbədə, insanlar arasında ünsiyyətdən başlanır. Gürcüstanda yaşayan soydaşlarımız bu ölkənin vətəndaşlarıdır və gürcü dilini öyrənmədən ölkələrin ictimai-siyasi həyatında öz layiqli yerini tuta bilməzlər. Ən başlıcası isə, qonşu gürcülərlə yetərincə ünsiyyət qurmaqda çətinliklər qaçılmaz olar. Bu aspekti diqqətdən qaçırmayan Mədəd müəllim hələ 1977-ci ildə M.Çinçaladze ilə birlikdə "Azərbaycanca-gürcücə qısa danışıq lüğəti" tərtib edərək Tbilisidə dərc etdirmişdir. Sonralar lüğət təkmilləşdirilərək təkrar çap olunmuşdur...

Vəsaitlə bağlı "Veçerniy Tbilisi" qəzeti redaksiya məqaləsilə çıxış etmiş və onun hazırlanmasını yüksək qiymətləndirmişdir: "Bu respublikamızda ilk belə nəşrdir. Məlum olduğu kimi, Gürcüstanda 270 min azərbaycanlı yaşayır. Azərbaycan məktəbləri fəaliyyət göstərir. Lüğəti tərtib edən Mədəd Çobanov və M.Çinçaladze onu, ilk növbədə, Azərbaycan məktəblərinin yetirmələri üçün nəzərdə tutmuşlar. Kitabda əsas diqqət danışıq nitqinin inkişafına yönəlib".

Görkəmli dilçi alim, professor Mədəd Çobanov bu gün də elmi-pedaqoji fəaliyyətini davam etdirir. Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində Silahlı Qüvvələrimiz üçün dənizçi zabit kadrlarının yetişdirilməsinə, onların dilimizə və keçmişimizə hörmət ruhunda tərbiyə edilməsinə öz töhfəsini verir. Eyni zamanda, Mədəd müəllim azərbaycan və gürcü xalqları arasında mədəni əlaqələrin dərinləşməsinə yönəlmiş rəngarəng məqalələrilə kütləvi-informasiya vasitələrində çıxış etməkdə davam edir.

İki il öncə anadan olmasının 70, elmi pedaqoji fəaliyyətinin 50 illik yubileyilə əlaqədar Mədəd müəllim Gürcüstandan da təbriklər almışdır. S.S.Orbelianı adına Tbilisi Dövlət Pedaqoji Universitetində uzun müddət filologiya fakültəsinin dekanı işləmiş professor Konstantin Ramişvili yubiliyara göndərdiyi məktubunda vaxtilə həmkarının Gürcüstanda müəllim kadrlarının

hazırlığına önəmli töhfə verdiyini qeyd etmiş, ona Qafqaz uzunömürlülüyü arzulamışdır. Eyni zamanda, professor Mədəd Çobanov Azərbaycan-Gürcüstan ədəbi əlaqələrinin inkişafındakı fəaliyyətinə görə, bu yaxınlarda keçirilmiş "Azərbaycanda gürcü kitabı günləri" münasibətilə GÜAM-ın xatirə diplomu ilə təltif edildi. Biz də görkəmlii alimi təbrik edir, ona yaradıcılıq uğurları arzulayırıq. Nizami Gəncəvi demişkən, "bir olsa yoldaşın, dostun əməli, daşdan su çıxarar onların əli..."

***Mayor Əbülfət Qasımov,***
*"Azərbaycan Ordusu".*
*"Elm və Təhsil"qəzeti,*
*№ 07 (236),may 2010-cu il.*






## BORÇALIDAN GƏLƏN KİŞİ



Borçalı tarixi-coğrafi şəraitinə görə Böyük Qafqazın yuxarı axarındadır. Bu ərazilərdən gələn dağ çayları Kürə doğru axır, böyük nəhrə qovuşur və ümmana çatır. Əgər dağ çaylarının ümumi axarı ilə insan taleləri arasında bənzərlik görmək mümkün olsaydı, belə bir bənzəyişin elə professor Medəd Çobanovun taleyinə yazıldığını birincilər sırasında deməliyik. O, 1937-ci ildə Bolnisi rayonunun Darvaz kəndində anadan olub. Əvvəllər də demişəm, 37-ci ildə dünyaya gələn və bu gün Azərbaycan mənəvi mühitinin aparıcı qüvvələri kimi tanınan ziyalılar rejimlərin haqsızlığına qarşı Tanrının əvəz olaraq xalqımıza bəxş elədiyi işıq sərvətləridir. Bu gün professor Mədəd Çobanov kimi tanıdığımız görkəmli Azərbaycan alimi, taleyin hər cür məhrumiyyətlərinə dözərək iradəsi və gücü sayəsində dilçilik elmində öz yerini tutub. Əlbəttə, böyük əzablar, böyük çətinliklər, kasıblığın məhrumiyyətlərin gətirdiyi acılıqlar onu yolundan döndərə bilmədi.

Tiflis Pedaqoji İnstitutunun hələ II kurs tələbəsi olanda onun

mənəvi mühitinə elmin qapısı açılmışdı. Maraqlıdır ki, həmin vaxt bir tələbənin materiallarından "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə (1964) istifadə olunub. Hələ o vaxt kimsə deyə bilməzdi ki, M.Çobanov filologiya elmləri doktoru, professor Yusif Seyidovun qeyd etdiyi kimi, antroponimiya sahəsində ən görkəmli, ən azı Afad Qurbanovdan sonra ikinci mütəxəssis kimi tanınacaq.

M.Çobanovun tədqiqatlarında "Tarixi-etnoqrafik aspekt güclüdür, aparıcıdır" (C.Hüseynzadə). Professor yeri gəldikcə müraciət elədiyi müəlliflərin fikirlərinə dəqiq və aydın münasibətlər bildirir, ən sərt mübahisələrə girişməkdən belə çəkinmir. Bu da onu göstərir ki, sahə elminə daxil olmaqdan əvvəl çox güclü baza biliklərinə yiyələnmişdir.

Azərbaycan elminin, əlbəttə, söhbət dilçilik elmindən gedir - ayrı-ayrı sahələri üzrə məktəb yaratmış alimlərin adları iftixarla çəkilir. Maraqlıdır ki, M.Çobanov professor Əbdüləzəl Dəmirçizadəni həyatının örnəyi hesab edir. Onu özünün ustadı və müəllimi kimi yaddaşında, tədqiqatlarında, iş üslubunda, elmə yeni gələn gənclərə münasibətində qoruyub-saxlayır.

Təqribən qırx beş il bundan əvvəl yazmağa başladığı dissertasiya işi onun taleyində uğur amili kimi özünü təsdiq elədi. O, bu işi türk dillərinə dair qədim yazılı abidələrlə müqayisəli şəkildə işləmişdir. Bununla da M.Çobanov Azərbaycanın dilçilik elminə güclü bir açar vermişdi. Dilimizin lüğət tərkibinin inkişafında sözlərin mənaca dəyişməsində və etimologiyasının araşdırılmasında dialekt və şivə materialları xüsusi əhəmiyyət kəsb edir. Bu, müəllif qənaəti idi. Ona görə də, həmin tədqiqatın sonunda verilən leksem və frazemlər lüğəti dilimizin tarixi qatlarına getmək üçün çox dəyərli mənbədir.

Professor M.Çobanovun ümumtürkoloji axtarışları da çox uğurludur. "Məhz bu baxımdan türk xalqlarını ədəbi dillərinin birliyinə və ortaq dilliyə doğru yönəltmək və onların müasir problemlərini vahid müstəvidə həll etmək türkoloqlarımızın qarşısında ən mühüm problem olmalıdır" - deyirsə, demək, onun

özü də bu yöndə axtarışlarını, yaradıcılıqlarını əzmkarlıqla davam etdirir. **Onun üçün ədəbi dilimiz xalqımızın milli sərvətidir. Bu sərvətin araşdırılması üçün zəkasını, işığını yorulmadan, əzmkarlıqla sərf edən, çarpışan, mübarizə aparan alimlərin özləri də elə onların mənsub olduqları xalqın milli sərvətidir.**

Bu gün Mədəd Çobanova çox böyük hörmət və ehtiram var. Hörmət və ehtiram yox yerdən yarana bilməz.

## UCALAN SÖZ ZİRVƏSİ
## BİR PAYIZ GÜNÜ



Hava buludlu olduğundan bir az da tutqun idi. Ağacların yarpaqlarına təzəcə dən düşürdü. Tələsəni, ömrünü itirəni də vardı. Zamanın küləyinə davam gətirməyib budağından üzülmüş yarpaq dəlibaş Bakı küləyinin qabağında duruş gətirə bilmir, havada dolanır, bir sakit küncə-bucağa ilişənə qədər çırpınırdı. Küçədə metrodan çıxıb Elmlər Akademiyası binasına tərəf adlamaq istəyən gənci maşınların aramsız axını xeyli ləngitdi. Yaxasına, boyun-boğazına dolan külək də onun irəliləyişinə mane olurdu. Səliqə ilə daranmış saçları həmyaşıdlarından xeyli hündür görünən nazik, qıs-qıvraq, sivri burun oğlan, deyəsən, hələ yaxşı tanımadığı şəhərin bu hay-küyündən bir qədər bezikmiş kimi idi. Ancaq gedəcəyi ünvanı, açacağı qapını hələ düşüncəsində, olsa da, yaxşı tanıyırdı. Axır ki, küçəni də qətiyyətlə keçdi, pillələri də sürətlə qalxdı. Bu da Nəsimi adına Dilçilik İnstitutu, Dialektologiya şöbəsi, professor Məmmədağa Şirəliyevin kabineti. Az qala qapıdan qayıdacaqdı. Axı o, bura necə gəlib

çıxmışdı? Hansı istək, hansı arzu idi onu professorun yanına gətirmiş? Qapını döymədi, amma yavaşca araladı. Professor masanın arxasından açılan qapının səsinə başını qaldırdı. Yaşına uyğun gəlməyən, bir qədər də professorun nəzərində cansız, çəlimsiz görünən gənc lap elə yenicə ali məktəbə qəbul olunmuş tələbəyə daha çox bənzəyirdi.

Yaxınlaşıb salam verdi. Professor masanın arxasından azca dikəldi, əlini uzatdı. Gənc artıq qocalmaqda olan alimin əlini sıxdı, bu əldə bir hərarət duydu. Bayaq az qala üşüyürdü. Elə indicə sıxıb ayrıldığı əldən canına yayılmış hərarət kiçik tər damlalarına çevrildi.

Cavan oğlan əli ilə alnının tərini sildi. Təri siləndən sonra yadına düşdü ki, cibində dəsmalı da var.

Xoş gəlmisən, nə lazım idi?

Professor, mən sizin...

Hə, hə, buyur, buyur...

Cavab üçün bir qədər ləngidi. Haradan, necə başladığını kəsdirə bilməmişdi. Bayaqdan yüz dəfə necə danışacağını, nə deyəcəyini, istəyini nə təhər bildirəcəyini yüz dəfə ölçüb-biçmiş, hələ bəlkə, məşq də eləmişdi. Professor haqqında da məlumat toplamışdı. Dialektologiya elminin ən görkəmli nümayəndəsi olduğunu bir növ Azərbaycan dilçiliyində bu sahənin yaradıcısı olduğunu da bilirdi. Nə olsun ki, indi bütün bunlar yadından çıxmışdı.

Təzədən əlini dəsmala uzadıb bir də alın tərini silmək istəsə də, professorun səsi onu fikrindən daşındırdı. Elə həmin andaca canına yayılmış istiliyin, hərarətin, alnında puçurlanan tərin gətirdiyi çaşqınlıq yox oldu.

Professorun ona zillənmiş nəzərləri altında qoltuğundakı kiçik kağız qovluğunun bağlarını açmağa çalışdı. Tərslikdən deyəsən, iplər də düyünə düşmüşdü. Professorun qalın dodaqlarının arasından asta-asta eşidilən pıçıltıya bənzər sözləri lap aydın eşitdi:

- Elə qabaqca biz hamımız belə olmuşuq. Bütün əyər-əskiyi

zaman özü düzəldəcək. Bizimki yolu göstərməkdir. O yolu necə getmək hər kəsin öz işidir. Axır ki, qovluğu açıb sənədlərin arasından Tbilisi Pedaqoji Universitetinin tarix-filologiya fakültəsinin məzunu olduğunu göstərən diplomu əlinə götürüb professora vermək istəsə də, elə bil ki, hansısa bir qüvvə onun qolunu tutub saxladı: «Bəlkə, heç diploma ehtiyac yoxdur, bəlkə, elə danışım», - xəyalından keçirdi.

Amma professor əlini uzatmışdı: - Ver, ver bəri, baxım. - Hə, demək, sən Tbilisinin məzunusan.

Professor diploma baxıb: - məqsədin nədir? - deyə soruşdu.

- Professor mən Borçalı şivələri ilə bağlı tədqiqat aparmaq istəyirəm.

Cümləni bitirəndən sonra elə bil ki, onun üstündən dağ götürüldü. Bəlkə, heç özü də nəyə sevindiyini bilmirdi. Elə bil ki, bütün məsələlər uğurla həll olunmuşdu.

- Çox yaxşı, Azərbaycan dili çox nəhəng bir ağacdı. Onun kökləri, rişələri Borçalıdan, Təbrizdən, Dərbənddən, Göyçədən, lap elə Kərkükdən başlanır. Biz bu dil ağacının bütün gücünü dərk etmək üçün onun mahiyyətini, leksik zənginliyini gələcək nəsillərə çatdırmaq üçün bu kökləri yaxşı-yaxşı öyrənməliyik. Ele sənin özün də Borçalıda doğulmusan. Soy adın da maraqlıdır. Mənə müəllimimi xatırlatdı - Bəkir Çobanza-deni. Eşitmisən?

Şübhəsiz, professor ali filoloji təhsili olan bir gəncin Bəkir Çobanzadə haqqında kifayət qədər məlumatlı olacağını bilməmiş deyildi. Amma bir ustad kimi elmə gəlmək istəyən gəncin necə cavab verəcəyini eşitmək istəyirdi.

- Bəli, bəli, professor, əslən Krım-tatar türklərindəndir. Repressiya olunub. Azərbaycanın mənəvi mühitində onun böyük rolu olub.

Professor gəncin bir az tələsə-tələsə verdiyi cavabdan deyəsən razı qaldı.

Hə, indi keçək mətləbə. Elmin yolu çox çətindir, oğul, dözə biləcəksənmi? İşini vaxtında yazıb təhvil vermək hamıya nəsib olmur.

- Bəli, professor, inanıram ki, öhdəsindən gələcəyəm.

...Həmin gün professor Borçalıdan gəlmiş gənclə-Mədəd Çobanovla xeyli söhbət elədi. Ailə vəziyyətini, dünyagörüşünü, hazırlığını aşkarlayacaq çoxlu suallar verdi. Birdən iki əlini də stola vurub ayağa qalxdı. Bu, bayaqdan suallara cavab verən, demək olar ki, çaşqınlıqdan çıxmış gənci təzədən çaşdırdı: - Bəlkə, professor nədənsə əsəbiləşdi, narazı qaldı? - Yox, deyəsən belə deyildi. Professor hələ də oturduğu yerdən tərpənməyən gəncin lap yanına gəlib iki əlini də onun çiyninə qoydu. O, indi hiss elədi ki, özü də ayağa durmalıdır.

- Get oğul, sənədlərini hazırla, mən bəri başdan səni təbrik edirəm. Ərizəndə elə beləcə də göstərərsən: «Azərbaycan Dilinin Bolnisi rayon şivələrinin leksik xüsusiyyətləri». Bu, sənin dissertasiya mövzundur…

Çox sonralar Azərbaycanın görkəmli alimi, dialektologiya üzrə M.Şirəliyevin yetirmələrindən olan cəfakeş alim Sefi Behbudov yazacaqdı ki: «Onun belə bir konkret mövzuya müraciət etməsi akademik Şirəliyevin ürəyincə olur. Çünki o vaxta qədər Azərbaycan dili şivələrinin leksik xüsusiyyətlərindən bəhs edən konkret bir əsər yazılmamışdı». Elmə gələn hər bir gənc axtarışları, tədqiqatları ilə elm aləmini zənginləşdirməlidir, ona yenilik gətirməlidir. S.Behbudovun qeyd etdiyi kimi, şivələrin leksik xüsusiyyətlərinin işlənilməsi həmin dövr üçün sahənin yeni cığırı idi. Şübhəsiz, burada çətinliklər, problemlər də az deyildi. Doğulub böyüdüyü əraziləri kənd-kənd, oba-oba dolaşır, axtarışlar aparır, sözləri canlı dildən, folklordan birər-birər toplayır, mətnlər üzərində işləyir, sözün sehirli aləmində bəzən dolaşır, izi itirir, amma haradasa, onu çağıran parlaq ümid işığını gördüyü üçün inadından dönmür. Bəzən olub ki, seçdiyi mövzu ilə bağlı mübahisələrdə ona belə də məsləhətlər verənlər tapılıb: Sən daha asan mövzu götürə bilərdin. Elə kitabxanalarda işləyərdin. Daha dərviş kimi çölə-biyabana düşməzdin. Belə fikirlər ilk baxışdan cəzbedici görünsə də, onu yolundan döndərə bilmədi. Çünki o, artıq sözə vurulmuşdu. Söz onu ahənrüba

kimi çəkirdi. **Axtardığı, tapdığı, araşdırdığı, dərinliklərinə vara bildiyi sözün ucalıq zirvəsinə doğru yolu açılmışdı və bir kimsə onu bu yoldan döndərə bilməzdi.**

Məsələ belədir ki, hər kəs ona aydın olan yolun başlanğıcında ilk addımını haradan atdığını bildiyi kimi, sonuncu addımın da harada qurtardığını bilməmiş deyil. Özünü dərk edən insan üçün bu, ömrün son ucudur. Gərək o sonuncu addımın özünə qədər qətiyyətin, iradən özünlə olsun, səni tərk eləməsin. Yalnız bu zaman sözün ucalıq zirvəsi fəth oluna bilər. Və yenə bu gün üçün M.Çobanovun ucalıq zirvəsindən görünən yerini qaytaraq yaradıcılığının ilk gəncliyinə. Günümüzün dəyərli söz sahiblərindən biri, görkəmli ədəbiyyatşünas Arif Əmrahoğlunun «Mədəd Çobanov və onun sözü» şərti adı ilə qəbul elədiyimiz fikirləri həmin yaradıcdığın ilk gəncliyi üçün dumanları dağıdan, aydınlaşdırıcı missiya daşıyır: «Onun çörəyi də sözdən çıxır. Mənim üçün xoş olan bir də odur ki, Mədəd müəllim çörəyi və təskinliyi çıxan sözə heç vaxt arxa çevirməyib, onu sevə-sevə, toplaya-toplaya, qoruya-qoruya **«Ədəbi dilimiz xalqımızm mədəni sərvətidir» adlı müasir və çox sanballı əsər yazıb...**

Hətta, əlahəzrət sözü olduğu yerdə - müqəddəslik məqamında görməyə çalışıb. Həqiqətən də, hərə öz sözü boydadı. Eləcə də, Mədəd müəllim». Əlbəttə, M.Çobanov çox uğurla müdafiə elədi. 1973-cü ildə o, artıq, elmlər namizədi idi. Özbəkistanda Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunun elmi şurasında opponentlər Ə.Dəmirçizadə, F.Abdullayev, Özbəkistanın görkəmli alimi, akademik Ş.Şahabdürrəhmanov, Türkmənistanın görkəmli alimi, akademik B.Çaryarov və başqalan elmi işin dəyəri haqqında yüksək fikirlər dedilər. Bu, təkcə M.Çobanovun qələbəsi deyildi. Bu, həm də onun yol göstərəni, ustadı, qayğıkeşi professor Ə.Dəmirçizadənin, digər görkəmli Azərbaycan dilçilərinin və Azərbaycan dilçilik elminin qələbəsi idi. Söz yox, bu illər ərzində onun saçları da ağarmışdı, Göy türkün genetik yaddaşını diktə edən göyümtül gözləri də əvvəlki gücündə deyildi. Axı, az qala yarım əsrlik bir vaxt keçmişdi. İndi

o, Azərbaycanın görkəmli alimidir, filologiya elmləri doktoru, professordur. 70-ə qədər kitabın, 600-dən çox elmi məqalənin, 400-ə yaxın publisistik-vətəndaşlıq qeyrətilə yazılmış yazıların müəllifidir. Mətbu əsərlərinin ümumi çapına nail olmaq mümkünlüyü məqamından yanaşsaq, otuz cilddən çox külliyyatın müəllifidir. 70 illik yubileyi münasibətilə ünvanına göndərilən teleqramların, məktubların onun ictimai rəydəki yerini göstərən ayrı-ayrı müəllif yazılarının özü də iki cildə sığmaz. Ancaq belə rəy məktublardan yalnız birini M.Çobanovun təhsilimizdə, dilçilik elmimizdə yerinin hökumət səviyyəsində etiraf olunmasını təsdiq edən təhsil naziri Misir Mərdanovun məktubuna diqqət edək: «Hörmətli professor Mədəd Çobanov Azərbaycan elmi ictimaiyyəti Sizi görkəmli dilçi alim kimi hələ Gürcüstanda çalışdığınız dövrdən yaxşı tanıyır. Son on beş ildə isə elmi-pedaqoji fəaliyyətinizi Bakıda davam etdirməyiniz elmi potensialınızın daha geniş şəkildə üzə çıxmasına böyük imkan yaratmış və siz bir-birinin ardınca Azərbaycan dilçiliyinə aid bir sıra sanballı dərsliklər, dərs vəsaitələri, monoqrafiyalar, elmi və publisistik məqalələr çap etdirmisiniz. Siz sözün əsl mənasında, məhsuldar bir alim ömrü yaşamısınız. Sizi anadan olmağımzın 70 illik yubileyi münasibətilə təbrik edir, uzun ömür, möhkəm can-sağlığı, Azərbaycanda elmin və təhsilin inkişafı naminə yorulmaz fəaliyyətinizdə daha böyük uğurlar arzulayıram». Yəqin ki, belə məktublar, rəylər, münasibət yazıları, etiraflar Azərbaycanın görkəmli alimi M.Çobanovun 75, 80 illik yubileylərində də yazılacaq. Ancaq mənim məqsədim M.Çobanovun Azərbaycanın görkəmli aliminin hələ başlanğıcda vətəndaşlıq qeyrəti ilə hansı toxumları səpdiyinə diqqətimi çəkməkdi.

Vaxtilə, bir neçə il əvvəl onun 70 illik yubileyi münasibətilə həmin toxumlardan danışmışdım: «İlk gəncliyində Tbilisi Pedaqoji İnstitutunun məzunu kimi müəllimlik dövründə və elə bitirdiyi İnstitutda çalışdığı illərdə M.Çobanov Borçalını gəzir, yaxşı oxuyan şagirdlərin Tbilisi Pedaqoji İnstitutuna daxil olmasını təbliğ edir, onlara deyirmiş ki, burda oxuyun. Ona görə

burada oxuyun ki, öz kökünüzdən, yurdunuzdan ayrılmayasınız. Qayıdıb öz kəndlərinizdə müəllim işləyəsiniz. M.Çobanov o vaxt «səpdiyi toxumlar» cücərdi, bitdi və tarixin çərxi çevriləndən sonra mən deyərdim ki, Borçalı elə o bara, o bəhərə bel bağladı.

Bir məsələni də yada salmaq istəyirəm. O vaxt Gürcüstandan gəlmiş tələbələrin ali məktəbi qurtarandan sonra təyinatı birbaşa Borçalıya verilmirdi, Onlar Azərbavcanın müxtəlif rayonlarına göndərilirdilər. Və əsasən də həmin Gürcüstandan gəlmiş gəncdər ya elə Bakıya qayıdır, ya da Rusiyaya - Vətəndən uzaqlara üz tuturdular.

Təqribən 30 ildən çox müddət ərzində Borçalının mənəvi mühitini formalaşdırmaq, bu mühiti böyütmək, onu qorumaq missiyası da M.Çobanovun boynuna düşmüşdü». İnsanın həyat yolu tale yoludur. Dini-mistik təsəvvürlərə görə, hər kəs öz taleyini yaşayır. Ancaq mən bu qənaətdəyəm ki, hər kəs öz taleyini mənəvi gücü, əməli ilə yazır. Tale özü hər kəsin yaradıcılığıdır. «Azərbaycan antroponimiYasının əsasları», «Borçalı toponimləri», «Borçalı ensiklopediyası» (5 cilddə), «Dilçilik - dünya dilləri və dillər dünyası», «Antroponimlərin estetik və sosial mahiyyəti» kimi dərc olunan və yaxud nəşrini gözləyən kitablar onun zəngin elm fədaisi aləmindən xəbər verir.

...Mədəd Çobanov ölkələr, xalqlar arasında körpü olan ziyalılardandır. Ortaq türk dilləri ilə bağlı tədqiqatları, Azərbaycan-gürcü ədəbi əlaqələri, Azərbaycan və Türkiyə ədəbi mühiti onun tədqiqat obyekti olaraq bu gün də diqqət mərkəzindədir. Azərbaycanın indiki mənəvi mühitində onun ən yüksək fəxri ödüllərə haqqı var. Zənnimcə, yaxın zamanlarda biz onu Əməkdar elm xadimi fəxri ad alması münasibətilə təbrik edəcəyik. Yorulmazlıq, fədakarlıq elmə yeni gələn nəslə qayğıkeşlik onun ziyalılıq xarakterinin göstəriciləridir.

**Yollar, taleler, insanlar, körpülər... Bəzən bircə ziyalının ömür yolu, həyatı bu göstəricilər üçün əsas ola bilir.**

**...Sözün ucalıq zirvəsi. Bir Mədəd Çobanov zirvəsi var**!

## Daha bir payız günü

Həmin bir payız günündən yarım əsrə qədər vaxt keçib. Mən deyə bilmərəm ki, həyəcanları, tərəddüdləri, bəzən də çaşqınlığı ilə özünə işıq bilib gəldiyi professorun qapısını açıb içəri girməyə cəsarət edən həmin gənc əlli ildən sonrakı, indiki payız gününü təsəvvür edə bilirdimi? Elə həmin vaxtlarda, həmin günlərdə ona deyən olsaydı ki, sən əlli ildən sonra az qala otuz cildlikdən çox bir külliyyatın müəllifi olacaqsan, görəsən, bunu həqiqət kimi qəbul edərdimi? Yoxsa əlçatmaz bir uzaqlıq bir keçilməzlik kimi anlayardı. Bəlkə elə, mənəvi aləmindəki qaynarlığın, enerjinin, gücün təkidi ilə mən o yolu keçəcəyəm deyərdi. Axı, əlli ilin özü də az deyil. Bir yaradıcılıq ömrü, yaşamağın, yaratmağın kifayət qədər dərk olunması, kamillik və ucalığın fəthi deməkdir. Elə indi də hansısa bir gənc çəkinə-çəkinə, çaşqınlıqla onun əllərindəki istiliyin, hərarətin münisliyini duyanacan tərəddüdlər içində onun yanına gəlir.

İndi M.Şirəliyev başını qaldırıb həmin gənci içəriyə çağırır. Əlbəttə, Mədəd Çobanov görkəmində. O da qarşısında əyləşib sıxılan, tərləyən gənci dinləyir, sorğu-suala tutur, sonra da ona ürək-dirək verir. Hələ qarşıda olan yolu göstərir. Özü də doğru-düzgün yolu.

Ağarmış saçların, bir qədər dərinliyə çəkilmiş gözlərin, titrək əllərin indiki görkəmi onun ilk gəncliyindən çox müəllimi ilə qarşılaşdığı anları xatırladır.

Hərəkətlərində bir qədər lənglik, danışığında bir qədər təmkin artıb. Amma o demək deyil ki, M.Çobanov ömrün payızını yeni düşüncələrlə qarşılanıır. Yeni ideyalar, fikirlər, çoxlu kitablara rəylər, elmi konfranslardakı çıxışlar, elmə yeni gələn gənclərə məsləhətlər... bütün bunlar göstərir ki, hələ onun ömrü öz qaynarlığındadır. Yaradıcılıq enerjisi daxili-mənəvi zənginlikdən güc alır. Borçalı. Qədim Darvaz kəndi. Onu böyük aləmə aparan yolun başlanğıcı həmin kəndlə bağlıdır. Darvaz yadına düşəndə Azərbaycan dilinin kökləri, rişələri haqqında professor

M.Şirəliyevin dedikləri xatirinə gəlir. Borçalıdan gələn gənclərlə görüşəndə o, həmin sözləri, həmin duyğuları təzədən yaşadır və müəlliminin əmanəti kimi qoruyub saxladığını yeni nəsillərə əmanətləyir. Kim bilir, bəlkə, əlli ildən sonra həmin gənclərdən biri elə bu gün M.Çobanovla görüşünü bir payız gününün xatirəsi kimi yada salacaq.

Mən əvvəllər də demişəm, indi də təkrar eləməyə lüzum görürəm. M.Çobanovun yetirmələri arasında mətbuatımızın kifayət qədər tanınan istedadlı oğullarından biri - Müşfiq Çobanlının adı yada düşür Mədət Çobanov irsinin davametdiricisi kimi.

İndi də ilin payızındayıq. Daha doğrusu, payız tutqun, buludlu havası ilə ömrümüzün qapısının ağzındadır. Amma zaman o zaman deyil. Nə qədər oxşarlığı, bənzərliyi olsa da.

***Əli Rza Xələfli***
***12.09.2001***
***"Kredo" № 31 (651),***
***17 sentyabr 2011-ci il, səh.1-9.***



**Professor Mədəd Çobanovun**
**Elmi-ictimai fəaliyyəti haqqında məlumatlar:**

1. 1957-ci ildən müxtəlif qəzetlərin səhifələrində məqalə, reportaj, oçerk və məlumatlarla çıxış edir. Onun jurnalistik fəaliyyəti haqqında qəzetlərdə məlumatlar və şəkli çap edilir.
Bax: 1. Redaksiya məqaləsi: Qəzetimizin fəal köməkçiləri, "Sovet Gürcüstanı", N: 54/4313/. 5 may 1964.
2. M.Çobanovun Marneuli mədəniyyət evində keçirilən oxucular konfransında fəal müxbir kimi iştirakı ilə əlaqədar qəzetdə şəkli çap olunııb. "Sovet Gürcüstanı", N: 151 /4410/ 19 dekabr 1964.
3. Mətbuat günü münasibətilə M.Çobanovun "Sovet Gürcüstanı" qəzetinin ştatdankənar müxbiri kimi fəaliyyətindən bəhs olunur, həmin yazının məzmunu ilə bağlı şəkli verilib. /Redaksiyanın baş məqaləsi; Partiyanın mübariz silahı, "Sovet Gürcüstanı", N:53/446// 4 may 1965.
4. K.Kərimov, Radio günü, "Sovet Gürcüstanı", 8 may 1971.
5. /Redaksiya məqaləsi: Məcmuəmizin təzə nömrəsi, "Azərbaycan müəllimi", № 31 /2399/ 14.IV.1972.
6. А.Нурджаханоглы, Любви достойная земля, "Баку" № 111 /2447/ 13. V.1971.
7. 1963-cü ildən Gürcüstan SSR "Bilik" cəmiyyətinin üzvüdür. O, 1964-1980-cı illərdə Bolnisi rayonu "Bilik" cəmiyyəti idarə heyətinin üzvü, sədr müavini və sədri olmuş, müxtəlif mövzularda zəhmətkeşlər, ziyalılar qarşısında və digər auditoriyalarda məruzələrlə çıxış etmişdir. Bu münasibətlə cəmiyyətin rayon plenumu iştirakçılarının bir qrupu ilə birliklə şəkli çap olunmuşdur. Bax: S. Məhəmmədoğlu, Mühazirə təbliğatının keyfiyyəti uğrunda, "Sovet Gürcüstanı", N: 65/7905/, 30 may 1978.
8. Sovet Ordusu sıralarında xidmətləri, hərbçilərlə əlaqəsi və s. haqqında qəzetlərdə məlumatlar vardır, şəkli çap olunmuşdur.
Bax: 1. "Ленинское знамя", 8 марта 1962 г..
2.Vzvod komandiri. M.Çobanovun hərbi təlimdəki fəaliyyətini

əks etdirən yazı va şəkli çap olunub /"Ленинское знамя ", 20.III.1962/.3. M.Çobanovun hərbi təlimdəki fəaliyyətini əks etdirən yazı çap olunub /М.Тишенко, Идут учения-коммунисты всегда с людьми, "Ленинское знамя" 6 апреля 1962 г., № 82/13251/.4. "Ленинское знамя", № 261/2132114/, 13.11.1988 г.5. "Ленинское знамя", № 41 /21394/, 18.02.1989 г.

9. Zaqafqaziya hərbi Dairəsinin orqanı "Ленинское знамя" qəzetinin nəzdində "Родник" adlı Beynəlmiləl Dostluq Klubu təşkil olunmuşdur. Dos.M.N.Çobanov da həmin klubun fəaliyyətində yaxından iştirak edir.Bax: Клуб Интернациональный Дружбы, "Ленинское знамя", Н: 96/21149/,28 апреля 1988 г.

9.[a]. Tələbələrin əmək semestrində tələbə dəstəsinə, o cümlədən "Qamardjeba-85" tələbə dəstəsinə rəhbərlik edib.Bax: 1. "İvris Qantiadi"/gürcü dilində/, 20.09.1985.

2. "İvris Qantiadi"/gürcü dilində/, 27.09.1985.

3.Orucova, S.Muradova, Tələbələr qayıtmışlar, "Sovet Gürcüstanı", 22.10.1985.

10. Dərslik və vəsait müəllifi kimi haqqında qəzetlərdə məlumatlar çap olunub. Bax: 1. "Sovet Gürcüslanı", N:58/8829/, 12 may 1984.

2. "Komunisti" /gürcü dilində/ 3 noyabr 1988.

3. "Axalqazrda komunisti" /gürcü dilində/, 5 noyabr 1988.

11. 23-25 may 1990-cı ildə Gürcüstan Milli qurultayının nümayəndəsi olub.

12. Elmi-pedaqoji fəaliyyəti haqqında qəzetlərdə oçerklər çap olunub və radio-televiziya verilişlərində reporajlar verilib.Bax: 1. Ə.İsmayıllı, A.Nuriyev, Daşkənddən gələn şad xəbər, "Sovet Gürcüstanı", N: 120/7805/, 4 oklyabr 1977.2. Y.Boboxidze, Çveni djmobis saqalobeli /Qardaşlığın gücü/ "Qamardjvebis droşa" - "Qələbə bayrağı"- Gürcüstan SSR-in Bolnisi rayonu/, N:55/4679/. 26 aprel 1980.

3. Dünyamalı Kərəm, Axtarışlar, Düşüncələr, "Sovet Gürcüstanı",

N: 155/8306/, 27 dekabr 1980.4. Elmi-pedaqoji fəaliyyəti haqqında Gürcüstan televiziyasında xüsusi veriliş olub. 16 mart. 1980.5. Gürcüstan Dövlət Radio və televiziya verilişlərinin Azərbaycan redaksiyasında radio ilə çıxışı olub. 11 yanvar 1986.
13 "Yenidənqurma və elmi-texniki tərəqqi" mövzusunda Mahmudovla müsahibəsi radio ilə verildi. 14 mart 1988.
13[a] N.A.Çumakovun poeziyasında hərbi vətənpərvərlik mövzusunda Tbilisi radiosu ilə çıxış edib. 22 sentyabr 1988.
13[b.] E.Mahmudovun "Alim, ədəbiyyatşünas və pedaqoq" adlı radio oçerki və onunla müsahibəsi radio dalğalarında səslənib. 2 oktyabr 1988.
13[q] Haqqında "Баку"qəzetində yazılıb. Bax: 111/2447/. 13 [d] мая 1971.
10. M.Çobanovun Gürcüstan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Azərbaycan dilində verilişləri redaksiyasının fəal ştatdankənar müxbiri kimi haqqında bəhs edilir /K.Kərimov, Radio günü, "Sovet Gürcüstanı", 8.V.1971/.
13[s] M.Çobanovıın pedaqoji fəaliyyətindən bəhs edilir/ Ə.İsmayıllı, İmtahan sınaq meydanıdır, "Sovet Gürcüstanı", № 11. /5658/, 25.I.1973/.
13[y] M.Çobanovun elmi kadrların hazırlanmasında yaxından iştirakından bəhs edilir: "Получили отзыв, сердечно благодарим, желаем успехов в работе, отличного здоровья. Шамраев, Ишаев", Ташкент, 24.XII/1980//
13. M.Çobanovun elmi-pedaqoji fəaliyyətindən bəhs edilir. (М.Гюльмамедов, Азербайджанский сектор, "Советский педагог", № 17-18/288/, 23.V.1974/).
14· M.Çobanovun pedaqoji təcrübəsindən və məktəblərarası fənn müəllimlərinin iştirakı ilə açıq dərs keçməsindən bəhs edilir /V.Vəliyev, Qabaqcıl müəllimlərin təcrübəsini yayaq, "Qələbə bayrağı", № 6/3850/, 14.I.1975/.
15. M.Çobanovun Azərbaycan dili və ədəbiyyatı kafedrası müdirinin müavini kimi "Nizami poeziya günləri" təşkil

etməsindən və həmin tədbirdə "Giriş sözü" ilə görkəmli söz ustadı haqqında nitq söyləməsindən bəhs edilir /Z.Seyidhüseyn qızı, "Nizami poeziya günləri", "Sovet Gürcüstanı". № 119/8114/, 6.X.1979/.

16. M.Çobanovun Tbilisidə A.S.Puşkin adına TDPİ-nin Azərbaycan dili və ədəbiyyatı kafedrasında prof. A.Qurbanovun "Dilçiliyin tarixi" kitabının müzakirəsinin təşkilindən və həmin müzakirədə geniş məruzə ilə çıxış etməsindən danışılır /Ə.Əmrahov, "Dilçiliyin tarixi"nin müzakirəsi, "Azərbaycan müəllimi", № 28/2914/, 6.IV.1977/.

17. M.Çobanovun "Müharibə veteranları ilə görüş"də məruzə ilə çıxış etməsindən bəhs edilir. /T.Məmmədov, Məktublar üzərində düşüncələr, "Qələbə bayrağı", № 86/3930/, 12.VII.1975/.

18. M.Çobanovun Ufa şəhərində Türkologiya Komitəsinin qərarı ilə təşkil olunan IX Ümumittifaq Türkoloji konfransında iştirak etməsi haqqında /M.Çobanovun qeydləri, "Sovet Gürcüstanı", 18. IX. 1982/.

19. M.Çobanovun Qafqaz Onomastikasına həsr olunmuş III Umumittifaq Konfransında iştirak etməsindən bəhs edilir /M.Çobanov, Onomoloqların konfransında, "Sovet Gürcüslanı", 31.V.1983/.

20. M.Çobanovun "Respublikanın ali məktəblərində Azərbaycan dilinin öyrənilməsinin təkmilləşdirilməsi problemləri"nə həsr olunmuş Respublika Elmi-Metodik Konfransda iştirak etməsindən bəhs edilir/M.Çobanovun qeydləri, "Sovet Gürcüstanı", 22.I.1985/.

21. M.Çobanovun "Yaxın və Orta Şərq xalqları dilləri və ədəbiyyatlarının aktual nəzəri və metodik məsələləri"nə həsr olunmuş Respublika Elmi-Metodik Konfransında iştirak etməsindən bəhs edilir /M.Çobanov, Şərqşünasların Konfransı, "Sovet Gürcüstanı". 9.I.1986/.

22. M.Çobanovun "Türk Onomastikası üzrə I Ürnumittifaq Konfransında iştirak etməsindən bəhs edilir, Qəzetdə Çingiz Aytmatov və başqalarının iştirakı ilə şəkli çap olunub.

/M.Çobanov, Türkoloqların Ümumittifaq Konfransında, "Sovet Gürcüstanı", 23.X.1986/.
23. M.Çobanovun Alı Musayevin "M.F.Axundov və G.Eristavi" kitabını redaktə etməsindən bəhs edir /Ş.Məmmədli, "M.F.Axundov və G.Eristavi", "Sovet Gürcüstanı", 16.V.1991/.
24. M.Çobanovun "Məhəmməd Füzuli - 500" Yubiley Elmi Konfransını təşkil etməsindən və "Füzuli poeziyasının dili" mövzusunda çıxış etməsindən bəhs edilir /A.Çobanova, "Məhəmməd Füzuli - 500". "Təhsil", № 1/82/ 3.I.1995/.
25. M.Çobanovun "Özbəkistan Onomastikasına həsr olunmuş II Respublika Elmi - praktik Konfrans"da iştirak etməsi və məruzəsinin əhəmiyyətindən bəhs edilir /Daşkənd, 1989/, /Filol.elmləri namizədi Ə.Tanrıverdiyev, Onomastikaya aid tədqiqlər, "Gənc müəllim", № 5/857/ 28.III.1990/.
26. M.Çobanovun "Özbəkistan Onomastikasına həsr olunmuş II Respublika Elmi - praktiki Konfrans"da istirak etməsi və məruzəsinin çap olunmuş tezislərinin əhəmiyyətindən bəhs edilir /Ə.Tanrıverdi, Növbəti konfranş qarşısında, "Bakı", № 61/9237/, 24.III.1990/.
27. M.Çobanovun Azərbaycan antroponimiyasını tədqiq etməsi və doktorluq dissertasiyası müdafiə etməsi barədə məlumat verilir. (A.Qurbanov, Azərbaycan adları, Uşağa necə ad seçməli,? Bakı, 1993, səh. 105-106).
28. M.Çobanovun Elitar İnstitutunun rektoru kimi təaliyyətindən bəhs edilir /T.Xəlilova, Azərbaycan Elitar İnstitutunda /Ümumi iclasdan qeydlər/, "Təhsil", №13, 13.III.1994/
29. M.Çobanovun antroponimika sahəsindəki fəaliyyətindən bəhs edilir /F.Firidunlu, Gürcüstan ərazisindəki ata adları, "Dilçilik" – 1, B., 1996, səh. 34/
30. M.Çobanovun antroponimiya sahəsindəki fəaliyyətindən bəhs edilir /prof. V.Əliyev, dos.A.Hacıyev, Türk mənşəli Azərbaycan antroponimləri, "Dilçilik" – 1, B., 1996, səh.68/.
31. M.Çobanovun Azərbaycan Onomastikası Cəmiyyətinin İdarə heyətinin üzvü seçilməsindən bəhs edilir /V.İsrafilov, Onomastika

cəmiyyəti yaradılmışdır, "Dilçilik" - 2, B., 1996, səh. 107/.
32. M.Çobanovun Onomalogiya Elmi Əlaqələndirmə Şurası Sədrinin müavini seçilməsindən bəhs edilir /dos. A.Hacıyev, Onomalogiya üzrə Əlaqələndirmə Şurası, "Dilçilik" - 2, B.,1996, səh.108/.
33. M.Çobanovun "Bolnisi rayonu şivələrinin leksikası" /Gürcüstan SSR/ adlı namizədlik dissertasiyası və onun sinonimlər bəhsi haqqında rəy söylənib /Ə.Cəfərli, Azərbaycan dili dialekt və şivələrinin qərb qrupunda sifət-sinonimlərin bəzi leksik-semantik xüsusiyyətləri, "Elmi əsərlər" - Dil və Ədəbiyyat seriyası, B., 1979, № 2, səh.61/.
34. M.Çobanovun Azərbaycan antroponimiyasının tədqiqi sahəsindəki fəaliyyətindən bəhs edilib /N.Ə.Əsgərov, Antroponimlərin ümumi dilçilik fənlərinin tədrisində yeri, "Ümumi dilçilik fənlərinin tədrisi problemləri", B., 1989, səh. 16/
35. M.Çobanovun "Azərbaycan dilinin tədrisi metodikasına dair" kitabı haqqında rəy çap olunub /Ş.Məmmədli, Müəllimlərə kömək məqsədilə, "Sovet Gürcüstanı", 8.1.1987/.
36. M.Çobanovun "Azərbaycan şəxs adlarının semantikası və orfoqrafiyası" kitabı haqqında rəy çap olunub /S.Əkbərova, Gürcüstanda nəşr olunub, "Səhər", 158/445/15.VIII.1992/.
37. M.Çobanovun elmi tədqiqatçılıq və ictimai fəaliyyətindən bəhs edilir /Filol.elm.namizədi M.Soltanov, Onomastika cəmiyyəti yaradılmışdır, "Gənc müəllim", № 5/933/, 8.VI. 1996/.

38. M.Çobanovun elmi tədqiqat işlərindən bəhs edilir. /dos. A.Hacıyev, Yeni "Dilçilik" məcmuəsi, "Gənc müəllim". № 5/933/, 8.VI.1996/.
39. M.N.Çobanovun elmi - pedaqoji fəaliyyəti haqqında geniş oçerk /Müsfiq Mədədoğlu /Çobanlı/, Çağdaş Borçalı ədəbi məktəbi, B.. "Azərbaycan" nəşriyyatı, 1994, səh.3,187-190/.
40. M.N.Çobanovun ədəbi-tənqidi fəaliyyətindən bəhs

edilir/Ə.İsmayıllı, Çağlayan duyğular, "Dan ulduzu" məcmuəsi, Tbilisi, 1987, səh.12/.
41.Türk xalqlarının antroponimlərinin tədqiqi tarixindən /Azərbaycan Onomastikası problemləri/. VI. Bakı. 1996/.
42. A.Qurbanov. Biblioqrafiya (Bakı, 1995, kitabında M.Çobanov haqqında bəhs edilir. səh. 60, 63, 71, 85, 97, 98, 113.
43. Azərbaycan onomastikası problemləri. VI, Bakı, 1996, səh.2.
44. A.Qurbanov, Türk xalqları antroponimlərinin tədqiqi tarixindən. "Azərbaycan onomastikası problemləri", VI. Bakı, 1996, səh.15, 21.
45. F.Qurbanova. Oğuz mənşəli dillərdəki antroponimlərin tədqiqi tarixindən, "Azərbaycan onomastikası problemləri". VI. Bakı. 1996. səh.31.
46.N.Əsgərov, "Abdal" etonimi areal türk onomastikasında", "Azərbaycan onomastikası problemləri", VI. Bakı, 1996, səh.58.
47. M.E.Təhməzli, Nohurlar kənd adı haqqında, "Azərbaycan onomastikası problemləri", VI, Bakı, 1996. səh.70.
48. A.Qurbanov, Elmsiz və ziddiyyətli dilçilik əsəri, "Azərbaycan onomastikası problemləri", VI, Bakı. 1996. səh.136.
49. Onomastika Cəmiyyətinin İdarə heyəti, "Azərbaycan onomastikası problemləri", VI. Bakı, 1996, səh.148.
50. F.V.Mustafayev, Bakı Ali Hərbi Dənizçilik Məktəbi yeni tədris ilində, "Dalğalar qoynunda" dekabr, 1996.
51. N.A.Əliyev, Vətənimizin müdafiəsi etibarlı əllərdədir. "Dalğalar qoynunda". dekabr, 1996.
52. M.Musayeva.Maraqlı görüş,"Dalğalar qoynunda", dekabr, 1996.
53. R.Alışova, "Dalğa" fəaliyyət göstərir. "Dalğalar qoynunda". dekabr. 1996.
